

**Nurtəkin Atalı (Zamanlı Könül Üzeyir qızı) –**
**Asif Atanın Mütləqə İnam Ocağının Evladı.**

**O, 1974-cü il, 16 noyabrda Bakının Saray köyündə doğulmuşdur.**

**1989-cu ildə 8-ci sinfi Sarayda başa vurub, yuxarı sinif təhsilini Sumqayıt şəhərinin 25 saylı orta oxulunda davam etmişdir. 1992-ci ildə Sumqayıt Dövlət Sənaye İnstitutuna girmişdir. 1997-ci ildə mühəndis-texnik ixtisasına yiyələnərək institutu başa vurmuşdur.**

**1996-cı ildə (Ocağın 18-ci ilində) oxuduğu yüksək oxulda işləyən bir nəfər Ocaqçının (indi Ocaqçı deyil) araçılığı (vasitəsi) ilə Asif Atanın görüşünə gedir. Onu bir neçə dəfə dinlədikdən, Yoluna, Əqidəsinə bələd olandan sonra Ocağa Evlad olur.**

**Bir il sonra Asif Atanı cismən itirir. Ancaq çaşmır, Onun Yolunu, İşini davam etmək üçün Amaldaşları ilə birlikdə Ocağın hər bir maddi və ruhani yükünün altına girir. Nurtəkinin Azərbaycanın bir çox rayon və köylərinə çoxsaylı səfərləri olmuşdur. Bu səfərlərdə həm Ocağın Yükümlüsü Soylu Atalıya görüşlər təşkil edib, həm də özü müstəqil şəkildə görüşlər keçirib Asif Ata ideyalarının harayını çəkmişdir.**

**Nurtəkin Atalı bu çağa qədər Ocaq quruculuğuna ən çox əmək qoymuş Ocaqçılardan biridir.**

**O, Ocaq Günsırasının (təqviminin) 35-ci ilində ailə qurmuşdur. Bir övladı var.**

**Nurtəkin Atalı**

# Heyrətimin İnciləri

**Atakənd-36**
**B-Print-2014**

**Tərtibçisi, redaktoru və ön sözün yazarı**
**Soylu Atalı**

# Nurtəkin Atalı
## Heyrətimin İnciləri. (Axtarışlar, tapınmalar).
**B-Print nəşriyyatı, Atakənd, 36 – 132 səh.**

**Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Evladı Nurtəkin Atalının bu ilk kitabı insana, millətə, vətənə sevgi və heyrət ifadəsidir. Onun ömür yolu – axtarışları, qayğıları, fədakarlığı, ruhani çabaları bəlli bir ölçüdə yazılara köçürülərək oxuculara təqdim olunur.**

**ASİF ATA**

**Evladım Nurtəkinə**
**(Ruhani Sənəd)**

İnam Nurluyuq – Nurtəkinik.
İdrak Nurluyuq – Nurtəkinik.
Mənəviyyat Nurluyuq – Nurtəkinik.
İradə Nurluyuq – Nurtəkinik.

İnamsızlıq Zülmətinə qarşıyıq – Nurtəkinik.
İdraksızlıq Zülmətinə qarşıyıq – Nurtəkinik.
Mənəviyyatsızlıq Zülmətinə qarşıyıq – Nurtəkinik.
İradəsizlik Zülmətinə qarşıyıq – Nurtəkinik.

İnsançıyıq – Nurtəkinik.
Həqiqətçiyik – Nurtəkinik.
Yurdçuyuq – Nurtəkinik.

Nurtəkin adını Sənə halal eləyirəm.

Adına Layiq ol!

**Qaranlıqlar Yarılsın!**

**Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!**

***17 Qismət günü, İşıq Ayı, 18-ci il.***
***Bakı.***



***Asif Ata (İnam Ata) və Nurtəkin Atalı***

Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim

Asif Ataya – İnam Ataya ali səcdəylə!

**Ruhani Sənəd**

Asif Ata Evladı Nurtəkinin Ruhani əməl quruculuğu təqdir olunur!

Nurtəkin Ocaq fərdi səviyyəsinin hadisələşmə mərhələsinə yüksəlir.

Hadisələşən Fərd ucalığını endirmə – Ataya layiq ol!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Ocaq Yükümlüsü Soylu Atalı

5 Köçəri Ayı, 24-cü il. Saray.

Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim

Asif Ataya – İnam Ataya ali səcdəylə!

**Ruhani Sənəd**

Asif Ata Evladı Nurtəkinin səfər hünəri təqdir olunur!

Məqam hünərlərini ömür hünərinə tam və həmişəlik çevirmək gərək!

Yolçuluğun Ataya layiq qurulsun!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

Ocaq Yükümlüsü Soylu Atalı

27 Sərt Ayı, 26-cı il. Atakənd.

# Ömür Yolu

Ömür hardan başlayır? – Bu suala müxtəlif cavablar vermək olar. Ancaq gərək bu cavablar hansısa məqsədi aydınlaşdıra, hansısa tələbləri həll edə bilə. Məsələyə bu açıdan yanaşanda sualın cavabı xeyli çətinləşir. Məsuliyyət belə şeydir – hər bir münasibəti çətinləşdirə bilir. Ancaq biz burada bu çətinliyə yoldaş olub sualın cavabını deməyə çalışacağıq. Öncə onu deyək ki, biz insan ömrünü fiziki başlanğıcından dəyərləndirməyin yanlışı deyilik. Fiziki başlanğıcından sonra ömürdə aşkarlanan bir çox cəhətlər uzaq Qədimlikdən gələn keyfiyyətlərdir. Uzaq Qədimlik isə xəlqi mahiyyətə bağlıdır. Bu mənada hər bir fərd əslində həm xalqdan başlayır, həm də xalqı başlayır.

Xalqdan başlayır həm cismaniliyi, həm də mənəviliyi – gələnək və görənəyi, dəyərləri, ləyaqəti, qəhrəmanlığı, özündənkeçməni, sanbalı, döyüşkənliyi...

Xalqı başlayır özünün soy (nəsil) artırma imkanıyla, insansevərliyi, vətənsevərliyi, xalqsevərliyi ilə; yaradıcı, qurucu keyfiyyətlərini aşkarlamasıyla.

Burada "xalqı başlayır" deyimi yerinə "xalqı davam edir" də demək olar. Əslində hər bir başlanğıc özü bir davam, hər bir davam özü bir başlanğıcdır.

Hər bir fərd xalqın həyatında rol oynayır, özü bunu anlasa da, anlamasa da.

Bəs bu rol necədir, müsbətdirmi, mənfidirmi? –Təbii ki, yaşamın anlamını bilməyən adamın oynadığı rol müsbət ola bilməz, başqa sözlə, bütöv sayıla bilməz. Xalqın varlığına kortəbii qatılmaq dəyərə çevrilməz. Ona görə də xalqın həyatında müsbət rol oynamaq üçün onun varlığını – tarixi keçmişini, mənəviyyatını, ruhaniyyatını,

vətənçiliyini, dövlətçiliyini dərk etmək, dəyər yaradan, dəyərə çevrilən şəxsiyyətlərini tanımaq gərəkdir. Bu çox ağır işdir və uzun prosesdir. Hər adamın bacarmadığı bir işdir. Bu səbəbdən də şəxsiyyətlər nadir olur və hər zaman da yetişmir.

Bununla belə, düşünürük ki, hər bir fərd böyük şəxsiyyətləşmə yolu yeriməsə də, milli kimliyə, xəlqi anlama doğma yaşaya bilər, yaşamalıdır. Onda fərdin də, bütövlükdə xalqın da həyatında adil bir nizam yarana bilər. Qədimliyimizin yüksək, qutsal dəyərləri, keyfiyyətləri çağımızın inkişafı üçün özül olar və gələcəyimizi aydınlığa çıxarar.

Asif Atanın Amalı belə istəkləri gerçəkləşdirməyi hədəfləyən ideyalardan ibarətdir. Bu ideyalar əsasında yaşayan da, bu ideyaları ömründə daşıyan da xoşbəxt insandır. Bununla belə, ideyanı ömründə daşımaq ideya əsasında yaşamaqdan daha böyük fərəhçilikdir. Çünki birincidə ömür ideyaya tən olur və məktəbə çevrilir. Məktəb isə ali yaşamın örnəyini yaradır.

Bu deyilənlər İnsanlaşma və İnsanlaşdırma fəlsəfəsinin ölçüsüdür. İndi mən bu ölçüyə dayanıb Amaldaşım Nurtəkin Atalının "Heyrətimin İnciləri" kitabına bir neçə kəlmə ön söz yazmaq istəyirəm. Kitabın adı təsadüfən seçilməyib. Məndən olsa, Nurtəkinin adına "Heyrət" adını da əlavə edərdim. Çünki heyrət onun varlığının mayasına çevrilib. Nurtəkin gözəlliyə, ülviliyə, qutsallığa, saf düşüncələrə, ülvi münasibətlərə elə heyrətlənir ki, ünsiyyətdə olduğu hər kəsə fəziləti tanıdır və sevdirə bilir. Bu, bənzərsiz və özünəməxsus bir haldır. Özü də az-az adamlarda təsadüf olunan haldır. Çünki Nurtəkinin heyrəti kortəbii xassələr daşımır – idraklı, duyğulu heyrətdir. Bu heyrət İdeyaya və İdeyanın yaradıcısına vurğunluqdan işıqlanır. İdeallar dərk olunmasaydı heyrət sönük olardı. Böyük İdeyalar qarşıya böyük tələblər qoyur. Bu tələbləri ödəmək üçünsə çətinliklər

aşmaq gərək olur. Çətinlik də yalnız idraklı, duyğulu hünərin qarşısında yenilir.

Əlbəttə, bu çətinliklər bir anda qarşıya çıxıb bir anda da ötülməyib. Nürtəkinin hünəri çətinliklərin dolanbaclarını bir sıra aşamalarda ötüb adlayıb. Düz 18 ildir ki, Nurtəkin Asif Atanın çağırışından təpərlənib onun saldığı çətin yollarla sabaha yürüyür. Bu 18 ilin hər anı həm ağrılarla, həm də fərəhlərlə yüklü olub. Ağrını doğuran, yaradan səbəblər çoxdur, fərəhi isə doğuran səbəb birdir – hər ağrını, acını yaşayıb yenmək, hər çətinliyi arxada qoymaq...

Bəs çətinliklər niyə var, hardan çıxır?! – Ümumi mənada vurğu eləmək olar ki, Asif Atanın ideyaları insanı gedişata qarşı çağırır, – yalanla, cəhalətlə, ikiüzlülüklə, vətənsizliklə döyüşə yönəldir. Bu döyüş insandan qüdrətli, dözümlü olmaq tələb edir. Qüdrət və dözüm isə hazır şəkildə olmur, onu yaratmaq gərəkdir. Yaradıcılıq da daldada, bucaqda deyil, meydanda gerçəkləşir. Meydana çıxmaq isə böyük bir axına qarşı çıxmaqdır. Artıq bunları biləndən sonra qarşıya gələn çətinliyi şərh etməyə ehtiyac qalmır.

Həm də nəzərə alsaq ki, Nurtəkin zərif cinsin nümayəndəsidir, özü də kənd mühitində yaşayıb böyümüşdür, onda çətinliyin bir az da aşırı olacağını düşünmək mümkündür.

Nurtəkin Atalı 1974-cü ildə Bakının Saray köyündə doğulub boya-başa çatmışdır. Bu köydə orta təhsil almış və Sumqayıt Dövlət Sənaye İnstitutuna girmişdir. İnstitutun 4-cü kursunda oxuyarkən orada öyrətmənlik edən keçmiş Ocaqçılardan birinə rast gəlir. İlk dəfə Asif Atanın adını da həmin Ocaqçıdan eşidir. Sonradan onun araçılığıyla (vasitəsiylə) gedib Asif Atanı dinləmiş və Ocağa Evlad olmuşdur. Bununla da Nurtəkinin həyatında dönüş başlamış və aqibətinin gələcəyini seçmişdir. Bu seçim 22 yaşlı gənc bir qız üçün nələr vəd edir, əlbəttə, o çağlar özü bunu dərk etmirdi. Onun seçimi

özünün idi, heç bir valideynin, qohum-qonşunun qatqısı yox idi. Nurtəkin atasını uşaq yaşlarında itirmişdir. Anası da mədəniyyətli, zəhmətkeş qadın olmaqla yanaşı, həm də, övladlarının seçim haqqına qarışmayan anlaşıqlı bir şəxs idi. Bu baxımdan Nurtəkinin Asif Ata Amalına bağlanmasına evin içindən əngəl yaranmayıb. Bununla belə, qıraqdan Nurtəkinə qarşı gözə görünən və görünməyən basqılar qısa vaxt içində araya-ortaya çıxır. Çünki Nurtəkin həm təhsil aldığı yüksək oxulda, həm kənd qonşularında, qohum evlərində Asif Atadan eşitdiklərini, öyrəndiklərini deməyə, özünü ifadə eləməyə başlayır.

Hər bir yeni yola, əqidəyə başlayan insanlarda olduğu kimi, Nurtəkində də əqidə haqqında bilik, təsəvvür birdən-birə yetgin biçimə düşməmişdir. Ona görə də ünsiyyətdə olduğu insanlara anlada bildiyi, bilmədiyi məqamlar olub. Sonucda qohumlar, qonşular Nurtəkinin yanlış yolda olduğu təsəvvürü yaratmağa başlayıblar. Onun əqidəsini ayrı-ayrı dini təriqətlərlə, təşkilatlarla eyniləşdirməyə çalışıblar. Ancaq Nurtəkinin düşüncəsi yetişdikcə, yetkinləşdikcə ona qarşı münasibətlər dəyişməyib, tərsinə, qısqanclıq, paxıllıq kimi münasibətlər də üstünə gəlib. Heç kim yörəsində özündən üstün – idraklı, mənəviyyatlı şəxs görmək istəmir, özəllikcə də yaxın qohumlar, tanışlar içərisində.

Hər tərəfdən dedi-qoduların başladığı bir vaxtda Nurtəkin dözülməz bir sarsıntı ilə – Asif Atanı cismən itirməklə üzləşir. Belə bir durumunda birdən-birə mənəvi dayağını itirmək, əlbəttə, gənc bir qız üçün əqidə yolunda getməyi mümkünsüz edirdi. Ancaq o, Yoldan sapmadı, Amaldaşlarına söykənib ayaqda durdu. Bundan sonra heç kim, heç nə onu Asif Atanın Yolundan döndərə bilmədi. İlk heyrət, ilk vurğunluq işini görmüşdü – o, əbədiyyət yolçusuna çevrilmişdi.

Sonralar, gələcək həyat yoldaşının (nişanlısının) anası tərəfindən Ocağa qarşı təhdidlərlə üzləşəndə nişanı qaytarıb imtina etmişdir. Onu, əqidəsinə sayğı ilə yanaşıb anlayan birisinə rast gəlmədiyi üçün uzun illər ailə qura bilməmiş, evsiz-eşiksiz yaşamışdır. Gah qardaşının, bacısının evlərinə sığınmış, gah Amaldaşı və rəfiqəsi ilə birlikdə kirayələrdə qalmışdır. Ancaq daim Ocaqçılıq fərəhi ilə yaşamış, Ocaq əməllərindən geri durmamışdır. Nurtəkin rahatsızlıqdan, şəraitsizlikdən çox əziyyətlər çəkmiş, hətta xəstəliyə də uğramışdır. Sağlamlığını bərpa edənə qədər maddi çətinliklər də yaşamışdır. Bu çətinlikləri yenərək sağlamlığını bərpa edəndən sonra isə ayrı-ayrı yerlərdə işləmiş, qazandığı paraları da Ocaq ədəbiyyatlarının, arxivinin yaranmasına, Azərbaycanı qarış-qarış gəzərək Asif Ata Amalını haraylamağa xərcləmişdir. O, Ocaq yolunda fədakarlığın və umacaqsızlığın zirvəsini fəth etmişdir.

Nurtəkinin gücünə zərbə vuran hadisələrdən biri də anasını itirmək oldu. Amaldan qıraqda güvəndiyi bir şəxs vardı, o da anası idi. Anasının ölümü böyük kədər idi, ancaq o bu kədəri çox ləyaqətlə yaşadı. Ümumən, kədər Nurtəkində çox gözəl görünür, çünki onun kədərinə heç bir saxta əhval, oyun qarışmır. Anlayır kədəri, ona görə də onu adiləşdirmir. Onun bu halını ayrıca örnək saymaq olar...

Budur, o, yenə də ruhani iş başındadır. Hər bir Ocaq əməlini ərdəmliklə yerinə yetirir, Ocaqçılıq ömrünü fərəhlə sürdürür.

Burada, biz əsasən Nurtəkinin ömründən bəhs etdik. Çünki bu kitabı da, elə onun ömründən bəhs edir.

Nurtəkin Ocağın  Uluyol-Hünər Ailəsinin Yükümlüsüdür. Onun "Ailə Günü" tədbirlərində, Ocaq mərasimlərində uğurlu çıxışları olur. Bu çıxışlar – Asif Ata Amalını öyrəndiyi, dərk elədiyi, yaşadığı halların ifadəsi kimi araya gətirdiyi düşüncələrindən və yazılarından ibarət olub. Hesab edirik ki, sevdalı ürəklər, ruhani diləklər bu

yazılarda Asif Atanın əməyini, məktəbinin etkisini duyub bəhrələnəcəklər. Ona görə də bu yazıları sıralayıb oxuculara, soydaşlarımıza təqdim edirik. Yuxarıda vurğuladığımız kimi, bu yazılar bir millət və əqidə fədaisinin heyrətinin inciləridir.

Amaldaşımız Nurtəkin Atalı öz heyrətini yazıları ilə ifadə edən çağlarda bunları nə vaxtsa kitab şəklinə salmağı heç ağlına da gətirməmişdi. Başqa sözlə, o, kitab üçün yazmırdı, heyrətli anlarının hesabatını verirdi. Ancaq yaşadıqlarını, düşündüklərini soydaşlarınla paylaşmağın uğurlu bir üsulu da kitabçılıqdır. Kitab böyük sözdür və qutsaldır. Çünki orada ömür yolu yazılır. O ömür ki, insani, milli ləyaqəti var edir.

Amaldaşımıza ömür yolunda dönməzlik və ölməzlik diləyirik.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

## *Özümlə görüş*
## *(Ocağa gəlişin 15 illiyi üstünə)*

Mən saf, səmimi bir türk qızı olmaqla sıradan birisi idim. Asif Ata ilə qarşılaşana qədər həyatda müşahidələrim – adamlar arasındakı umacaqlı münasibətlərin, haqsızlığın, ədalətsizliyin niyəsi başımda sual kimi qalmışdı. Dünyaya gəlişinin səbəbini dərk etməyən və həyatın axarını olduğu kimi qəbul edən, daha doğrusu, pozuntuya uğramış gedişatla barışan bir fərd idim. Əslində yörəmdəkilərin hər biri də elə idi. Hər kəs üçün “gələcək” yalnız fərdi istəklərə və maddiyyata bağlı idi. Ancaq tarixi qəhrəmanlara heyrətlə baxardım.

Həyatdakı ədalətsizlik məni incitsə də, ona qarşı çıxmaq ağlıma gəlmirdi. Əksinə, bədbinləşirdim. “Nəyi doğru, nəyi yanlış elədim?” sorğusu məni yorurdu. Çünki qərar verməkdə çətinlik çəkirdim. İnsanlara və özümə inamım gündən-günə azalırdı. Mənim nə idealım, nə yolum, nə də məqsədim vardı.

Bu günlərdə söhbət elədiyim bir adam söhbət əsnasında məndən soruşdu ki, 1 aydan sonra öləcəyini desəydilər, nə edərdin? Mən də cavab verdim ki, indiyə qədər nə edirdimsə, onu eləyərdim. Yolumuzla, Amalımızla bağlı söhbət edirdim onunla. O, elə bilirdi ki, onun sualı məni çaşdıracaq və mən söz tapa bilməyəcəm. Amma söhbətin sonunda onun sözü olmadı. Mən özüm Yol’un anlamı ilə bağlı söhbət elədikcə, onu necə də içdən yaşadığımın fərqinə vardım. Yolum olduğu üçün özümü xoşbəxt hiss elədim.

Ata deyir ki, ”İnsan özünə sahib olmayanda həyat ona sahib olur”. Özünə, öz duyğularına sahib olmaq – azadlıqdır.

İdealı olmaq – həyatla fərqin yaranmasıdır, yəni adi gerçəklikdən fərqli yaşamaqdır. Həyat mənim qarşıma İnsani tələb qoymur. İdeal – Mütləqə yüksəlmək tələbi qoyur.

Mütləqə inanmaq – “Dünyanın Mənası Dünyadan artıqdır və Dünyadadır; Həyatın Mənası Həyatdan artıqdır və Həyatdadır. İnsanın Mənası – Mütləq olandır, – İnsanilikdir”, Həqiqətlə yaşa-

maqdır. Daxilindəki Mütləqə, İdeala inanmaq – özünə doğru Yol başlamaqdır. Özünü yaratmaq, özüylə döyüşmək tələbinə yetməkdir. Düşündükcə, yaşadıqca aşkarlanmaq. Özünü fərd olaraq yaratmaq, Xəlqi mənaya yüksəlmək haqqında düşünmək. Belə bir bağlılığı yaratmaq böyük məqsədi doğruldur. Şəxsiyyətin yaranması millətin yaranmasına qulluq edir.

Yolum var, yaşamımda hər şey o Yola bağlıdır. Yol varsa, Aqibət qurulur. Yol dəyişmir, Aqibət də dəyişmir. Yol gedilir, Yol gedildikcə Aqibət ruhaniləşir, yüksəlir. Aqibətdə dəyişməzliyə, sabitliyə çatmaq xoşbəxtlikdir. Çünki həqiqət yalnız bir anda deyil, yaşanılan hər anda təsdiq olunur. Aqibət şəraitdən, mühitdən, adamların münasibətindən asılı deyil.

Ölüm Aqibəti dayandıra bilər, dəyişdirə bilməz.

...Özümə Mütləqilik ölçüsü ilə yanaşdıqca, Ocağa qədərki ömrümdə əsarət gördüm. Özümə inamım çox zəif idi. Özünə inam – adamın nəyə inandığına bağlıdır. O inam əsasında Ruhunu yaratmağa bağlıdır. Özümə inanmırdım, çünki qismətə, alın yazısına, dünyanın, insanın idarə olunmasına inanırdım. Necə yaranmışamsa, elə oyam, heç nəyi dəyişdirə bilmərəm deyə düşünürdüm. Amal – Ali həyatda yaşamaq imkanı verdi mənə. “Yalansız yaşaya bilmərəm” deyə düşünürdüm. Ocaqçı olduqdan sonra həyatımdakı yalanlardan imtina etməyə, bu yalanlarla döyüşməyə başladım. Yalan söyləmək içindəki Həqiqətə xəyanətdir. Yəni məndəki yalanla həyatdakı yalan arasında bağlılıq var. Həyat naminə deyil, Amal naminə yaşamaq ömrü dəyişdirir. Mən yalanı ömrümdən qovduqca həyatdakı yalan təsdiqsiz qalır. Yalanı həyatın qaydası, gedişatı sayırlar. “Yalansız həyat mümkün deyil” deyirlər. Mən öz ömrümdə yalansız aqibəti təsdiq edirəm. Yalan əsarətindən, qorxusundan, inamsızlığından azad oluram. Yalanı ömrümdə yaşatmadığıma görə özümə inamım artır, vicdanım böyüyür. Atanın dediyi kimi, vicdan hakimliyi yaranır ömrümdə. Vicdan – ömürdəki yalanla həqiqət arasındakı balansı uçurur. Yalanın ömürdən yox olmasını təmin edir. Vicdanın tələbiylə Mənəmlikdən xilas oluram...

Həyatda adamlar arasında rəqabət gedir. Bu rəqabət maddiyyatçılığa bağlıdır. Nəyin bahasına olur-olsun başqasından fərqlənmək, başqasını ötmək.

Amala gəldikdə özü üçün yaşamaq istəyim ali duyğularla əvəz olundu.

Mənəmlik istəyim Mənliyimi yaratmaq istəyimlə əvəz olundu.

Özümü yaratdıqca mənliyimin xəlqi, bəşəri mənaya bağlı olduğunu da anladım.

Ömrü mənəmlik əsarətindən qurtarmaq üçün Amalın ömrə hakim olması gərəkdir. Ömrümü yaratdıqca yörəmdəkilərin ümidinə də ömrümdən işıq düşür. Bu işıq ümid kimi yenidən mənə qayıdır – doğmalıqda, sevgidə. Bu, mənim gücümü artırır.

Mənə sual verirdilər ki, axı bu fədakarlığı (özündənkeçməni), yaxşılığı niyə edirsən, sənə ki bundan fayda gəlmir. Mən cavabında deyirəm: deyək ki, mən özümdən keçir, umacaqsızlıq edirəm. Axı bunu həm də qarşımdakı insan yaşayır. O da yaxşılığın fərəhini alır. O da mütləq, başqasına yaxşılıq edəcək, böyük mənada Yurduna yönəlik fədakarlıq edəcək. Çünki yaxşılığın, fədakarlığın fərəhli duyğularını, halını yaşayıb. Başqasının ona yaxşılığından sevinmişdi, böyük mənada Vətəninə həsr olunmağın ləyaqətini müşahidə etmişdi. O da başqasını sevindirəcək, Yurdsevərliyə can atacaq mütləq. Beləliklə də fədakarlıq, yaxşılıq zənciri yaranacaq. Bax, mənim qazancım odur...

İçimdəki qorxunu ötdüm.

Ocağa qədər hər şeydən qorxurdum – Allahdan, ölümdən, şəraitdən, münasibətlərdən, yüksək mövqelərdən və s. Bildiyim və bilmədiyim hər şey qorxu duyğusu gətirirdi mənə. Əslində bildiyim də tam olaraq bildiyim deyildi. Bilmək – mənasını görə bilmək, dərk etmək, anlamaqdır. Qorxu duyğulara hakim kəsilir və onları göz açmağa qoymur sanki. Yenə də özü ola bilməmək.

## *Aqibət yiyəsi olmaq*

Aqibət yiyəsi olmaq – duyğuların, düşüncənin yiyəsi olmaqdır. Özünə inam artdıqca qorxu da yox olur. Qorxunun gətirdiyi əsarət – özünə inamla, cəsarətlə dağılır. Ömürə vüqar gəlir, ləyaqət gəlir. Adamlıq duyğuları bir-birinə bağlıdır. İnamsızlıq qorxuya, qorxu həsədə, mənəmliyə, naqisliyə bağlıdır. Birinin əsarəti o biri əsarəti gətirir. Özümlə döyüşdükcə, insanlıq duyğularımı aşkarladıqca əsarətdən azad oldum. Özünə inam – cəsarəti, ləyaqəti, vicdanı, özünü başqasında görməni, sevgini, qayğını gətirir. Bir duyğunun fərəhinə yetmək o birini də yetirmək tələbi qoyur qarşıya.

Nə qədər ifadə etmək istəsəm də, sözə sığmayan fərəh yaşamışam və yaşayıram da. Aqibət yiyəsi oldum, ömrümə özüm yiyə oldum. Özümlə döyüşdükcə, özümü içdən yaratdıqca inamım artdı. Adamlıq duyğularından azad olduqca İnsanlıq içimi işıqlandırdı. Bu işıqla baxıram həyata, insanlara. İnsanlara sevgim və inamım artır. Nə qədər qüsurları olsa belə, içlərində İnsanilik var, o insaniliyə inanıb münasibət qururam.

Fərd olaraq yarandıqca, fərdin millətdə yeri, millətin bəşərdə yeri kimi düşüncələrim yaranır. Yalnız özü üçün deyil, milləti üçün yaşamaq – ömrü dəyərə çevirir. Çünki mənim düşüncələrim də, varlığım da, əməllərim də millətimin sabahına qulluq edir, millətimin sabahını yaradır.

Mən millətimlə var oluram.

Bu bağlılığı yaşamaq, bu ahəngi hiss etmək – həm fərəh, həm də məsuliyyət deməkdir. Əgər fərd kimi, insan kimi özümü dəyişdirə bilirəmsə, demək, millət də dəyişilə bilər, özünə bərabər ola bilər. Millət də insanlardan ibarətdir. Əgər mən fərd kimi aqibətimi yarada bilirəmsə, millətim də özünün ruhani Aqibətini yarada biləcək. Belə bir Həqiqətə qulluq eləmək şərəfdir.

***Atamız Var olsun!***

## Mütləqə İnamın Evlad ömrü ilə Birliyi

Ömür – həsr olunduğu məqsəddir, İnamdır, Yoldur. Hər İnamın öz Yolu, yaşam tərzi və bunu daşıyan, yaşadan İnsan ömürləri var. Hər dövr, hər ictimai quruluş, hər İnanc öz insanını yaradır. İnsan ömrü Zamana, Quruluşa, İnanca sığırmı, sığa bilirmi? Onu əhatə edən mühit, şərait, quruluş insan duyğularına, istəklərinə cavab verirmi? İnsan görünürmü burdan? İnsanmı uyğunlaşmalı zamana, dövrə, quruluşa, quruluşmu uyğunlaşmalı insana? Biz tarixdən hər zaman insanın yaratdığı quruluşun onun özünü aşağıladığını, idarə etdiyini gördük. Yaratdığı quruluş insanı icraçı edir və beləliklə də insan öz bütövlüyünü, ali keyfiyyəti olan İnsaniliyini itirir.

İnsana İnam, Sevgi ölçüdür. Yüzillərdir Allaha inanırlar. Müqəddəsliyi göydə axtarırlar və ömrü bəndəlik əsasında qururlar. Burada İnam – özündən qıraqdakına yönəlir – bununla ömrü qurmaq olmaz. Əgər Dünyanın Mənası Dünyadan qıraqda axtarılırsa, hansı dünyanı gözəlləşdirmək üçün əməl və əmək qoyacaqsan ortaya? Dünyanın dağılacağına inanırsansa, düşüncən, əməlin, hünərin nəyə gərəkdir?!

Siyasi ağalara inanırlar. Gücün hakim olduğu yerdə Ədalət yoxdur, Həqiqət yoxdur.

Həyatın, Dünyanın ahəngi İnsanın özünə inamından başlayır. İnsanın özülü İnsanlıqdır, – buna necə çatmaq olar? Asif Ata deyir ki, "Bəşər övladı Məxluq kimi dünyaya gəlir, Adam kimi mövcud olur, İnsan kimi yenidən doğulur". Məxluq yalnız yeyir-içir, nəsil artırır. Adamın isə Nisbi İnamı, Nisbi İdrakı, Nisbi Mənəviyyatı, Nisbi İradəsi olur. Adam özüylə döyüşərək İnsan kimi özünü yenidən yaradır – Mütləq İnama, Mütləq İdraka, Mütləq Mənəviyyata, Mütləq İradəyə çatır. Adamlıqdan uzaqlaşdıqca İnsaniliyə yetir. İçindəki Şərdən imtina etdikcə Xeyiri təsdiq edir. Bu Özüylədöyüş Yolu – İnsani Aqibət deməkdir. Aqibət qurulur, həm də qurur.

"İnsan – müqəddəsliyə, həqiqətə, vətənpərvərliyə, qəhrəmanlığa, bəşərsevərliyə, ideala, məhəbbətə, qədimliyə, ruhani ülviyyətə, cəngavərlik siqlətinə qəlbdən bağlanan, ömrünü Yüksək arzulara həsr

edən, səadətini onda tapan Şəxsiyyətdir" deyir Asif Ata. Dünyada, Həyatda gözəl, ülvi şeylər görən, müqəddəslik axtaran insan onun yaşaması üçün mübarizə aparır. Bu yolda o özü də dəyişilir. Öz idealına, məqsədinə doğru gedən yolda əməllər onu içindəki Mütləqinə qovuşdurur.

Asif Atayla görüşənə qədər özümə inamım yox idi. Bir hərəkət edincə "doğrumu elədim, səhvmi?" deyə icimdə çırpınırdım. Hərəkətlərimin doğru olub-olmadığını müəyyənləşdirmək çox çətin idi mənə. Çünki ailə ölçüsü vardı, məktəb ölçüsü vardı, cəmiyyət ölçüsü vardı, amma içimdə öz ölçüm – həqiqət ölçüsü yox idi. Atanı oxuduqca, tanıdıqca ruhumun gözü açıldı. Ata o qədər aydın idi ki, mən icimdəki bulanıqlığı, qeyri-kamilliyi gördüm, insanlaşmaq, özüylə döyüşmək zərurətini, insan kimi yaşamaq anlamını, içimdəki imkanları aşkarlamaq zərurətini kəşf etdim. Özünü yaratmaq, ruhunu yaratmaq, xalqla doğmalığı duymaq, xalqın sabahının məsuliyyəti ilə düşünmək – bunlar ruhumun qayğıları oldu. Bu qayğılar xarakterimi mətinləşdirdi, ömrümü yaratdı.

Ömrümü yaratdıqca gərəkliliyimi dərk etdim.

Özümləşmə tələbi ömrü qurur.

Ömrü qurmaq – İnam işidir. İnam Ömürdə yaşayır, yaşadır, ömürləri ömürlərə calayır.

"İdrak – İnamdan ayrılanda Yolsuzlaşır. İnam İdrakdan ayrılanda – Dinləşir" deyir Atamız. İnandığını İdrakınla təsdiq edirsən, həm İdrakın təsdiq olunur, həm də İnamın. İnsan öz Ömrü ilə necə vəhdətdə ola bilər – İnamın tələblərinə yüksəldikdə, ardıcıl, davamlı əməllərdə, usanmadan Yolu getməkdə.

Asif Atanın Ocaqçılar qarşısında qoyduğu tələb – Amallaşma, Kamilləşmə, Xalqlaşma tələbləridir. Amallaşma – Atanı oxumaq, Amalı öyrənmək. Kamilləşmə – Özüylədöyüş, özünütəhlil, özünənəzarət. Xalqlaşma – oxuduğunu, öyrəndiyini, yaşadığını xalqa vermək. Buraya görüşlər, yazılar, söhbətlər, bölgələrə səfərlər daxildir.

Biz bölgələrə səfər edəndə bizə sual verirdilər ki, sizi bura kim göndərib, sponsorunuz kimdir? Biz isə deyirdik, kimsə bizə sponsor-

luq eləməz ki, Azərbaycanın gənclərinə xəlqi dəyərlərdən danışaq. İnsanın İnam əsasında özünü yaratmasından danışaq, vətənimizin sabahına inamdan danışaq. Mənim içimdə özümə inam yarananda, milli-insani Yolu anlayanda, aqibət bütövləşəndə bu fərəhi bölüşmək istəyi yaranır. Bunun üçün sponsor axtarmırlar, ürəyin, eşqin tələbiylə, fədakarlıqla əmələ yüksəlirlər. Hər addım böyüdür, hər əməl Özümlüyə yaxınlaşdırır bu Yolda.

Asif Atanın vəfatından sonra Ocaq Yükümlüsü Soylu Atalı Bakıda və Sumqayıtda orta və ali məktəblərdə görüşlər keçirir. Onun keçirdiyi görüşlərdə biz də iştirak edirik. Həm də görüşləri təşkil edirik. Bir gün Soylu "özünüz də görüş keçirməlisiniz" dedi. Mən xaraktercə çəkingən idim. Amalı bilsəm də, özümü auditoriya qarşısında təsəvvür etmirdim. Soylu Atalının ardıcıl israrından sonra biz də (Göylü, mən, eləcə də başqa Ocaqçılar) görüşlər keçirdik.

Soylu Atalı görüş keçirərkən onu izləyirdim. Bəzən Soylu Atalı danışdıqca səsli-küylü sinfin sakitləşməsi, söhbətdən sonra öyrəncilərin sualları, görüşdən sonra ayrılmaq istəməmələri – bunları görmək çox xoşdu. Amma özüm görüş keçirərkən danışdıqca, Amalı izhar etdikcə ürəyimin dolu olduğunu, mənimlə auditoriya arasında bağlılıq yarandığını hiss etdim. Həyəcanımı ötdüm, tərəddüdümü ötdüm, əks fikirli adamlarla üz-üzə gəlmək qorxusunu ötdüm. Görüş qurtaranda artıq öncəki adam deyildim.

Özümə inamım artmışdı.

İnsana inamım artmışdı.

Özümlüyümə doğru addım atırdım.

Əsil fərəhimi yaşayırdım.

İçimdəki inamsızlığı yenmişdim.

İnsanlara sevgim, doğmalığım, onlarda Ruhani Yön yaratmaq istəyim artmışdı.

O zaman anladım ki, əməli yaşamaq nə deməkdir. Addım atdıqca özünə qarşı tələb də artır. Öncəki səviyyə ilə yetərlənmirsən. İçindəki Mütləqə qovuşmağa daha artıq can atırsan. Ömür ilə İnamın vəhdəti belə yaranır.

Bir dəfə özüylə görüşən yenidən özünə can atar, bir dəfə ali fərəhə yetən ardıcıl fərəhlənmək istəyiylə yaşayar. Sonra bunu başqalarıyla paylaşmaq istəyər.

Əgər bir ömür əsil mənada yaranırsa, onun işığı mütləq görünür. Bu hal Günev Atalının ömründə də özünü qabarıq şəkildə göstərdi. Günev qardaşımın yaşadığı bölgədə "İnam" işi aparması yerli mollalarda və onlara bağlı kütlədə kin və həşir yaratdı. Günev isə ardıcıl, davamlı, sabit halıyla, sözüylə ömrünü yaşayır. İnam Evini qurur. Bir insanın öz ömrünü qurması, aqibətini yaşaması, Yola aşiqliyi və sadiqliyi yörəsindəkiləri yaxşı anlamda sarsıdır. Özünə, Yurduna yadlaşanlarda acıq yaratsa da, Yurd həsrəti ilə yaşayanlarda rəğbət yaradır. Çünki bütövlük görürlər ömürdə. Söz və əməlin birliyini görürlər. Burada artıq həm Günevə, həm də onun Yoluna İnam yaranır. Çünki Günev ömrü və Amala aşiqliyiylə Yolunu tam ifadə edir – budur Mütləqə İnamın ömürdə görünməsi. Ocaq ölçüsü ilə yaşayanda Yol üçün atılan hər bir addımın dəyəri, qiyməti bənzərsizdir. Mütləqə İnam belə Aqibətləşir, var olur ömürlərdə.

Biz fərd kimi xalqımızın bir hissəsiyik. Ömrümüzdə yaratdığımız dəyərlərin xalqımızda yaşaması həqiqətdir. Özümüzü elə yaratmalıyıq ki, verə biləcəyimiz də çox olsun. Əgər mən Mütləq İnamlı, Mütləq İdraklıyamsa, Umacaqsız və Fədakar yaşayıramsa, gerçəklikdən artığamsa, deməli, əməllərim də Mütləq tələblərə uyğun olacaq.

Ömrümü yadlıqdan qoruyuram, xalqımı yadlıqdan qoruyuram və ardıcıl mübarizə aparıram. Özümlü, xəlqi dəyərləri ömrümdə yaşadıram, xalqımın sabahını qoruyuram.

Xalqa bağlılığı aqibət səviyyəsində yaşayırıq. Aqibətin qurulması – ülvi məqsədlərin, ideal niyyətlərin həyata keçməsidir. Əgər bunu yaşayırıqsa, deməli, öz taleyimizin yiyəsiyik. Biz Həqiqətdən, Ədalətdən asılıyıq. Ömrümüzdə yaşayırıq bunları, həm də yaşadırıq. Düşüncələrimizin, əməllərimizin gərəkliyinə, zəruriliyinə, mənasına tam inanırıq. "Ən böyük rütbəm – İnsan! Ən böyük mükafatım – İnsanlıq!" deyir Atamız. Mənanı dərk etmək – Onun vurğunu olmaq

deməkdir. Vurğunu olduğunu yaşatmaq istəyiylə əməldən əmələ can atırsan.

Sona qədər sarsılmaz İnamla getmək çətindir. Çünki gerçəklik, həyat şərtləri, adamların içindəki mənəmliklər əngəl ola bilir. Dəyişməyən Yoldur – Mütləqə İnam Yolu. Nə qədər ki ağlınla, ürəyinlə bu Yolda addımlayacaqsan, o zaman Yolla doğmalaşacaq, Hünərlə vəhdətdə olacaq, Amala layiq olacaqsan.

***Atamız Var olsun!***

## *Özümləşən Düşüncələrim*

### *I*

Hər zaman həyat məni əzdikcə həyatdan yüksək olmaq istədim, lakin yolumu Ataya rast gələnə qədər tapmadım.

Həyat axarı ilə gedəndə həyatıyın fərqliliyini görə bilməzsən, həyatın zərbəsini də almazsan. Həyatın tələblərinə ağıl cavab verir, ödəyir o tələbləri. Hər şey həyat üçün olanda insan dəyərsizləşir, adiləşir. Nöqsanlı olmaq qəbahət sayılmır, çünki həyat fərqlənmək tələb etmir. Fərqlənəndə də elə fərqlənirsən ki, həyata yarayırsan. Həqiqətsiz yaşamaq yaşamamaqdır, ömrü həyat axarında itirməkdir.

Həqiqətin ömrümə gəlişi – dünyaya, həyata baxışımı dəyişdirdi, gözümü açdı, hər şeyi öz rəngində, ahəngində görməyə başladım. Amala həsr olunduqca idrakım da ruhaniləşdi, özünütəsdiqin nə demək olduğunu anladım. Bu özünütəsdiq ahəngini hər zaman qorumağa çalışdım. Ata fikri ilə desək, "sonlu dünyada sonsuz yaşamaqdır ruhanilik. Qeyri-kamil dünyada kamil yaşamaqdır". Bunun anlamına yetəndə, mütləq tələbi ömürdə gerçək olaraq yaşayanda onu qorumağa yönəlir inam da, idrak da. O zaman ki, artıq həyatın axarına qarşı çıxmaq var, onda artıq bu fərqlilikdən doğan

basqılara dözmək olur. O zaman qarşılaşdığım bu çətinliklər mənim üçün daha başqa şeyləri aşkarlayır.

Öz ruhani inadımı sevdim, Amala bağlılığımı, sədaqətimi, ömrümlə Amalda yaratdığımı və bunu qorumaq iqtidarında olduğumu, ölçümün həqiqət olduğunu gördüm və sevdim. Bu, yenidən özümə inam yaratdı. Həyatı, həyat tələblərini özümdən aşagıda görürəm, çünki ona məna ucalığından baxa bilirəm. Münasibətləri, davranışların mənasını o qədər aydın görürəm ki, heç bir şey ağlımı çaşdırmır. Eyni halda artmaq, artmaq istəyirəm. Ömrü Amalda yaratmaq həm də arzuları, gələcəyi Amalda yaratmaqdır. O gələcəyə doğru daim irəliləməkdir. Amalı mən seçirəm, Amal isə mənim ömrümü seçilmiş aqibətə çevirir. Əbədi yolçuluğa kökləyir.

## II

Dönüb arxaya baxdığımda yolumu, ömrümü görə bilirəm. Ataya ilk dəfə heyrətim ilk dəfə görüşümüzdə yarandı. Hər şey bir andan başlayır, hər şey dönüşdən başlayır. O an həlledici olur və təməl qoyur yenilənməyə.

Ata ilə ilk görüşüm, Atanın ilk dəfə əlini öpməyim, Atanın gülüşü, yerişi, Evladları qarşılaması, onlarla danışması, "hara getsən, bil ki, sən üstünsən" deməsi məndə qeyri-adi duyğular oyadırdı. Mənə, "sən hələ qönçəsən, açılmamısan" deməsi, "sənə inanıram, qızım" təkrarlaması, hər dəfə ürəyimin dərinliyinə enib sarsıdırdı məni. Ata mənə inanır, mən özümə inanırammı? Hər şey keçmişdə olsa da, indi də duyğularımda, düşüncələrimdə yaşayır. İndi də xatirələrimdə canlanır, məni yaşadır.

Atanın ölümü, ən böyük sarsıntım idi. Anlayırdım ki, Atanı necəsə yaşatmaq gərəkdir. Amma necə? Vəfalı olmaq istəyirdim, yolunu bilmirdim. Ağlımın, özümə inamımın gücü çatmırdı. O zaman Soylu Atalıdan tutmaq dadıma çatdı.

Ata kitablarının üzünü artırdıqca, Ocaq əməllərinin fərəhinə yetdikcə Ata ilə ruhani təmasım yaranırdı. Ata ilə üz-üzə görüşmək, onunla danışmaq hələ Ata ilə ruhani vəhdət deyilmiş. Ruhunu yer

qayğılarından, duyğularından, düşüncələrindən azad etdikcə, Göyə ucalırsan, Ataya yaxınlaşırsan. Ruhani vəhdət budur. Ata göyündə özünü hiss etmək, orda – Atanın ruhunda özünü görmək, Ocaqla doğmalaşmaq.

Soylu Atalının Ocaq yolçuluğu, Ocağa bağlılığı, Yola vurğunluğu Ocağın halını yaradırdı. Əməllərin ardıcıllığını düşünmək, mərhələləri başa gətirmək, ardıcıl görüşlər, tədbirlər və Soylu Atalının tələbləri. Nöqsanlara görə nə qədər əsəb xərcləyirdi. Bizim çox şey yadımızdan çıxırdı, ya da yerində və vaxtında olmurdu. Soylu Atalı güzəştsiz idi. Güzəştsiz və sevgi ilə, qayğı ilə tədbirlərin texniki hazırlığından tutmuş məzmununa, mahiyyətinə qədər böyütdü bizi. Hər dəfə Ocaq əməlini, ya söhbətini bölüşdükcə, yanlışlarımı deyə-deyə, doğrularımı öyə-öyə özümə necə yanaşmağı, Ocağa necə layiq olmağı öyrətdi mənə. "Görüş keçirməlisiniz" deyə bizi görüş keçirməyə, özümüzlə, xalqla üz-üzə durmağımızı öyrətdi. Yorulmadan, dayanmadan və sevə-sevə Ocaq halına, əməllərinə bağlanmağı öyrətdi. Bəzən mən fərdi görüşlərdə Soylu Atalıdan da danışıram, onu təqdim edirəm. Mən hiss edirəm ki, heç Soylu Atalını da tam ifadə etmirəm. Ocağa ömür nə qədər çox həsr olunursa, o qədər də ucalır, sehrlənir. Ucalığı ifadə eləmək də çətinləşir.

Görüş keçirmək nə deməkdir – özüylə üz-üzə durmaq, xalqla üz-üzə durmaq, xalqın səviyyəsini bilmək, özünün səviyyəsini bilmək, yükü anlamaq, sevmək, məsuliyyətə yüksəlmək, Ocaq mühitinin qədrini bilmək və harda olduğunun fərqinə varmaq. Kimlə döyüşürsən, nə ilə döyüşürsən, niyə döyüşürsən bunların fərqinə varırsan. Ən əsası dayanmamaq. Yola davam..."

## III

Xalq bizim varlığımızdır. Yaşadıqlarımız, gələcəkdə yaşayacağımız adət-ənənə, həyat tərzi əsasında birliyimizdir. Xalqın təməli ailədir və ailədə fərd iç keyfiyyətləri ilə yaşayır. Ailənin varlığı və övlad yalnız nəslin davamı deyil, həm də ömürlərdə yaşanan xəlqi

dəyərlərin davamıdır. Nə dərəcədə o dəyərlər ömürlərdə yaşanır, ifadə olunur bu ayrı mövzudur. Ata deyir ki: "İnsan Fərdiyyət vasitəsiylə Ruhaniyyata çatır, Xalq vasitəsiylə Ruhaniyyatı yaşadır; Xalq Ruhu adlanan Qüdrət yaranır".

Necə ki, adamlar alın yazısına, qismətə inanırlar, eləcə də xalq özünün xalq olaraq "qismətinə" inanır. Dünyanın gedişatını dəyişmək olmaz, tarixin qisməti budur deyə taleyi ilə barışır.

Ancaq Tarix nə qədər insana qarşı olsa da, nə qədər antiinsani gedişatı təsdiq etsə də, xalq ruhunu öldürə bilmədi.

Zərdüşt niyə "təmiz fikir, təmiz söz, təmiz əməl" ideyasından yapışmışdı. Dünya elə öncədən insani qayda ilə getsəydi, Zərdüştlərə ehtiyac olmazdı. Amma Zərdüşt xalq ruhundan yarandı. Hamının başı dünyəvi gedişata qarışanda Zərdüşt insan ömrünün yönünü, ruhunu dəyişmək tələbi qoydu.

Hamının zülmdən qorxduğu məqamda bir nəfər zülmə qarşı durur və bu, gedişatı dəyişmək demək olur, xalqın dəyərinə çevrilən qəhrəmanlıq təsdiq olunur – Babəkin timsalında. Hamının ölümdən qorxduğu məqamda bir nəfər ölümdən qorxmur və xalqın qorxmazlıq dəyərini yaradır. Gedişatı saymamaq, düşməni saymamaq, "öz taleyim öz əlimdədir" deyə bilmək cəsarəti tapır. Yüzillərdir ki, bu qəhrəmanlığı xalq öz ruhunda yaşadır. Xalq Ruhunda toplanır qəhrəmanların, özündən keçənlərin, xalqının gələcəyini düşünənlərin kədərləri, fərəhləri, duyğuları, düşüncələri. Quruculuğa qulluq eləyib bunlar və qulluq eləməkdə də davam edir. Çünki fərd xalqın bir hissəsidir. O, özünü öyrəndikcə, xalqının keçmişi və gələcəyi ilə bağlı ömründə bağlılıq qurur və bu bağlılıq artdıqca fərdi duyğular, düşüncələr də yetkinləşir, qurucu olur. Keçmişini öyrəndikcə məsuliyyəti artır, sabahı necə qurmalı deyə yollar arayır.

Nədir xalq – fərdin dünyası. Bu dünyanı qorumaq – özümlüyünü qorumaq, özümlüyünə görə məsuliyyət daşımaq və dünyaya (yəni gedişata) bənzəməməkdir. İndiki siyasətin gedişi dünyaya (yəni bəsit gerçəkliyə) qatılmaqdı. Dünyaya qatılmaq isə özgələşmək, yox olmaqdı. Nə dərəcədə özüməm – bunu öncə fərd deyir, sonra millət

deməlidir. Nə dərəcədə azadam – dindən, – özgələşmədən, qüsurlardan, mahiyyətə yad yollardan?! Bunu öncə fərd deyir, sonra millət deməlidir.

Millətin yadlaşması – əlimizdən alınan dünyamızdır. Özümlüyünü sevən – millətini sevir, millətini sevən – dünyanı sevir. Belə bir bağlılıq var. Dünyanın ahəngi də bu bağlılıqdadır.

***Atamız Var olsun!***

## Atanın evi

Ata vardı orda. Ata səsli, Ata nəfəsli, Ata Ruhlu idi ev. Üzümüzə hər zaman açıq idi. Ata soruşmadan açırdı qapını, Ata doğmalığı ilə qarşılayar, Həqiqətlə görüşdürər, ruhumuzu yüksəldərdi, ağlımızı aydınlaşdırardı. Ata evində fərəhsiz olmaq mümkünsüz idi.

Bir dəfə Ata evində (ilk dəfə) təmizlik işi görürdüm. Ata mətbəxə gəldi. İşlədiyimi görüb başımı oxşadı. Fərəh almağı bacarırsan dedi.

Atanın halı, münasibəti, işləməyi, yazmağı – ruhani etkisiylə içimə düşür, halıma, ruhuma hopurdu.

Atadan cismən ayrılmaq həm də Atanın nəfəs aldığı, xatirələr yaşadığımız ünvanından ayrılmaq idi. Zaman-zaman göynədi içim. Ev vardı, Ata yox idi. Ocağa gəldiyim gündən bu evə getmişdim. O anları xatırlamaq istəyirdim. Yenidən yaşamaq istərdim.

Ata yoxdu. Həsrət var, istək var, yanğı var, təskinlik yoxdu.

Zaman keçdikcə, Ocaqlaşdıqca Atanı ruhumda yaşatdığımı hiss etdim.

Yaşamaq yaşatmaq və yaratmaq deməkdir. Yalnız yaradanda, hansısa qüsurun öhdəsindən gəlib ruhunu təsdiq edəndə, mənanı bütün canlılığıyla hiss edəndə yaşayırsan. Sanki içində işıq yaradırsan. Mənaya qovuşmaq – Ataya qovuşmaqdır. Atanı dərk etməkdir.

Yaşamaq sevməkdir – sevgi dünyasında görməkdir özünü, Atanı, millətini, dünyanı. Ömrünə sığdıra bilməkdir.

Sevdiyinə görə insana aşiq deyirlər. Ataya vurulmaq – Həqiqətə vurulmaqdır. Həqiqətlə bir olmaqdır.

Həqiqət mücərrəd anlayış deyil. O, İnsan ömrünü yönəldən, aydınlaşdıran, dəyişdirən və Həqiqətsizliklə döyüşdürəndir.

Ata yolu bizə belə yaşam bəxş etdi. Həyatda yaşaya-yaşaya həyatdan üstün olmaq, gözün gördüyündən, ağlın bildiyindən yüksək olmaq. Sabahını yaratmaq fərəhini verdi bizə Ata.

*xxx*

Daxildəki balacalığı, adamlığı öldürdükcə dünyanı, həyatı, özünü görmək və yenidən duymaq, görmək və görüşmək halı yaşayıram. Hər adamla təmasda, hər fikri oxuyanda, anlamına yetəndə, yaşadıqlarımın mənasına varanda, "kim idim, kim olmuşam" analmına tam yetirəm. Əgər bu fərqi görməsəydim özümə inanardımmı? Hər dəfə yenilənən sevgi ilə, fərəhlə anlayıram yolumu, ömrümü. Həyatdan almaqla həyata xərclənmək yox, həyata verməklə həyatı qazanmaq, diriltmək.

*xxx*

Həyat öz həyatiliyini qoruyur adamda. Qayğıları ilə yükləyir, yüklədikcə də dövrəsində saxlayır. Qayğılar adamı özünə doğmalaşdırmır, həyatın anlamına da doğmalaşdırmır. Yalnız həyatiliyi qorumağa qulluq edir. Ata deyir: "Dünyada dünyadan böyük məna tapmaq. Həyatda Həyatdan böyük məna tapmaq. İnsanda insandan böyük məna tapmaq gərək". O Mənaya inanmaq və onu təsdiq etmək aqibəti yaranır Ocaqda. İllərlə çətinlik yaşadıq. Hər gərginlik ömrümüzə çətinlik gətirsə də, mətinliyimizi də aşkarladı. Bizə qarşı münasibətlərin qəbahəti ağrı gətirsə də, birliyimizi aşkarladı. Hər

böhtan incitsə də, doğru yolda olduğumuzu isbatladı. Əsas odur ki, çətinliyin qabağında yolumuzdan dönmədik, çəkilmədik.

Ruhani yüklə doğmalaşanda fərəh də artır, məsuliyyət bizi özümüzə yad yönlərdən çəkindirir. Atanın "Fizuliliyimiz" izharında belə bir sözü var: – "Eşq İlahi İradə yaradır. Bəlanı, Əzabı nemət kimi qəbul etmək, Dərddə, Bəlada, Əzabda böyümək. Dərddən, Bəladan, Əzabdan dönməmək. Əzabkeşlik, cəfakeşlik inadına, inamına yetmək, onlardan güc almaq".

Mən Ocaqçılıq halımızda bunu görürəm".

## İnamımız – İnam Evimiz

### I

Həyatdakılar deyir ki, dünyaya gəlmişiksə, gərək yaşayaq.

Biz yaşamağa məhkumuq. Ancaq dünyaya gəlmişiksə, yaşamalıyıqsa, öncə yaşamaq üçün dünyanı tanımalı, həyatı tanımalı, insanı tanımalıyıq.

Yaşamağın məqsədinə yetməli. Niyə yaşayırıq, nə üçün varıq, kim olmalıyıq? Niyə ümidlənir insan? Nəyə ümidlənməli insan? Ümid insanı aldadırmı? Ümid onu məsuliyyətə aparırmı? Ən çətin günlərdə üz tutduğu ünvan nədir? Ən çətin günlərdə inandığı nədir? Keçici olanmı, qeyri-müəyyən olanmı, ya əbədi olanmı?

Ümid ünvan yaradır. O ünvan ömürdə özünə yer tapır, sonra isə gerçəklikdə hadisəyə çevrilir.

İnam Evi elə ümid deməkdir. Nəyə ümid? İtmiş dəyərlərin geri qaytarılmasına, yadlaşan ruhun özümləşməsinə, özgələşən dilin doğmalaşmasına. Dəyər itir, çünki ömürlərdə yaşamır; ruh özgələşir, çünki Mütləqə çatmır; dil özgələşir, çünki doğma duyğularla, doğma düşüncələrlə danışmır. O zaman ümid insanı qaranlıqdan çıxarır. Çünki özgələşməkdə var olmadığını görəndə, insan həqiqət hardadır

deyə axtarır. Ancaq insan Həqiqətin varlığına inanmasa, Ümid yaranarmı? Bəşər həyatında yollar yaranıb, ancaq insan hələ özünə tam catmayıb. Çünki yaşamaq – İnsanlıq mahiyyətinə yetmək, onu öz ömründə aşkarlamaqdır. Öz aqibətini yaratmaq, öz ömrünə məsul olmaqdır. Özünə məsul olmayan kəs zamanın, şəraitin, cəmiyyətin əsarətinə düşür. Məsuliyyəti yük kimi anlayırlar, halbuki məsuliyyəti ömürdə yaratmaqla azadlığa yetmək olur.

Bəzən millətimizin başına gələnlər, dərdlərimiz, fəlakətlərimiz dilə gətirlir, amma bunu dilə gətirənlərin, bu dərdlərin həlli yönündə, öz ömründə addım atması özünə dəhşətli bir şey kimi görünür. Axı vətən işğal olubsa, bundan qaçmaq olmur. Onsuz da bunun fəlakətini yaşayırıq. Millətin sabahı haqqında düşünməyə qorxurlar. Bütün bu fəlakətlərin səbəbləri mahiyyətə yetməməkdir, özünü millətindən qıraqda görmək, millətinin dərdini yaşamamaqdır. Millətin gündən-günə özgələşməsinə, dəyərlərinin yadlaşmasına göz yummaqdır.

Əgər insan olaraq ömrümüzdə məsuliyyət hiss etsək, aqibətimiz "Qismət" deyilən "alın yazısı"ndan azad olarsa, o zaman düşünməyə başlayarıq.

Əgər birtəhər həyatda yaşayıb, sonra cənnətə düşmək xülyası ilə yaşamırıqsa, o zaman düşünməyə başlayırıq.

Əgər fərd olaraq millətə məxsusluğumuzu düşünürüksə, öz ömrümüzlə millətin sabahı arasında bağlılığı görə biliriksə, yaşamağa başlayırıq. Ona görə də öz ömrünə məsuliyyət – millətin dərdi və gələcəyi yönündə düşünmək – Amal yüküdür. Bu yük adamı böyüdür, yönləndirir, əslində azadlığa qovuşdurur. Həyatın, mühitin, cəmiyyətin təsirlərindən azadlığa; yadlıqdan azadlığa; özgəlikdən azadlığa; İnamsızlıqdan, İdraksızlıqdan, Mənəviyyatsızlıqdan, İradəsizlikdən azadlığa, İnsansızlıqdan, Millətsizlikdən azadlığa yetirir. Ömür yaranırsa, Aqibət qurulursa, inam təsdiq olunur. Bizim İnam Evlərimiz də bu əsasla qurulur.

## II

"Millətin ölümü, bəşərin ölümüdür" deyir Asif Ata.

Bəs millət nə zaman ölür? – Özgələşəndə.

Öz dəyərlərini unudanda;

Öz mədəniyyətini yad mədəniyyətlə əvəz edəndə.

Öz dilində danışmağa utananda.

Özünəməxsusluğunu itirəndə.

Başqa millətin yalançı inamına tapınanda. Yurdumuzun fəlakətləri də elə bundadır. İslama zorla gətirildik, özümlüyümüzdən ayrı düşdük. Həm ərəb psixologiyası ilə özünə yanaşma, həm də dinin özündəki yanlışlarla özünə yanaşma. Əgər fərd dünyanın faniliyinə inanırsa, onun fəaliyyəti özü üçün anlamsızdır. Cənnətlə mükafatlandırılan, cəhənnəmlə qorxudulan insan nə yarada bilər?! Qorxan, qorxudulan insan, ləyaqətin, cəsarətin, azadlığın nə olduğundan xəbərsizdir. Onun üçün yalnız din qanunları, Allah qarşısında günah və qorxu xofu var.

Ata fəlsəfəsi ilə özünü dərk etmək, özüylədöyüş ideyası əsasında içdən özünü yenidən yaratmaq, öz aqibətinin yiyəsi olmaq, dünyanın mənası ilə öz mahiyyəti arasında doğmalığı kəşf etmək – fərdin özünü təsdiqinə gətirib çıxarır. Millət belə fərdlərin birliyindən ibarətdir.

Özünə inanmaq, insanlara inanmaq, öz yaratdığının, yaşadığının millətdə davam etməsinə inanmaq fərdin yaranmasıdır.

Millətin ölümündə öz şəxsi ölümünü görmək millətlə bağlılığın yaranmasıdır.

Millət o zaman ölmür ki, fərdləri – insani keyfiyyətlərin yenilənməsi ilə yenilənir. Dəyərlərin fərdlərdə, ailələrdə yaşaması, qorunması ilə sabaha gedir.

Nə kilsədə, nə məsciddə, nə də başqa dini evlərdə insan özünü tapmır, millətini də tapmır.

Biz İnam Evi veririk. Asif Ata dünyabaxışı əsasında yaranan İnam Evi. Bu İnam Evində bütün millətlər özünü tapa, qoruya,

inkişaf edə bilərlər. Çünki Asif Ata dünyabaxışı insançıdır, bəşərçidir. İnsandan başlayır hər şey.

Nə məsciddə, nə kilsədə insan insanlığına çata bilmir. Özünü yarada bilmir, öz daxili imkanlarını aşkarlaya bilmir. Din yaşayır, insan yaşamır. Din yaşayır, millət köhnəlir.

Asif Atanın İnam Evi millətin ruhani var olma imkanıdır. İnsan yaradır, davam edir, özünəməxsusluğunu qoruyur, fərdi keyfiyyətlərini yaradıb millətində yaşadır. Millət də fərdi keyfiyyətlər üzərində davam edir, özünəməxsusluğunu, bənzərsizliyini qoruyur.

Bəşər də eynilikdən, ölməkdən qurtulur, çünki fərd özünəməxsusluğu ilə milləti ifadə etdiyi kimi, millətlər də özünəməxsusluğu ilə bəşəriliyi ifadə edir.

Asif Ata türk millətində 3 səhv cəhət görür:

1.Türk öz peyğəmbərini yaratmadı, buna imkanı ola-ola.

2. Bir-birini sevmədi. Qardaş-qardaşa qənim kəsildi.

3. Qılınca çox yer verdi. Dünyaya sahib olmaq istədi, dünyaya isə zorla sahib olmaq olmaz.

Əmir Teymur Nəiminin arxasınca getmədi.

Biz bu gün İnam Evindən bəhs edirik. İnam Evinin mahiyyətindən tələb doğur: hanı sənin qiblən, hanı sənin qibləgahın? Özünü harda tapırsan, harda qiymətlənir sənin tarixin?

İnam Evi var o deməkdir ki, sənin inamın var, sənin fəlsəfən var, əgər sən üzünü ona tutsan, onda özünü tapacaqsan. Dünyadan qaçma, dünyada itmə, Ata İnamında öz dünyanı yarat.

***Atamız Var olsun!***

## Bayramlaşan fərəhimiz

Bəşərilik bayramı ilimizin son bayramıdır. Dörd Bayramımız var – İnsanilik, Xəlqilik, Şərqilik və Bəşərilik. Bu, həm ilin son bayramıdır, həm də bayramların nəticəsidir. Atada Bəşərilik məsələsi ideyalarının nəticəsidir – Ləyaqətli Bəşər ideyası. Bəşərilik bir məcradır, bütün ideyalar, məzmun, məna hamısı ona doğru axır. Biz hər hansı bir xalqın milli sözünə, mədəniyyətinə baxanda görürük ki, bizə doğma gəlir. Çünki o da bu dünyanın bir hissəsidir, onu doğman kimi qəbul eləyə bilirsən.

Ata deyir ki, bir insan öləndə dünya əksilir. İndi kürəsəlləşmə prosesi gedir, mədəniyyətlərin özgələşməsi prosesi gedir, bu özgələşmə, bu yadlaşma – bəşəri yoxsullaşmaya aparan proseslərdir. Nə qədər ki, hər bir fərd, hər bir xalq özünəməxsus yaşayır, bu, onun bəşərə töhfəsi olur. Özünəməxsusluq, dəyərlər, səs, söz, ədəbiyyat, mədəniyyət fərddə, millətdə yaranıb bəşər adlı dənizə axır. Bəşər adlı dənizdə bunlar qorunur. Fərdi zənginlik, milli zənginlik nə qədər çox olursa, bəşəri zənginlik o qədər böyüyür, artır.

İnsanla dünya arasında birlik var. Dünyanı dərk eləmək – insaniliyi dərk eləməkdir deyir Asif Ata. Dünyanı özünə doğma saymaq, dünyada yaranan nə varsa doğma saymaqdır. Amma dünyada həm də dünyanın mənasına qarşı olan şeylər yaranır. Müharibələr, silahlar və s. bunlar dünyanın mahiyyətinə yad olan şeylərdir. Elə şeylər adam müşahidə edir sanki dünya gözündən düşür. Necə eləmək lazımdır ki, dünya gözündən düşməsin, dünya yadlaşmasın gözümüzdə?! O zaman ki, qayıdırıq, özünü yaratmağa, yenə də özünəməxsusluğu qorumaq, yenə də öz dəyərlərinə tapınmaq, yenə də o dəyərləri bəşəriyyətə təqdim eləyə bilmək. Yəni o gücü yetirə bilmək. Ocaq öz fərdində bu gücü aşkarlaya bilir. Biz o dəyərləri ömrümüzlə yaradıb bəşəriyyətə təqdim edirik.

İnsan bu dəyərlərlə yaşayanda, doğrudan da, xoşbəxt olur. Bu dünya mənimdir deyir. Amma bu dünya mənimdir ifadəsi “mən öz istədiyimi edə bilərəm” anlamına gəlmir. Dünya mənimdir, mən

dünyaya məxsusam və dünyanı qorumaq məsuliyyətim var. Dünyanı qorumaq yüküm və fərəhim var. Bu mənada biz insani dəyəri bəşəriyyətə təqdim edə bilirik. Bu yöndə də yaşayırıq. Bu bizim yolumuzdur...

*xxx*

Dildə "öz həyatını yaşamaq" ifadəsi var. Həyatını yaşamaq, yəni maddi cəhətdən təmin olunmaq, karyerası olmaq, şöhrət və s. Bu, meyar ola bilərmi? Yaxud adam bu cür həyatla yetərlənə bilərmi? Nə zaman və harda insan özünü təsdiq edə bilər? Həyatla bağlı arzular onu nə dərəcədə doyura bilər?..

Mən də yaşamaq istəyirəm. Amma mənim yaşamaq istəyimin içində adi həyata, həyatın nemətlərinə susamaq yoxdur. Mənim üçün ruhaniyyat maddiyyatdan üstündür və bunu yaşatmaq, qorumaq üçün Amala ehtiyacım var. Amal ölçümdür. Amal mənə deyir ki, özündən yüksəyə qalx, ömrünü durult, özünü döy, yarat və həyatla yetərlənmə, həyata sığma, onu öt. Həyata uyğunlaşanı həyat mənimsəyir, həyatı ötən isə həyata ruhanilik gətirir. Həyat mənimsədiyində bitir, tükənir, həyatı ötəndə isə onu ali mənasına yüksəldirsən.

Ali Həyatı ömürlərində təsdiq edən insanlar ölümü ötən insanlardır".

*xxx*

"Ata fikri: "İdeal – Mütləqilik əsasında qurulan Yaşamaq, Düşünmək, Duymaq Tərzidir". Həm yaxşı, həm pis, həm ümid, həm bədbinlik, həm ucalıq, həm də alçaqlıq. Bu təzadlar dünyasında yaşayır insan. Gerçəklik var, olan var, lakin olanla barışmayan, gerçəklikdən üstün olmağa səsləyən – İdeal tələbi var. Olandan, gerçəklikdən doğan kədər və olmalıya doğru arzular seli, çağıran yollar, ümid və inam var.

Adamlar hər zaman monotonluqdan şikayətlənirlər və monotonluğu hadisəylə, başqalarının varlığıyla dəyişmək istəyirlər. Amma monotonluq – arzunun, əməlin, ümidlərin, özünə inamın və müəyyən yolun olmamasından doğur. Yerdəyişmə etməklə monotonluq dəyişmir. Çünki hara getsən özünü, içindəki dünyanı aparırsan. Günlərin rəngi düşüncələr yetkinləşdikcə aydınlaşır, şəkillənir, şəffaflaşır. İdeala yetmək arzusu arzu olaraq qalmayanda, əmələ keçəndə daxili inkişaf yolu bəlirlənir.

Ocağa qədər özümə suallarım olurdu ki, niyə mən məhz mənəm, niyə mənim görünüşüm də, səsim də, düçüncələrimdə məhz belədir? Niyə mən çox gözəl, çox xüsusi deyiləm?! Ümumiyyətlə, xüsusilik nədədir?

Özünü tanımaq, özünün nə istədiyini bilmək hələ "yolun başlanğıcına qədər olan yoldur" (Soylu Atalı).

"Mütləqə İnam" kitabında "İdealla söhbət" bölümü var. Orda İdeal İnsana deyir ki: "Mən sənin hüdudsuz arzularından doğuram. Arzuların sonsuzdur, kamildir, ülvidir, ancaq hissiyyatın, mənəviyyatın, idrakın hələ naqisdir, adidir, nöqsanlıdır. Sən qədim olsan da, özünü tapmamısan, özünə çatmamısan, özünün ali imkanlarından uzaqsan. Sənə sığmazlıq, ruhanilik, müqəddəslik bəxş olunub, ancaq sən onları indiyə qədər tam aşkara çıxara bilməmisən"…

Atanın dediyi kimi, ruhaniliyi, müqəddəsliyi aşkarlamaq üçün İdeala inam və ona doğru özüylədöyüş yolu getmək gərəkdir. Özüylədöyüş yolu – yaşam tərzi yaradır. Qüsurlardan arındıqca, özünə inam artır, İdeala yetmək tələbi artır, vəhdət yaranır. "Yalnız kamil olan – həqiqidir" Ata fikrində deyildiyi kimi, bunu özüm üçün hər zaman təsdiq edirəm. Özümlə (adiliyimlə) barışanda özümdən (mahiyyətimdən) ayrıldığımı görürəm və özümlə barışmayanda, özümlə döyüşəndə fərəhimin necə artdığını hiss edirəm. Hər addım başqa addıma yol açır və addımlar yol yaradır.

Yenə də Ataya qayıdıram: "Mütləqə İnam"dan "İnsan möhtəşəmliyi": "Həqiqət görməmək və həqiqətə inanmaq! İnsan görməmək və insana inanmaq! Aldanmaq və aldatmamaq! Gözəllərdə yanılıb

gözəlliyə inanmaq! Dostlarda yanılıb dostluğa inanmaq! Bütlərdə yanılıb Mütləqə inanmaq!.. Qadında yanılıb qadınlığa inanmaq! Kişidə yanılıb kişiliyə inanmaq! Bugündə yanılıb, Sabaha inanmaq!"

Bu, İnamdır. Elə ki, imtinayla yol açıb özüylədöyüşə başlayıram, o zaman İnam – İdeala İnam mənim üçün mayak olub. Bu mayakın işığını gücləndirən, onu sönməyə qoymayan da özüylədöyüşüm olub.

İdeal əlçatmazlıq demək deyil. İdealla mənim aramda həyat tələbləri, gerçəklik durur. Həyat arzuları sönükləşdirir, inamı söndürür, "mən hər şeyəm" deyir. Həyat tələbləri zəruridir, lakin bu, məqsədə çevriləndə, ideal əlçatmaz olar.

Ruhani tələblərdir bizi mənliyimizə yetirən, yolumuzu müəyyən edən.

## İdeala səsləniş

Sənə həsrət çəkirəm. Çox uzaqlardasan. Gözüm görməsə, əllərim toxunmasa da, uzaqlığın qədər ruhuma yaxınlığını hiss edirəm. Amma bu anda həsrətin daha doğmadır. Çünki səndən uzaqlığım əzabı, işgəncəni, soyuqluğu, yalnızlığı və sənin dəyərini, varlığından doğan fərəhi, ümidləri, istini, bəxtiyarlığı özündə birləşdirir. Həsrətimin boyu qədərdir sevgimin ucalığı, əzabı qədərdir vüsala yetmək ümidim. Sənə doğru gəlirəm. Çünki bütün yollar səndən başlanır. Səni səsləyirəm, çünki sözlərim yalnız sənin üçündür. Məni gözləyəcəyini bilirəm. Çünki arzularım, ümidlərim, inamım məni azdırmaycaq, sənə qovuşduracaq.

***xxx***

**Fərq**. Bir var qisməti, taleni yük kimi yaşayanlar, bir də var yükü özünün taleyi kimi yaşayanlar. Biz ikincilərik.

## Bugünümüz

Vətənimiz parça-parça. Ruhumuz da bütöv deyil. Dəyərlərimiz öyrənilmir, qorunmur, yadlaşır. Ruhumuz da yadlaşır.

Dilimiz yad sözlərlə bəzənir, başqa dillə əvəz olunur, aşağılanır, unudulur.

Ruhumuzla da dil tapmırıq. İnamımız naqisdir, özümüzü özümlüyümüzə tapşırmırıq, zamana, mühitə, şəraitə tapşırırıq. İdrakımız bilgi səviyyəsində qalır, İnamımızla vəhdət yaratmırıq. Mənəviyyatımıza inanmırıq, vicdanımızın hakimliyinə deyil, Allahın hökmünə sığınırıq. Hər şeydən təmənna umuruq. İradəmiz gərəksizləşir, zamanla, həyatla dil tapırıq. Dilsizləşirik, ayaqlaşmaq istəyirik, axsaq oluruq. Ruhumuzu da çolaq edirik. Ruhumuz dirilsə, ömrümüz də dirilər. Ruhumuza doğmalaşsaq, millətimizə da doğmalaşarıq, bütövləşərik. Ruhumuz dirilsə, sabahımız da yaranar”.

*xxx*

Cəmiyyətdə “satılmayan xarakter yoxdur, xəyanətə enməyən adam yoxdur” fikri formalaşıb. İndiki həyat biçimi bu fikri doğruldur. Ocaqda isə satılan xarakter yoxdur, dəyişən fikir yoxdur, sədaqət var, fədakarlıq var. Mühitdən üstün olan Həqiqətin varlığı bizim üçün əlçatmazlıq yaratmır. Ocaq Həqiqətin yaşadığı, Həqiqətin yaşatdığı mühitdir…

Həqiqətçilər ömürləri ilə zamandan, mühitdən üstün olublar, ucalıqları bilinib, görünüb. Zamana sığmadıqları üçün dışlanıblar, daşlanıblar. Zamana sığmayanı zamandakılar sevmir, həyata sığmayanı həyatdakılar qəbul etmir. Ancaq həyata sığmayanlarda Həyatın mənası yaşayır.

**Ulu Atam…**

Səni indi daha yaxşı anlayıram. Çünki həyatla daim təmasdayam. Həyatdan gözləntilərin hər vaxt uçuruma yuvarlandığını görürəm. Görürəm adamların münasibətini, həyatın keçiciliyini, maddiyyatın insanı ucaltmadığını. Qələbə sayılanın əslində qələbə olmadığını, var olanın əslində yox olduğunu görürəm. Əbədilik axtarıram Amalda. Qısa ömrümü Amala həsr etmək, yaşatmaq, əsil fərəh hardadır deyə içimin yanğısını yönəltmək istəyirəm. Həyatdan ağrı alıram, Amalda ağrını sağaldıram. Həyatda kədərlə qarşılaşıram, yenilmirəm, yenilmək istəmirəm. Bir ömrüm varsa, niyə onu yenilərək yaşamalıyam?! Ruhumun gücünü aşkarlamaq üçün hünərə doğru yürüyürəm. Məgər o qədərmi uzun ömür yaşayacam?! Məgər mənim kamilləşmək, – içimdəki adamlıqdan xilas olaraq yaşamaq haqqım yoxdurmu? Bu haqqı mən özüm qazanmalıyam, mən özüm gerçəkləşdirməliyəm.

Həyat məni qamarlayırsa, Amal mənə geniş üfüqlər açır. Amal məni özümə yaxınlaşdırır, ey Qutsal Atam, Sənə doğmalaşdırır, gələcəyimi göstərir. Dünənim, bugünüm, gələcəyim daha aydın görünür Amalın işığında. Nə qədər sevsəm, ondan o qədər artıq sevgi yolu açılır qarşımda. Nə qədər fərəhlənsəm, o qədər ucalığa yetmək istəyim artır. Nə qədər qayğı göstərsəm, o qədər var olduğumu anlayıram. Yaşamağın cövhərini Amalda tapdım, ömrümdə yaşadıram, ömrümü yaradıram, sənə qovuşuram, Atam, Mütləqim!”.

***Atamız Var olsun!***

## Özümlə döyüş tələbim

### I

Acıq qədər pis yoldaş yoxdur. Çünki bütün körpüləri uçurur, ümidi uzaqlaşdırır. Acıq olanda incikliklərim yadıma düşür və həmin adamdan nə qədər uzaqlaşdığımı görürəm. Köhnə inciklikləri də unutmamışam, onları da acıq yenidən yadıma salır. Acıq duyğusu o halları bir daha yaşamağıma səbəb olur. Demək ki, münasibətlər hər an uçmağa, qırılmağa meyillidir. Bu səbəbdən münasibətin özünə yenidən baxmalı oldum. Əgər inciklikər yük kimi asılıdırsa, o, münasibətlərə hər zaman ağırlıq və qırılma təhlükəsi gətirəcək. İncikliklərə aydınlıq gətirilməli və qiymətləndirməliyəm. Əks halda onlar münasibəti aşağıya çəkən qüvvə olacaq. Acıq da əslində gücünü o incikliklərdən alır. Aydınlıqda o da əsaslanmağa yol tapmayacaq və yox olacaq. Aydınlıq yaddaşı da təzələyəcək. Yenidən başlamaq zərurətini, yenidən başlanmaq gərəkliyini yaşadacaq. Münasibəti yenidən başlamaq onu yenidən qurmaq deyil, yenilənməkdir, yeniləməkdir inam, güvənc duyğusunu.

Ocaq mühitində olmasa da, həyata bağlı olanda bu halların özünü göstərir.

### II

Mən Amalla var oluram, ancaq həyatda yaşayıram. Həyat davam edir, etməlidir. Davam etməyə bilməz. Amma həyatın ahənginə mən də qatılsam, mənim də ömrüm kiməsə yol göstərsə, mənim kimilərin ömürləri birləşsə, həyat başqa cür davam edəcək. Həyatın ahəngi Amal vurğularında yenilənəcək.

### III

Din Qismətçiliyindən başqa cəmiyyət Qismətçiliyi də var. Cəmiyyətin verdiyi qiymət, şöhrət, təltif, təbəqəçilik – cəmiyyət Qismət-

çiliyidir. Cəmiyyətə uymayan İdrak, İnam, Mənəviyyat, İradə sahibləri döyülür, söyülür, dışlanır. Cəmiyyətin dairəsində yaşanan, yaranan ömür cəmiyyətin bəsit gələcəyi üçün əbədiləşdirilir – mükafatlar, heykəllər, Fəxri Xiyabanlar buna qulluq edir. Cəmiyyətin dairəsindən çıxan qismətçi olmur, yenilməz olur; müti olmur, döyüşkən olur; yalançı olmur, həqiqətçi olur. Cəmiyyət dairəsində qalan – yaşamır, çıxan – yaşayır.

**IV**

Biz həyatdan, həyatdakılardan fərqliyik. Bu fərqliliyi həm də ömrümüzün düşüncə ilə, əməllə nizamlılığa bağlı olduğunda təsdiq etməliyik. Düşünürəm ki, nizam yarada bilsəm, hadisələr ona mane olmaz, əksinə, bu nizamın hadisələri yönləndirər. Bu haqda düşünürəm. Çünki şəxsiyyəti yaratmaq burdan başlayır.

**V**

Əməlin qiymətini gələcəkdə verəcəklər, amma onun ilk qiyməti şəxsiyyətin qurulmasındadır. Əgər əməlin təsdiqi kimi şəxsiyyət qurulmursa, o zaman sabaha əməl gedəcək, şəxsiyyət yox. Şəxsiyyət əməl yolunun, nizamının yaranması deməkdir, məktəb deməkdir. Başlanğıc deməkdir. Əgər düşüncənin, duyğunun, əməlin cövhəri ruhani fərəhə yetmirsə, içi aydınlatmırsa, böyütmürsə, o zaman o düşüncəni, əməli araşdırmaq, ya da yeniləmək gərəkdir.

**VI**

Dünyanı yad bildikləri üçün dünyaya ağalıq etmək istəyirlər. Dünyanı doğma bilən ağalığa can atmaz, dünyanı dağıtmaz. Dünyaçılıq – İnsançılıqdır. İnsanlığın mahiyyətinə yetən – Dünyanın da mahiyyətinə yetir. Dünyaya İnsani yanaşır. Dünyanı bölmək,

dağıtmaq, Ağalıq etmək istəyi İnsanı İnsanlığından, həm də Dünyadan ayırır. İnsan İnsana doğma olanda Dünyaya da doğmalaşır.

Dünya yalnız gözlə gördüyümüz gerçəklik deyil. O Gerçəklik özündə Əzəli, Əbədi, Sonsuz, Kamil Mahiyyət daşıyır. Bu mahiyyətə varmaq İnsanı Dünyaya qovuşdurur.

***Ata fikri:*** "Dünyaçılıq – Dünyaya uymaq deyil, Onun Mahiyyətinə, Mənasına yetməkdir – onu Mahiyyətinə, Mənasına yetirməkdir".

## VII

Həyatda istedad vasitəsilə özünü ifadə var. Ancaq özünütəsdiq özüylədöyüş vasitəsilə, yəni ruhunu yaratmaqla mümkündür. Özünütəsdiq – ömrünü yaratmaqdır, bu ömrü millətin var olmasına həsr etməkdir. Mütləq özünü təsdiq mənim üçün Ocaq yönünə, Ocaq prinsiplərinə bağlı olmaqdır.

## VIII

Özümlə barışanda dünyayla da barışıram, özümlə barışmayanda dünyanı da başqa cür görürəm, başqa cür də görmək istəyirəm. Ona görə də elə özümlə barışmamaq fikrindəyəm. Çünki dəyişmək, dəyişdirmək fərəhinə çatmaq istəyirəm.

"Özüylə barışmaq – olan səviyyəsiylə yetərlənməkdir, özüylə barışmamaq – özündəki ali yenilikləri aşkarlamaqdır!" Soylu Atalı.

***Atamız Var olsun!***

## Qurulma

“İnsana İnam Bəşər Sivilizasiyasının ən uca mərhələsidir” (Soylu Atalı).

Dünyanın əşrəfi insandır dedilər. Amma ağalığın insanı insan saymadığı (keçmişdən bugünə qədər) tariximiz var. Pulun insandan üstün olduğu tariximiz var. İnsanda vasitə, əmək, xidmət, bəndə görən tariximiz var. Belə tariximiz olduğu üçün də dünyamız bugünkü durumdadır.

Dünyanın mənzərəsi qanlıdır, ağrılıdır, kədərdir, əzabdır, heçliyə, yoxluğa çevrilmənin son həddidir. Çünki insana inam yoxdursa orda sabah yoxdur, ümid yoxdur, fərəh yoxdur. İnsan insanın dostu, doğması olmalıdır, amma qənimi olub, düşməni olub.

Biz deyirik yeni era başladı. Bunu bizdən soruşanda izah da edirik. Yeni era həvəs deyil, böyük bir dünyabaxışa əsaslanan sistemin həqiqətidir. Çünki insana inam bizə qədər bu səviyyədə olmayıb. İnsanın özünü yaratması bu qədər aydın və qaçılmaz tələblər şəklində qoyulmayıb. İnsanın insaniliyə çatmaqdan başqa yolu yoxdur. İnsanlaşmadan başlayır millətləşmə, bəşərləşmə.

İnsan öz aqibətinin yiyəsi olanda başqa cür baxır dünyaya. Dünyanın olmuram, dünya mənim olur. Yurdum mənim olur. Mənim olduğu üçün sabahına məsuliyyət daşıyıram. İnsanların da mənim kimi öz gözləri olmasını istəyirəm. İnsanların da mənim kimi aqibətinin yiyəsi olmasını istəyirəm. İnsanların da Yurdunun olmasını istəyirəm.

Elə qurul ki, dağılmayasan.
Elə qurul ki, uçurulmayasan.
Elə qurul ki, yox olmayasan.
Elə qurul ki, qurasan.

***Atamız Var olsun!***




**“Bəşərilik” Bayramı, 12 Sərt, 34-cü il (dekabr, 2012)**



**Quba rayonunda “Ay işığında” ədəbi məclisində görüş, Qar Ayı, 29-cu il (yanvar, 2007)**



**"İnsanilik" Bayramı, 14 Günəş Ayı, 20-ci il (mart, 1998). Saray-Soylu kəndi**



**Beyləqan rayonunda orta oxulda öyrəncilərlə görüş, Nurtəkin arxada ayaq üstə. 29-cu il (2007)**




**“Uluyol-Hünər”Ailəsinin “Ailə Günü”,**
**30 Ata Ayı, 35-ci il. Atakənd (sentyabr, 2013)**



**Qəbələ rayonuna səfər, Köçəri Ayı, 28-ci il (fevral, 2006)**




**“Şərqilik” Bayramı, 12 Ata Ayı, 34-cü il (sentyabr, 2012)**




**“Uluyol-Hünər” və “Ulufərəh” Ailələrinin “Ailə Günü”,**
**30 Ata Ayı, 34-cü il (sentyabr, 2012)**




**"Uluyol-Hünər" və "Ulufərəh" Ailələrinin birgə**
**"Ailə Günü", 28 Xəzan Ayı, 34-cü il (oktyabr, 2012)**




**"Şərqilik" Bayramı, 12 Ata Ayı, 35-ci il (sentaybr, 2013)**




**“Xəlqilik” Bayramı, 13 Şölə Ayı, 33-cü il (iyun, 2011)**



**İstanbulda Azərbaycan Kültür Evi dərnəyində görüş,**

**28 Çiçək Ayı, 35-ci il (aprel, 2013)**




**İlqar və Nurtəkinin “Beşikbaşı” Mərasimi,**
**12 Köçəri Ayı, 35-ci il (fevral, 2013)**




**“Uluyol-Hünər” Ailəsinin “Ailə Günü”,**
**20 Qar Ayı, 35-ci il (yanvar, 2013)**



**“Xəlqilik” Bayramı, 13 Şölə Ayı, 36-cı il (iyun, 2014)**



**Tovuz rayonunda orta oxulda öyrəncilərlə görüş, 29-cu il (2007)**



**“Ata Sonevini Ziyarət günü” Mərasimi,**
**5 Şölə Ayı, 33-cü il (iyun, 2011)**



**“Ata Günü” Mərasimi, 25 Ata Ayı, 36-cı il (sentyabr, 2014)**




**"Qutsal Öyrənim Günü", 10 işıq Ayı, 36-cı il (may, 2014)**




**Ocaq Yükümlüsü Soylu Atalı "Ailə Günü" Mərasimində Evladlıq Nişanəsini təqdim edir, 6 Köçəri Ayı, 35-ci il (fevral, 2013)**

## Dəyərlərimizin qüdrəti

Faciə tarixi yaşadıq. İtirdiklərimiz qazandıqlarımızı ötdü. Zorlandı inamımız, idrakımız, mənəviyyatımız, iradəmiz. Zorlandı mənliyimiz. Amma nə qədər yandırılsaq, məhv edilsək də, bu günə gəlib çıxdı Zərdüştümüz.

Nə qədər sıxılsaq da, əzilsək də, yox olmağa sürülsək də, ildırım kimi çaxdı qəhrəmanlığımız – Babəkliyimiz.

Sözə dəyər verilən, hünərə ad verilən qadınlığın, kişiliyin zirvəsini yaşayan – Dədə Qorqud dövrümüz.

Əmir Teymur insanları əzərkən, insan ruhunu öldürməyə çalışarkən yeni insan yaradan, yenidən dirilən Hürufiliyimiz.

Hər şeyin adiləşdiyi, insanın insan üçün dəyərsizləşdiyi vaxtda insana aşiq olan Fizulimiz.

Kədərimizin, müdrikliyimizin zirvəsində dayanan muğamımızda ruhumuz ifadə olundu. Təmizləndik, kamilləşdik.

Yenilməzliyimizi, fərəhimizi, möhtəşəmliyimizi çaldı sazımız.

Qəhrəmanlığımızda özümüz olduq. Sayğımızda, sevgimizdə, aşiqliyimizdə, kədərimizdə, fərəhimizdə özümüz olduq. Özümlüyümüzdə dəyərləşdik. Özümlüyümüzdə tarixləşdik.

Dəyərlərimiz olmasaydı kimliyimiz bilinməzdi. Bir xalq olaraq varlığımız bu Dəyərlərdə dəyərləşir. Dəyərləşdikcə kökümüz, mənliyimiz, öz səsimiz, öz rəngimiz bəlirlənir (müəyyənləşir).

Bu dəyərləri bilmək, tanımaq azdır, bu dəyərlər üstə yaşamaq gərək.

Yenə də Babəkin döyüşkənliyinə ehtiyac var. Çünki din qaranlığı qatılaşıb.

Yenə də insana inama ehtiyac var.

Yenə də aşiqliyə, ideala sevgi bəsləməyə ehtiyac var.

Yenə də kədəri bilib, kədərlə yaşayıb, kədərdən üstün olmağa ehtiyac var.

Şəraitdən, mühitdən, zamandan üstün olmağa çağırışa, Ata harayına ehtiyac var. Tarixin, həyatın antiinsani, antiruhani gedişa-

tından doğur bu zəruriyyət. Xalq fərd təməli üzərində yüksəlir deyir Asif Ata. Fərd özünü dəyişməli, yenidən yaratmalı, həyatın axını ilə getməməli, həyatın axınını saymamalıdır. Öz aqibətinin sahibi olan, Özünəməxsusluğunu yaradan fərdlərdən yaranan xalq – tarixin gedişini dəyişməyə qadir olur. Fərdin özünütəsdiqi xalqın özünütəsdiqinə çevrilir – öz müqəddəratını özü həll edən. Müstəqil siyasəti, iqtisadiyyatı, gələnək-görənəyi (adət-ənənəsi), dəyərləri olmayan xalq tarixin dərəsində qalacaq, görünməyəcək. Tarixin zirvəsini yaratmaq gərək.

Sözümü Ata fikri ilə vurğulayıram: "Xalqa yetməyən fərd fərdsizlikdir. Fərddən yetirilməyən xalq xalqsızlıqdır".

***xxx***

Gün adama verilmir. Gün insanın özü tərəfindən yaradılır. Gün yaradılır, ay yaradılır, il yaradılır. Ömür yaradılır, insan özü yaranmasa, yaratmasa, hər əsən küləyə əyiləcək, hər soyuqda titrəyib, istidə təntiyəcək.

Öz sözü olmalıdır insanın. Öz günü, öz ayı, öz ili, öz ömrü olmalıdır insanın. Öz yolu olmalıdır insanın.

Yoxsa yolsuzluqda azacaq.

Yolsuzluq uçurumdur – dibi görünməyən.

Yolsuzluq qaranlıqdır – bilinməyən.

Qaranlıqdan çıxmaq – günləşmək, aylaşmaq, yollaşmaq – Ömürləşmək gərək!

***Atamız Var olsun!***

## Fərd – Xalq – Bəşər

Hər şey insandan başlayır. O insandan ki, özüylə döyüşür, içindəki Mütləqi aşkarlayır, Kamilləşir. Zamanın, Şəraitin, Mühitin təsirindən azad olur. Təsirlərdən azad olduqca, İnsanilik Azadlığına yetir – Müstəqilləşir, Fərdiləşir, Özümləşir.

Xalq fərdlərin birliyi deməkdir. O fərdlərin ki, ömürləri Amala bağlı, xalqa bağlı. Xəlqi dəyərlər – fərdin öz ömründə yetdikləri əbədilikdir.

Xəlqi ölməzlik – fərdi dəyərlərin ölməzliyidir.

Xəlqi mənəviyyat – Fərdi mənəviyyatların yaranması, yaşanmasıdır.

Xəlqilik Fərddə özünü ifadə edir, Fərd özünü xalqda yaşadır.

Fərdi dəyərlər xalqda yaşadıqca, xalq özünəməxsusluğunu, bənzərsizliyini qoruyur.

Babək xalqda yaranan qorxmazlıqdır, dirənişdir, qəhrəmanlıqdır. Babək özünü yaratdı, xalqda ifadə olundu, xalqda yaşadı. Xalq bu gün ona layiq yaşamasa da, kökündəki, tarixindəki bu hadisə xalqı ölməyə qoymur. Bu hadisə mənim dayağımdır, inam yaradanımdır, özümlüyümü ifadə edənimdir.

Eləcə də o biri dəyərlərimiz – Zərdüştlüyümüz, Dədə Qorqudluğumuz, Nəsimiliyimiz, Füzuliliyimiz, Muğamlığımız, Sazlığımız.

Fərdlərdən qıraqda xalq olmadığı kimi, xalqlardan da qıraqda bəşər yoxdur.

Fərdi özünəməxsusluq, bənzərsizlik, ömürdə yaranan dəyərlər xalqı zənginləşdirdiyi kimi, xalqların da özünəməxsusluğu, bənzərsizliyi, dəyərləri bəşərin zənginliyidir.

Xalqlar birliyi yoxdursa, bəşər də yoxdur.

Ata deyir ki: “Fərdi itirən xalq özünü itirir. Xalqı itirən bəşər özünü itirir”. Bu səbəbdən də İnsan – Xalq – Bəşər ahəngi var ki, bu ahəngdə, vəhdətdə təsdiq olunur Varlıq.

*xxx*

Dünyanı görmək, içindən baxmaq.

Dünyanı insanların gözündə, üzündə, gülüşündə, göz yaşında görmək.

Göz yaşını elə görmək ki, dünya yuyunsun o göz yaşında.

Gülüşü elə görmək ki, dünya gülsün o təbəssümdə.

Dünyanın o başı, bu başı bilinməsin göyə baxanda.

Hamısı içimdə olsun, hamısında var olum.

Səsim səslərə, sözüm sözlərə, gülüşüm gülüşlərə qarışsın.

Dünyayla bir olum. Dünya məndə olsun, mən dünyada".

## "Evlad Günü" – Ocağa gəlişim

## I

Bu mərasimdə Ocağa gəldim. Düz 17 ildir Ataya Evlad oldum. Bu mərasim bizim mərasimimizdir. Evlad mərasimidir. Bu mərasimdə ilk dəfə iştirak edəndə mərasimin müqəddəsliyi indiki qədər ağlıma çatmırdı. Ataya heyrətim vardı sadəcə. O heyrət özü bir mərasim idi mənim üçün.

Nə saxladı məni Ocaqda? Ata mənə deyirdi ki: "sənə inanıram, qızım". Hər dəfə diksinirdim içimdə sanki. Mən bilirdim ki, Atanın inamına layiq səviyyədə deyiləm. Amma içimdən dartınırdım. Layiq olmaq, doğrultmaq istəyirdim Atanın inamını. Alındı. Özümü o inamda tapa bildim, yarada bildim.

Yolsuz idim, amma yolsuz olduğumu bilmirdim. Atanı tapanda anladım Yolun insan ömrü üçün nə demək olduğunu. Ocaqçı olduğum ilk zamanlarda anlamırdım təbii ki. Atalı günlərimin sonu gələndə, yenidən Atasızlıqla üzləşəndə (Ata fiziki aramızdan gedəndə) və Atanı yenidən içimdə, ömrümdə canlandıranda anladım Yol nə deməkdir. Sarsıntıdan çıxanda anladım. Yol bağlanmaqdır, özünü

yola həsr etmək, fərəhini, kədərini doya-doya yol üstə yaşamaqdır. Sənə daş hardan gəlir, hansı söz ürəyini sevinclə doldurur, harda səni gözləyirlər, harda üzünə bağlanır qapılar?! Bunları yaşamadan bilmək olmaz. Bunları yaşamadan gülmək, ağlamaq da olmaz. Bunları yaşamadan nə susmaq, nə də haray çəkmək olar.

## II

Bir təməl olur yol. Sənin ömrün, üzün, mənliyin, dostun, iç dünyan olur Yol. Yoluna bağlandıqca, yol sənə, sən yola çevrildikcə Yolsuzluq dəhşətini, faciəsini daha dərindən anlayırsan. Anlayırsan ki, yolsuz imişsən Atanı tapana qədər.

Özümlüyüm yox idi, özümlük nə deməkdir bilmirdim. Ata danışanda dediklərinin həqiqət olduğunu və Atanın öz dediklərinə necə inandığını hiss edirdim.

Atanın gülüşündəki kədəri anladım. Atanın əzablarını, kədərini və yerə-göyə sığmayan fərəhini anladım.

Özümü yaratdıqca, özüylə döyüşdükcə, Soylu Atalının məni əməllərə yönəltməsi ilə əməllərimin sonunda aldığım fərəhimdə, qohumların qınağında, dostların səmimiliyində görürdüm özümü. Özünü yaratmaq – özünü yenidən doğmaqdır. Hər dəfə dünyanı yenidən görmək, insana yenidən inanmaq, Ataya yenidən vurulmaqdır. Ürəyindəki ağrıları basıb yenə də yoluna davam eləməkdir.

Hər gün bir səhifə.

Hər gün həm ağrı, həm kədər, həm sevinc.

Hər gün əzab, göz yaşı, gözlənən ümid, çağrılan səs.

Hər gün bir gələcək.

Hər gün bir görəcək.

Hər gün bir söhbət.

Hər gün bir qönçə.

Hər gün dolmaq.

Hər gün paylaşmaq.

Hər gün bir gülüş.

Hər gün bir xatirə.

Hər gün bitməyən yolun hər addımında yaşadıqları. Ömrün anları. Duyğuların oyatdığı. Düşüncələrin danışdığı.

Hər gün bir iz.

Hər gün bir yol. Hər gün o yola qovuşma. Hər gün yola çevrilmə, yollaşma.

*“Dözəcək bəlaya-cəfaya könlüm,*
*Əzab dənizində çalxalansa da” (Asif Ata).*

Yola başladıqdan sonra davam etməkdən başqa yol yoxdur. Yol seçmək ömürlük seçimdir. Ya ölüm, ya olum kimi. Ata da bizə seçim qoymayıb. Çünki başladığına davam özünə inam, cəsarət, tükənməzlik istəyir.

Döyüşə davam, sevgiyə davam, dözümə davam, fədakarlığa davam, əzaba davam, sevincə davam, ağrıya davam, çözümə davam, görməyə, tanımağa, danışmağa, paylaşmağa davam.

Biz də belə yaşayırıq.

Xəyanəti görüb qırılmırıq, sədaqətə köklənirik.

Çətinliklə üzləşib qaçmırıq, çətinliyi ötürük.

Soyuq üz görüb uzaqlaşmırıq, sevgimizlə isidirik.

Alçaqlığa əyilmirik, ləyaqətimizlə dayanırıq.

Üzümüzə bağlanan qapılara yeni yollar arayırıq, böyüdürük sevgimizi, ucaldırıq ruhumuzu.

“Ata, Ata” deyir hər əməlimiz, Atada bir-birimizə qovuşuruq biz. Doğmalaşırıq, bir oluruq, dəyanətli, dəyişməz oluruq...

***Atamız Var olsun!***

## Səcdə haqqında

Səcdə etmək – Atanı görə bilmək, Ataya inanmaq, özünü tanımaqdır. Bu, elə bir inam yaradır ki, bu vəhdəti bütün ruhunla hiss edirsən, bütün duyğularınla yaşayırsan. O səcdədən doğur müqəddəslik, o müqəddəslik haraylayır, çağırır insanları. Yaşayır, yaradır. Tarixdəki kimi.

Nəsiminin səcdəsi – Nəimiyə heyrətindəydi.

Babəkin səcdəsi – Azadlıq fərəhindəydi.

Məcnunun səcdəsi – Aşiqliyindəydi.

Ölməzdir səcdə, insanı yaşatdığı kimi əbədi qalır həyatda. Yenə də bizi sevgiyə, heyrətə, azadlığa səsləyir, inandırır.

Səcdədə bilinir dəyər, səcdədə bilinir aqibət. Heç bir şübhənin bata bilmədiyi təmənnasızlığın, dönməzliyin üzərində qurulur aqibət.

Səcdəli aqibət düşündürür, sirr yaradır, cəzb yaradır.

Səcdəli aqibət səcdə etdiyini, səcdəsini və özünü yaradır. Bu vəhdət müqəddəsdir. Ruhaniliyin zirvəsidir, Kamilliyin zirvəsidir.

Bizim Ataya səcdəmiz – fərəhimizdir. Ataya səcdə məni özüm üçün təsdiq etdi. Yenidən doğuldum, yenidən yarandım. Özümə, aqibətimə sahib oldum.

## Səfər Mərasimimiz – məktəbimiz

Biz Mərasimlər keçiririk. Hər Mərasimin öz məzmunu, yönü var. Ata Evladlarını hər mərasimdə kökləyirdi, harda olduğumuza gözümüzü açırdı, sabaha inandırırdı. Bayramlarımız da məqsədli yöndədir – İnsanilik, Xəlqilik, Şərqilik, Bəşərilik. Biz bir ünvandan Xalqa, Şərqə, Bəşərə söz deyirik – İnsanlığın xilasının Ocaq ideyalarında olması yönündə. Dediyimiz sözün arxasında durmaq – Mənliyimizi ifadə edir. Sözümüz səfərlərlə qırağa çıxır. Qırağa yükümüzlə, məsuliyyətimizlə çıxır.

Atanın ölümündən sonra çox səfərlər gerçəkləşdirdik. İndiki ağlımla baxanda o dövrə daha yetkin qiymət verirəm. O zamankı inadımız, qətiyyətimiz, fədakarlığımız olmasaydı, Amalımızla bu zamana gəlib çatmazdıq. Ocaq Yükümlüsünə bizim inamımız və onun Ata tələbləri ilə bizi kökləməsi daha böyük rol oynayırdı. O zaman da maddi imkanlarımız məhdud idi. Amma Ocağı yaşatmaq istəyi hər şeyi üstələyirdi. O yaşadığımız aşamalar (mərhələlər) aqibətimizə çevrildi. Eləcə də Ocaq mühitinin özülünə çevrildi.

Səfər – münasibətlərin yenilənməsidir – özünə münasibətin, Amaldaşına münasibətin, xalqına, Yola, Ocağa münasibətin, sabaha, yükünə münasibətin yenilənməsidir. Yolumuz da bənzərsizdir, yükümüz də. Bu yükü daşıya-daşıya, yolda addımlaya-addımlaya, çətinlikləri ötə-ötə özümüz də bənzərsizləşirik. Ata bir Evlad qəbulunda deyir ki, "Biz sənə "fəlakət" arzulayırıq. Amma bu fəlakətin adı səadətdir". Çünki Soylu Atalı demiş: "özünü öz ömründən sonrakı işlərə həsr etməyi fəlakət sayırlar". Bu səadətə yetmək üçün yükümüz daha da ağırlaşacaq, yolumuz daha çətin yerlərdən düşəcək.

Xalq ümidsiz, aciz, yolsuz, inamsız durumdadır. Bu xalqı yeni dünyabaxışa çağırmaqla öz dəyərlərini tanımağa, yiyə durmağa çağırırıq. Xalq öz fəlakətini görmür, gündən-günə fəlakət dərinləşir, uçurumlaşır. Bu uçurumdan yeganə çıxış yolu Mütləqə İnamdır. Ya "özüylədöyüş" əsasında insan olmaq, – müstəqil, yetkin, vətənə, millətə bağlı fərd olmaq, ya da Avropaçı, rusçu, dünyəvi, özgə dinlərin ətəyindən yapışmış, ümidsiz, özgələşmiş, vətənə, millətə yadlaşmış adam olmaq.

Ya yetkin, müstəqil xalq olmaq, ya da öz kökünə yadlaşmış, özgə dinlərdə başqalaşmış, birliyə yetməyən, dəyərlərinə yiyə durmayan, yeni dəyər, yeni insan yaratmayan dağınıq toplum olmaq.

Daha nə qədər fəlakət yaşamalı, nə qədər paralanmalı, nə qədər işğala uğramalıdır ki, bu xalq ayılsın. Ayılsın və özünü görsün. Özünü görmür, ona sırınanı, yeridiləni götürür, sarsılmır, ayılmır.

Biz xalqı ayıldanlarıq. Xalqlaşmada bəzən görürsən ki, nə qədər ayıltmağa, gözünü açmağa çalışırsan, ayılmaq da istəmir, sarsılmaq da istəmir. Yedəklənmiş dünyasının dağılmasından qorxur. Ona görə də yolumuz çətindir. Mən yolumuzun çətinliyini, yükümüzün məsuliyyətini gündən-günə daha yaxşı anlayıram.

Ata fikri: "Qaranlıq işığı nə vaxt gözəl qarşılayıb ki?" Hər birimizin ömründə olub bu. Ocağa Evlad olandan sonra sayğıdan, sevgidən daha çox məzəmmət, danlaq, təhqir, üz döndərmələr gördüm. Ocaqdan qıraqdakıların da sayğısı, sevgisi bir ayağını qaçaraq qoyur elə bil. İldən-ilə yetkinləşdikcə sevgim artır, ancaq bizə qarşı yadlıq

daha çox artır. Amma ümidimiz, özümüzə inamımız, bir-birimizə bağlılığımız möhkəmlənir. Ona görə də halım elədir ki, dünya üstümə gəlsə də, dönən deyiləm. Mən Ocaqçıyam, Yolçuyam, Yükçüyəm, dəyişən deyiləm. Əksinə, səni dəyişdirəcəm. Sən məndə özünü gör, tanı, bil. Sən mənim böyük arzularıma uyğun olana qədər mübarizə dayanmayacaq.

Ocağın yaranma imkanı yox idi. Ata imkansızlıqdan imkan yaratdı – Ocaq qalandı. Ocağın yaşama imkanı da bizdən asılıdır, xalqdan asılıdır.

Xalq Ocağı bildiyi qədər özünə yaxınlaşacaq.

Ocaqlaşmayınca, özünə yadlaşacaq.

Şərq Ocağı bildiyi qədər özünə yaxınlaşacaq,

Ocaqlaşmayınca özünə yadlaşacaq.

Bu Mərasimin mənim üçün böyük bir dəyəri var. Hər dəfə onun fərqli yönünü özüm üçün açıram.

***Atamız Var olsun!***

## Müasir ədəbiyyat

Vaxtilə ədəbiyyat tərbiyə edirdi, indi ədəbiyyatın özünü tərbiyə etmək gərək.

## Dövlət hipnozu

Xalqına qulluq edən görünür.

## Həyatdan Amala

Həyat təslimə çağırır – qayğılara təslim, gedişata təslim, axına təslim.

Təslimçilikdən çıxmasam, özüm ola bilmərəm. Təslimçilikdə mənlik təsdiq olunmur, mənliksizlik təsdiq olunur. Təslimçilikdən çıxmaq – həyatdan ayrılmaq – Amala ucalmaq.

**“Qulluq”**

Var olmasına çalışa-çalışa Xeyiri yox etdilər.
Yox olmasına çalışa-çalışa Şəri var etdilər.
Tərsinə çalışırlar.
Tərsinə yaşayırlar.
Var etmək üçün içində yaşatmalısan Xeyiri.
Yox etmək üçün içindən qovmalısan Şəri.
İçində yaratmaqla, yaşatmaqla Xeyir var olur.

**Özünə qarşı**

Özü olmaq çətindir – özgə olmaq asan.

Öz dilində danışmaq gerilikdir, özgə dilində danışmaq inkişaf.

Öz mədəniyyətini sevmək adilikdir, özgə mədəniyyətinə yalmanmaq xüsusilik.

Öz musiqisini dinləmək – özgə musiqisinə oynamaq.

Özümləşmək haqqında düşünmürlər, çünki özgələşmək axınına düşüblər.

Özümlük – ləyaqətdir,
Özgələşmə – ləyaqətsizlik, sabahsızlıq.

***xxx***

Özü üçün yaşamamaqdan başlayır mübarizə. Öz ömrünün qayğıları millətinin qayğılarından ibarət olanda başlayır ideallarla yaşamaq. İdeallar kökləyir, yetişdirir, yetkinləşdirir. Bunun üçün odun-alovun içinə atır adamı.

Qayğıdan üstün qayğı, dərddən üstün dərd, fəlakətdən üstün fəlakət yaşayırsan. Yaşadıqca anlayırsan, köklənir, yetkinləşirsən.

Ali qayğının içində əriyir kiçik qayğılar, – Amalın içində əriyir həyat. Ömür burdan başlayır yazılmağa.

Atanın ömrü mübarizəyə başladığı andan, Ocağı yaratdığı məqamdan yazıldı. Ocağına yazıldı, millətinə yazıldı, sabaha yazıldı. Bizim ömrümüzə yazıldı. Yol kimi, Amal kimi, ideal kimi yazıldı.

Nə qədər Atanı öyrəndiksə, dərk etdiksə o qədər ideala doğmalaşdıq, Amallaşdıq.

Bir Yolun yolçusu olmaq bu deməkdir. Ömürdən ömürə körpülər yaradan, ömürdən ömür yaradan Yol.

***xxx***

Mən görürəm ki, əgər bir insan öz düşüncəsini kökləyirsə, fəaliyyəti aydın olur. Mən düşüncəmi Amala köklədikcə ünsiyyətlərim də artır. Fərəhim də artır. Amala bağlı Fərəh üstə yaşayanda həyatdan gələn basqı, deyək ki, işi itirmək, yaxud başqa bir təsir məni əymir. Düzdür, mən onun çətinliyini də anlayıram, amma bilirəm ki, ən önəmlisi insanın tapdığı yoldur. O yolu ki tapırsan, o yola ki bağlanırsan, o yol ki insanın üzünü, yönünü müəyyən eləyir, ondan fərəh alırsan. O zaman həyatdan gələn çətinliyi də qəbul eləməyə və ötməyə hazır olursan.

***xxx***

İnsanın yaratdıqları özünə yaramır, çünki insan özünü içdən böyütmədən nəsə yaradır.

Əgər insan kim olduğunu bilsəydi, Allahdan qorxmazdı; Freydi dahi saymazdı; cəmiyyətçiliyə əyilməzdi.

Xalqın özündən ayrılması üstə yeni "səviyyə" yaradılır. Bu "səviyyə" alqışlanır, öyülür, ödülləndirilir (mükafatlandırılır). Bu "səviyyəni" qoruyur, bəzəyir, doğruldurlar.

Xalqdan çalınan sərvət yalnız neft və başqa maddi nemətlər deyil, xalqın ürəyi, cəsarəti, ağlı, düşüncəsidir.

Xalq nələri itirdiyini görmür. Onun gördüyü üzdəki oyunlar, maddiyyat uğrunda yarış, güzəran çatışmazlığıdır.

Xalq nələri itirdiyini bilmir. Onun bildiyi özgə dəyərlərin "üstünlüyü", özünəxaslığın "geridəqalmışlıq" olmasıdır.

Xalq gələcəyini təsəvvür etmir. Çünki bugünün ödüllərinə, imtiyazlarına, varidatına küsənənlərə ümid bəsləyir. Gələcək – milli özünütəsdiq əsasında, başqa sözlə Amal üstə qurulur.

"Amalsız həyat – aldanışdır" deyir Asif Ata. Nəyə aldanış? Karyeraya, var-dövlətə, ödüllərə, şöhrətə və s. Çünki bunların heç biri insanı doğrultmur. Ata ilk kitablarını yazanda nə işi, nə də evi vardı. Amma Ata sabahlı yaşayırdı, qüdrətliydi. Çünki onları heç saya bilirdi, təsirə düşmürdü. Yalnız sabahı düşünür və millətinə verə biləcəyi ruhaniyyatı yaradırdı. Əslində biz də Onun yaratdıqlarındanıq.

*xxx*

Həyatı öz arxasınca aparanlar öz ömrünün sahibi olanlardır. Öz ömründə sabaha qovuşan və başqalarını da sabaha qovuşduranlardır. Qurbanlar vermədən, fədakarlıq olmadan, cəfakeşlik olmadan həyatdan üstün olmaq alınmır.

Hər hansı bir hadisədə ilk reaksiyam qorxu, özünü qoruma, özünəyararlılıq baxımından olurdusa, indi münasibətim vicdanın tələbiylə yaranır. Xarakteri yaratmaq – özünü vicdana tapşırmaqdır. Vicdan ədaləti tanıdır və o prinsiplə hərəkət etməyə başlayıram...

Həyatda nə qədər "Birliklər" var. Amma o "Birliklər" insanları birləşdirmir. Çünki "Birliyi" yaradan fədakar niyyətlər, umacaqsız əməllər deyil, vəzifə, imtiyaz istəyidir. Yolsuzluq var ömürlərdə, ona görə ürək yoxsuldur, ömür yoxsuldur.

Yola çevrilən ürək gərək, əməl gərək, yolda yaranan ömür gərək.

Nə zamanın dostu olmaq, nə də zamana düşmən. Zamandan üstün olmaq gərək!

*xxx*

Ata fikri: "Təzəliyi bizə özgələr gətirdi – bu səbəbdən də Təzəlik bizi özgələşdirdi".

Hər yenilik uçurum oldu bizə. Hər yeniliyə yenildik, özümüz ola bilmədik. Geyim yeniliyi, davranış yeniliyi, yeni qayda, yeni musiqi, yeni mədəniyyət. "Yeniliklərdə" gerilədik. Lakin geriliyimizi bəzədik, bəyəndik, öyündük. Avropasayağı danışmağımızla, davranmağımızla yerə-göyə sığmadıq. Anlamadıq ki, öz kökündən ayrılan quruyar, məhv olar.

Kökümüzə, özümüzə xəyanəti görmədik, təmtəraqlar, dəbdəbələr qoymadı. Ona görə də gələcəyimiz təhlükədədir. Kökümüzə, özümüzə qayıtmalı. Yeniliyi özümüzdən yaratmalı, keçmişimizlə gələcəyimizin vəhdətində qurmalı.

*xxx*

Cəmiyyət adama yüz cür ad verər və bu adlar insanı doğrultmaz. Adam İnsan olar və bu adlardan yüksək yaşayar.

*xxx*

Bəzən bir günah belə eləməzsən. Amma heç nə eləmədiyinə görə günaha batarsan.

Bəzən yalan danışmazsan, susarsan. Amma susmağınla da yalana haqq verərsən.

Münasibət qarşılıqlı olur. Cəmiyyət adamı alçaldır. Adam alçalır, buna görə də cəmiyyət tərəfindən mükafatlandırılır. Mükafat qalır, adamın mənliyi isə yox olur.

Cəmiyyət İnsanı alçalda bilmir, ona qəzəblənir, onu cəzalandırır, bu cəzalardan, çətinliklərdən insan möhkəmlənir, yetkinləşir – Var olur!

*xxx*

İnam əsasında yaşamaq – Mütləq Düşüncə, Mütləq Duyğu, Mütləq İradə əsasında yaşamaqdır. Mütləq Düşüncə İdrakla bağlıdır,

Ağılla bağlı deyil. Çünki Ağıl gerçəkliyi əks etdirir, gerçəklik həddində, səddində olur. Ağıl Sonsuzluğu, Əbədiliyi, Kamilliyi anlamır. Anlamadığı üçün də ona can atmır.

Mütləq Duyğu – Ata ifadəsilə desək, "Adi duyğunun ölməsi və təzədən dirilməsidir". Adamın duyğuları çoxdur, Mütləq onları yönəldir, nizamlayır, yetkinləşdirir. Mütləq duyğu əzilmir, sarsılmır, azdırmır İnsanı.

Mütləq İradə gerçəkliyə sığmayan, imkana sığmayan iradədir. Gerçəkləşən ruhani əməllər düşüncə-duyğu birliyinin iradə ilə doğurduğu əməllərdir.

İnam əsasında yaşamaq həyat adiliyini ötmək deməkdir. Adamlar gələcək haqqında düşünəndə gələcəklərini karyeraya, var-dövlətə, gerçək imkanlara yetmək ümidi ilə qururlar. Bu çabalarında uğursuzluq olan kimi sarsılırlar. Özünə inam Amalla bağlı olanda keşməkeşli həyat hadisələri insanı sarsıtmır, əymir.

Gələcək gedişatla bağlı olanda müəyyənliyini itirir, Amalla bağlı olanda isə aydınlaşır.

*xxx*

Əsas olan nədir?

Bu suala həyat yönündən cavab verəndə Adam həyatlaşır.

Amal yönündən cavab verəndə Amallaşır.

Həyat yönü – Özümsüzləşdirən.

Amal yönü – özümləşdirən.

*xxx*

Dindar Allaha aşiq deyil. Çünki aşiqlik ikinin vəhdəti, özünü başqasında tapmaq ucalığı, – başqalaşmaq deməkdir.

Elm xadimi də aşiq deyil. Çünki elmdə insan gerçəkliyi öyrənir. Gerçəkliyin faydalı və faydasız yönlərini.

Amalda İnsan özünü, mənliyini tapır. Mənaya aşiqlik – aqibət yaradır.

*xxx*

Mən yolçuyam – Uzaq Yollar yolçusu. Tək qalmağı gözə alan, məqsədinə qovuşmaq istəyən yolçu.

Hər kəs öz yolunda təkdir, çünki çətinliklər təkbaşına aşılmalı, istədiyinə tək yetilməlidir.

Yalnız tək olanda gücünün hara qədər olduğunu anlayırsan. Sevginin, cəsarətinin, qorxmazlığının, sədaqətinin, özünə inamının səviyyəsi ilə görüşürsən.

Yalnız tək olanda özünlə üz-üzə qalırsan. Özüylə üz-üzə qalmaq, qala bilmək səmimiyyətdir. Səhvlərinə bəraət gərəksizliyidir, uğurlarını qiymətləndirməkdir.

Təməl qurulur içində və ağac torpağa kök atan kimi bitir. Min tufan, qasırğa onu qopara bilməz, çünki təməl dərindədir. Çünki təməl özünə güvəncdədir.

Həyatın əyən, alçaldan, sarsıdan, sındıran, yandıran üzü çoxdur. Həyatın çoxüzlülüyünə qarşı mənim bir üzüm var – sınmayacam, əyilməyəcəm, sarsılmayacam.

*xxx*

Bir fəlakət üz verəndə təskinlik üçün "həyat davam edir" deyirlər. Həyat mənsiz də, sənsiz də davam edir. Lakin insanın günü keçər, ancaq davam olmaya da bilər. İnsanın davam etməsi – yəni fəlakətini ötməsi, ümidə, inama tapınması – yaşamağı davam etməsidir.

*xxx*

Dində günah Adamın içindədir, xilas göydə.
Şər Adamın içindədir – Xeyir Göydə.
Adamın alnına talesizlik yazılıb.

*xxx*

Azərbaycanın üzdəki inkişafının arxasında geriləmə var.

Üzdəki fəaliyyətinin arxasında fəaliyyətsizlik var.

İnkişaf və fəallıq millətin daxili halına dayanmırsa, bunun nəyi inkişafdır?!

*xxx*

Azərbaycanı fəal söyə bilənlər Avropadadır,
Fəal söyə bilməyənlər hələlik Azərbaycanda.

*xxx*

Varlı varı ilə öyünür. Varı ilə öyünmək ləyaqətsizlikdir.

Yoxsul yoxsulluğundan utanır. Ləyaqətinin yiyəsi ola bilmir.

Asif Ata isə deyir: "Halallıqdan usanma, kasıblıqdan utanma!".

*xxx*

Çağdaş ədəbiyyat "azadlıq" deyə bağırır. Batı bilginləri olan Freydin, Nitşenin təsirinə düşənlər üçün görəsən azadlıq nə deməkdir?!

Xalqın mənəvi böhranını görmək ağırdır. Görə bilən ya sarsılır, ya da çıxış yolu axtarır. Çıxış yolu Ata ideyasıdır. Çünki özünü yaratmadan, öz dəyərinə yiyə durmadan və sabah üçün çalışmadan böhrandan çıxmaq olmaz. Böhran inkişaf adıyla gəlir, yenilik adıyla gəlir, çağdaşlıq adıyla gəlir. Öz içində, öz kökündə dayaq tapmadan, təməl qurmadan böhrandan çıxmaq olmaz.

Vicdanın səsini o zaman eşidirsən ki, o səsi eşitmək istəyirsən.

Həqiqətə o zaman çatırsan ki, çatmaq istəyirsən. Çünki həqiqətə çatmaq yalandan, saxtalıqdan, sünilikdən, ətalətdən imtina tələb edir. İmtinaya yetmədən həqiqətə, vicdana, ədalətə çatmaq olmaz.

**“Varislik”**
Özgələşmə irsiyyəti.
Kölgələşmə irsiyyəti.

***xxx***

Dəyər Özümlükdür. Sən bu Dəyərlə özünü görə, özünü tanıya, özünü anlaya bilərsən.

Dəyər – Kimlikdir. Bu Kimliklə özünü göstərə, özünü tanıda, özünü anlada bilərsən.

Dəyər – Qədimliyin Sabahıdır. Bu Sabahla özünü yenidən qura, yarada, yaşada bilərsən.

***xxx***

Həyata başı qarışan Həyata alışır. Alışandan sonra çıxmaq olmur.

Amala ömrünü verən – Amallaşır.

Həyatlaşan – Həyatı tapır, Amallaşan – Özümlüyünü.

***xxx***

Hamı hakim olmaq istəyir – heç kim özünü mühakimə eləmək istəmir.

Hamı suçlayır – heç kim günahıyla görünmək istəmir.

Hamı danışır – heç kim iş görmək istəmir.

Hamı qıraqda axtarır, ona görə özünü tapmır.

Özünü məhkum etmək, özünü günahkar saymaq – özündən başlamaq gərəkdir!

***xxx***

Bəzən dərd adamın ürəyini bağlayır, bəzən isə ürəyini gələcəyin üfüqlərinə açır.

*xxx*

Heç bir sınır tanımayan arzulardır, düşüncələrdir, duyğulardır. Kimsəsiz adada, həbsdə, ən ümidsiz yerdə belə, insanı ümidləndirən, qanadlandıran, kimsəsizlikdən çıxaran, həyan olan, dayaq olan, yol olan düşüncələr, arzular.

Bəlkə idrakın sonsuzluğu da elə sınır tanımamasından doğur.

*xxx*

Ata deyir ki: "Özün olmaq üçün özündən yüksək olmalısan". Adamın özü kimdir – İkili yaşayan. Həm qorxu – həm cəsarət, həm sevgi – həm xəyanət, həm doğruçuluq – həm yalançılıq. Zaman-zaman aşkarlanan, zamanın, mühitin, cəmiyyətin formalaşdırdığı ikili xarakter.

Özü olmaq azdır – özündən yüksək olmaq gərək. Özündən yüksək olmaq üçün qarşıya Mütləq tələb qoymaq gərəkdir. Mütləq tələb – Adamı özüylə barışmağa qoymur, dayanmağa, ətalətə, güzəştə imkan vermir. Narahat edir, əzab verir, lakin bu tələbi yerinə yetirəndə fərəhə qovuşdurur.

Adam bəzən özünü aldadar, özünə nağıl da danışar, amma əsil xoşbəxt ola bilməz. Xoşbəxt olmaq üçün mütləq ikilikdən azad olmalıdır. İçi azadlığa yetməlidir.

Adamın dinlərdə, dini ədəbiyyatlarda axtardıqları ona nə verir? Nəyi sevdirib, nəyi öyrədib, nədən arındırır? Özümlüyünə yetmək yolu tapırmı Adam bu kitablarda? Əgər tapmırsa, bu kitablar nəyə lazımdır? Əgər adam özündə günahkarlıq görürsə, özünü sevərmi? Həm də özünün etmədiyi əmələ görə günahkarlıq hissi daşıyır. Adam günahkardır, bütün bəşər günahkardır. Adam nə özünü, nə başqalarını sevə bilməz o zaman. Nə özünə, nə başqalarına inana bilməz. Qarşılıqlı inam olmayan yerdə nə ailə, nə dostluq, nə atalıq-analıq, nə qardaşlıq-bacılıq alınar. Bu qüsurlar nəsildən-nəsilə ötürülür.

Dində ailə yoxdur. Məsələn, dinin tabuları altında kortəbii böyüyən, özünü dərk eləməyən qız kiçik yaşlarında ərə verilir. O, hələ analığın nə olduğunu bilmir. Çünki yeniyetmə çağına qədər ata-ana ona fiziki qayğı göstərirlər, sonra isə ona həyatda mənəvi yön, dayaq olmalıdırlar. Erkən ailə quranda isə bu, mümkün deyil. Eyni zamanda o qız bacılıq-qardaşlığın da nə olduğunu yaşaya bilmir, görmür. Ailə qurandan sonra isə özü ana olur. Xarakteri formalaşmayan, həyatda özünü tapmayan qız necə ana, necə həyat yoldaşı ola bilər? Necə bacı ola bilər? Dində ailə alınmır.

Özümlüyünə yetmək – özünə inanmaq, özünü sevməkdir. O zaman ailə də alınır, dostluq da, atalıq-analıq da.

*xxx*

Hamı başını saxlayır – başsızlaşaraq.
Hamı özünü fikirləşir – Özümsüzləşərək.

*xxx*

Cəmiyyət özünə bənzəyənləri sevir, özünə bənzəməyənləri sevmir. Asif Atanın dışlanması, dinçi zümrə tərəfindən sevilməməsi, qısqanılması Atanın böyüklüyündən doğur! Böyüyü sevmək üçün böyümək gərəkdir!

*xxx*

Mən Sabaha ona görə tələsirəm ki, özümü görəm. Qeyri-kamilliyim – Bugünümdür, Sabahım – Kamilliyim.

*xxx*

Azərbaycan hakimiyyəti həqiqəti deyənləri hədələməklə qorxuzdurur, çünki özü də qorxur.

Din ona qarşı olanları öldürməklə qorxuzdurur, çünki özü də qorxur. Bu, onların gücsüzlüyüdür.

*xxx*

Qadınlar kişilərdən şikayətlənir, əsil kişinin necə olması haqqında yazırlar, danışırlar.

Kişilər qadınlardan şikayətlənir, əsil qadının necə olması haqqında yazırlar, danışırlar.

Qadın əsil qadın – İnsan olmaq haqda düşünməli, gerçəkləşdirməlidir.

Kişi əsil kişi – Yəni İnsan olmaq haqda düşünməli, gerçəkləşdirməlidir.

*xxx*

Doğmalıq – hər gəlişin qədrini bilmək, dəyərləndirmək, sevinmək, bununla da sevindirməkdir.

Hər narahatlığın, hər qayğıkeşliyin qədrini bilmək, dəyərləndirmək, sevinmək, bununla da sevindirməkdir.

Narahatlığın, qayğıkeşliyin gərəkliyini görməkdir; insanın sevgisinə sevinməkdir, istisinə qızınmaqdır.

Doğmalıq – eyni Yolda gedə bilməyin sevincini, əzabını, kədərini, zəhmətini yaşamaqdır.

Doğmalıq – varlığın özünə sevinə bilməkdir, bununla da sevindirməkdir.

Doğmalıq – başqalaşma fərəhinə qovuşmaqdır, özünü başqasında tapma, görmə, tanıma, sevmə hissidir.

Doğmalıq – münasibətin musiqiləşməsi və bunu insani ahənglə duymaqdır.

Doğmalıq – həsrətin artmasıdır, doyumsuzluqdur.

Doğmalıq – qoşa qanad ola bilməkdir.

*xxx*

Uzaqlara dalır xəyal. Gələcəyini qurur, arzularını qanadlandırır. Gələcək sirli, gələcək cəzbli. Yaşamaq istəyir insan – o sirrə varmaq üçün, o cəzbin təsirində qalmaq üçün.

Yaşamaq istəyir – çünki yaşamaq qurduğun xəyalların, qanadlandırdığın arzuların gerçəkləşməsinə çəkdiyin əməkdir, əzabdır, verdiyin qurbandır, etdiyin imtinadır. Bu anlamla yaşamadan Gələcəyə çatmaq olmaz.

Bu anlamı yaşamadan xəyallar gerçəkləşməz, arzular qanadlanmaz. O Gələcəkdə arzulara qovuşmaq diləyiylə, həvəsilə, çabasıyla, cəfasıyla yaşayır ürək.

Bu günlərdə Soylu Atalıyla telefonda danışırdıq. Halım yaxşı olsa da, yorğun idim, qayğılı idim. Soylu Atalının dediyi bir fikir məni indiyə qədər də öz təsirində saxlayır. O dedi ki, tutalım ki, ətrafın dumandır, qarışıqdır, qeyri-müəyyəndir. Amma sənin özünün varlığın ki özünə aydındır". Bu, Ocaqçı halıdır. Cəmiyyət qarışıqdır, qaranlıqdır. Amma sən öz varlığına inanmalısan. Bu, özünə inam deməkdir. Bu fikir sonra mənə təkan verdi. Doğmalıq odur. Yəni mən söhbətdən elə bəhrələndim, anladım ki, Soylu Atalının varlığı mənim üçün nə deməkdir. Ocaqçının varlığı Ocaqçı üçün nə demək olmalıdır.

*xxx*

Bəzən yeni ideyalar sürətlə yayılır, bəzən isə yüzillər gərək olur. İdeyalar ona görə yayılır ki, adamların içində özünə əsas tapır.

Freydin ideyası ona görə yayıldı ki, insanlar öz balacalıqlarını əsaslandırmağa tutalqa tapdılar.

Makiavellinin "məqsəd vasitəni doğruldur" ideyası adamların içindəki pis niyyətlərə əsas verdi.

Ata deyir ki, "İnsan daxilində Mütləq gəzdirir". Buna yetmək üçün özüylə döyüşməlisən, özünü yenidən yaratmalı, yenidən

doğmalısan. Bu ideyaya insanları inandırmaq çətin olur. Çünki insanı balaca saxlayan, imkanlarını öldürən "ideyalar"a elə alışıblar ki, həqiqətə gözləri açılmır. "Yalansız yaşamaq mümkün deyil", "düz adam düzdə qalar", – cəmiyyət halından fərqlənmək qorxusu, təklənmək xofu da bürüyüb adamları.

Bundan sonra onları inandırmaq üçün Ocaqçı ömrü, Ocaq mühiti var.

Ömür ideyanı var edən, yaşadan, qoruyan və davam edən yoldur. Bu yol qırılmır. Ömürlərdən ömürlərə calanır.

***xxx***

Uydurulan həyat var və yaradılan həyat var.

Uydurulan həyat cəmiyyətdə var. Yaşayırlar, amma bu yaşamı elə təqdim və təlqin edirlər ki, Mənaya yad olur.

Yaradılan həyat (özü tərəfindən) – gerçəklikdən üstün, cəmiyyətdən üstün həyat.

***xxx***

Həyatdan umduqca – bədbinləşirsən.

Adamlardan umduqca – bədbinləşirsən.

Ummamaq – özündə yaratmaq. Özünü yaratdıqca nikbinləşirsən. Amala bağlandıqca nikbinləşirsən.

Həyatdan asılı olduğun qədər – bədbin. Amaldan asılı olduğun qədər nikbin.

***xxx***

Əvvəllər zorla assimilyasiya vardı, indi şirin, cazibəli, könüllü assimilyasiya var.

*xxx*

Xalq mənəvi birliyə çatmayanda mütiliyində birgə olur, köləliyində birgə olur, özgələşməsində birgə olur.

*xxx*

Dövlətim mənə qarşı,
Qanunum mənə qarşı,
Məktəbim mənə qarşı,
Səhiyyəm mənə qarşı
Mədəniyyətim mənə qarşı,
Bugünüm mənə qarşı.

Sabahım da mənə qarşı olacaqmı? Mənə qarşı ola-ola məni yox edirlər. Yox olmamaq üçün nə etməli? Amala bağlanmalı, Amalla yaşamalı, Amalı yaşatmalı.

*xxx*

Həyatın öz tələbi, günün öz tələbi, ailənin öz tələbi, gedişatın öz tələbi, bədənin öz tələbi. Bu tələblər o qədər çoxdur ki, insanın ruhunun tələbləri, mənəvi ehtiyacları unudulur, unutdurulur. Tələblər ödənilməlidir, təbii ki, gərəkən həddə, çünki insan həm də bioloji varlıqdır. Lakin hansı tələblər o biriləri idarə edir? Ruhani tələblərmi, bioloji tələblərmi? İnsanın halı hansı tələblərə köklənir? Bəzən tələb idarə edir insanı, ömrünü, halını. Əgər öz ömrümüzdə bunu həll edəriksə, yəni hansı tələblər birincidir, önəmlidir, idarəedicidir, o zaman həyata baxış da, insana baxış da dəyişilər.

Görürəm ki, nə qədər mən Ocağa bağlanıram, nə qədər öz qarşıma tələblər qoyuram, o dərəcədə mənim həyata baxışımda, insanlara baxışımda o tələblər idarəedici rol oynayır.

*xxx*

Demokratiyanı müdafiə edənlər danışanda bir-birlərinə haqlı olduqlarını sübut etməyə çalışırlar. Hər ağızdan bir avaz gələndə birlik yaranmır. “Mən də varam” halıyla uzağa getmək olmaz. Demokratiya həşirçilikdir. Dədə Qorqud vaxtında demokratiya necə də absurd görünərdi...

*xxx*

Ocağı yaşatmaq hünərdir.

Çünki Ocaq ideyaları Azərbaycanın əlini yad ətəklərdən yığışdırır. Biz din baxımından işğaldayıq. Zorla müsəlmanlaşdırıldıq, zorla özgələşdik, özgəliyimizə “doğmayıq” indi. O qədər “dogmayıq” ki, öz böyüklərimizə, qəhrəmanlarımıza xor baxırıq. Babəkin çəxsiyyətinin yörəsində, Şah İsmayılın, Zərdüştün yörəsində söhbətlər, mübahisələr gedir. Aşağılayırlar, küçümsəyirlər.

Öz dəyərlərinə yiyə durmayan xalq yetim xalqdır. Ocağın varlığı mahiyyətcə xalqı bu yetimlikdən qurtarır.

Öz Yolu olmayan xalq qeyri-müstəqil xalqdır. Mütləqə İnam xalqın müstəqilliyini yetirir, ruhani işğaldan çıxarır.

Öz inamın, öz kökün, öz qədimliyin, keçmişin urvatlanmalı və bunun üzərində gələcəyin qurulmalıdır. İslam, xristianlıq, ya başqası sənin öz kökünü, özümlüyünü yetirmir, Səni mənimsəyib özünə qulluq elətdirir, başqa sözlə, özgələşdirir.

Öz İnamın olmayanda mədəniyyətin də təməl üzərində inkişaf etməyəcək, hər tərəfə meyillənəcək. Biri ərəbçi, biri Avropaçı, Qərbçi, rusçu və s. Özünü türkçü sayanlar da, çoxluq etibarilə, elə türkçülərdir ki, türklüyə, onun mənasına ziyan verirlər.

Öz İnamın olmayanda iqtisadiyyatın da müstəqil olmur. Çünki mənəvi inkişaf olmayanda başqa ölkələrin iqtisadi inkişafını hər şey sanırsan və onu təqlid edirsən. Ona oxşamağa çalışırsan. Özün öz

gözündə o qədər balaca görünürsən ki, başqalarını dahi bilirsən, irəlidə getmiş bilirsən.

Öz İnamın olmayanda siyasətin də müstəqil olmur. Özünü bilməmək, xalqını bilməmək, inanmamaq; xalqa qulluq göstərmək yerinə, xalqdan özünə qulluqçu düzəltmək dövlətin diktatorluğudur. Diktatorluğu qorumaq üçün də ağaların istəyinə yıxılmalar baş verir. Asılı siyasət, asılı ölkə, tələblər, şərtlər, bağlaşımlar (müqavilələr), dünya "birlikləri" və s. Bunlar asılılığı gücləndirən, qoruyandır. Sovet vaxtı boyunduruğa alışdırıldıq, indi də ondan çıxa bilmirik. Boyunduruğu qıraqdakılar da qoruyur, içəridən də qorunur.

Hər şey insandan başlayır. Özünü qurmadan insan kimi yaşamırsan, xalq ola bilmirsən, dövlət ola bilmirsən.

***xxx***

Xüsusi təbəqə sənəti yaranıb, təbəqə mədəniyyəti yaranıb, təbəqə alimliyi yaranıb, təbəqə terminləri yaranıb.

Xalqdan ayrı düşürlər, xalq sevgisini qazanmırlar, amma xalqı "təmsil edirlər".

Xalqı ilə bir olmayanın gələcəyi yoxdur.

***xxx***

Cəmiyyət adətləri, qaydaları, həyat tərzi adamı elə alışdırır ki, bundan qırağa çıxmaq ona uçurum kimi görünür. Əslində adam uçurumda olduğunu cəmiyyət qəlibindən çıxmadıqca bilmir. Ömrüm Amallaşdıqca həyatı aydın gördüm. Aydınlaşmasan, qaranlığı görə bilməzsən.

***xxx***

Təbiətin yaradıcılığı Adamla məhdudlaşır.
Amalın yaradıcılığı – İnsanda sonsuzlaşır.

*xxx*

Bəzən hər hansı bir dahi haqqında deyirlər ki, o, vaxtında dünyaya gəlib. Vaxtında dünyaya gəlmək – o şəxsin yaratdığı xilasın, yeniliyin zəruriliyi deməkdir.

Tarixi dəyişdirən addım tarixi yeniləndirdiyi kimi baxışı da yeniləndirir.

*xxx*

Umacaqlıq (təmənna) insanın insan tərəfindən mənimsənilməsidir. Umacaqlı münasibətdə insan vasitəyə çevrilir. Vasitəlikdən o zaman çıxılır ki, insan ruhani münasibətə yüksəlsin. Özünün ruhani varlığını yaradan insan umacaqsız münasibəti – ruhani səviyyəni təsdiq edir.

Ocaq bu münasibətin ünvanıdır.

Ocaqda öncə hər hansı iş görəndə təqdir umurdum. Bu da umacağın bir yönüdür. Sonra Ocaqlaşdıqca bu hissi ötdüm.

Həyatda da nəsə əldə etmək üçün ömrünü həsr edirsən. Amma bu həsr etmədə qazanan yalnız həyat olur. Amala həsr olunanda isə ruhani qazanc həm ömrün, həm Amalın olur.

Umacaq yadlıqdır. Bu yadlıqda həyatın adi istəkləri təmin olunur.

Umacaqsızlıq doğmalıqdır. Bu doğmalıqda həm insan, həm Amal təsdiq olunur.

*xxx*

Ocaq dünyaya qarşıdır, həyata qarşıdır. Yəni bəsit gedişata. Bu qarşıolmada dünyanın, həyatın xilası var. Ocağın yükünün daha ağır, işinin daha çətin olduğu görünür. Yükün ağırlığı yaşadığımız ömrün fərəhini, kədərini ən dərin qatlarda yaşadır.

Fərqlidir Ocaq ömrü.

Fərqlidir Ocaqçı münasibəti. Ocaq mühitinin yaranması və qorunması isə Soylu Atalının ruhani yetkinliyinə bağlıdır.

***xxx***

Həyata bulaşmamaq üçün həyatla döyüşmək gərək.
Dünyaya qatılmamaq üçün dünyayla döyüşmək gərək.
Döyüşmək üçün Amallaşmaq gərək.

***xxx***

Ocaq əməli – Olmalını bu günə gətirməkdir.

Həyatla döyüş – içimdəki ətalətlə, bədbinliklə, fəalsızlıqla döyüşdür.

Əməl varsa, bədbinlik yox olur, fərəhsizlik yox olur, – özünütəsdiq var olur. Özüylədöyüş var olur. Ocaqlaşmaq var olur.

Əməl – addım-addım özümlüyə qovuşdurur – dəyişdirir, yetkinləşdirir, inamlaşdırır. Ocağa doğmalaşdırır. Ocaqçılara doğmalaşdırır, – Amallaşdırır.

***xxx***

Niyə görə Ruhani Ailə ruhani nizam yaradır? – Çünki Ruhani Ailədə münasibət doğmalığı, ucalığı, umacaqsızlığı, fədakarlığı yaranır, təsdiq olunur.

Ailə Günü tədbirlərində özünü görmə, etiraf, qarşılıqlı bəhrələnmələr, doğmalaşma təsdiq olunur. Təsdiq – öyrədir, artırır.

Həm ciddilik, həm doğmalıq.
Həm məsuliyyət, həm fərəh.
Həm etiraf, həm inanmaq.
Kədərə kədərlənmək, fərəhlə öyünmək ünvanıdır Ruhani Ailə.

Əməllərin yarandığı, yaratdığı ünvandır Ailə. Ona görə də Ailələşmək – Ocaqlaşmaqdır.

*xxx*

Nəyisə kəşf etmişlər, dünyanın halı dəyişmiş. Nəyisə yeni görmüşlər, dünya bundan xəbərdar olub. Amma dünyanın dəyişməsi insani yöndə olmayıb. Kəşf – insanların bilmədiklərini bilməkdir, onlar üçün aşkarlamaqdır. Amma bu aşkarlığın varlığı insaniliyin inkişafına qulluq etmirsə, kəşfin mahiyyəti itir.

Mən Ocağı özüm üçün kəşf etdim. Sonra özümü kəşf etdikcə Ocaqçıları, insanları, insanlara sevgimi, xalqıma bağlılığımı, gərəkliliyimi, var olduğumu, ölümü ötə biləcəyimi, yaşamağın nə demək olduğunu dərk etməyimi, fərəhin əsil anlamını, fədakarlığı, ləyaqətli yaşamı kəşf etdim.

Bu kəşf məni yaşadır, dəyişdirir, mənə güc verir.

*xxx*

Azərbaycandan üz döndərmək asanlaşıb. Çünki vətən anlamı yaranmayıb ömürlərdə.

Millətindən üz döndərmək asanlaşıb. Çünki millət anlamı yaranmayıb ömürlərdə.

Vətən, millət ömrün özülünə, özümlüyünə çevriləndə insana doğmalaşır. Ömrün özülünə çevrilməyəndə insana yadlaşır. Yadlıqdan xəyanət törəyir.

Vətəni, milləti sevmək üçün keçmişini bilməli, bugününü qiymətləndirməli, sabahını qurmalısan.

Keçmişini necə bilməli, hansı gözlə baxmalı?

Soylu Atalının bir fikri var ki: "ana dünyaya övlad gətirir, amma ona analıq eləmirsə, deməli, analıq haqqına yetmədi". Azərbaycan da yaratdığı dəyərlərinə yiyəlik eləmir. Mənim üçün vətənin dəyəri deyilən anlam Asif Atanın "Azərbaycanımız – Azərbaycanlığımız" dəyərlər sistemində bütövləşdi.

Asif Ata "Azərbaycanımız – Azərbaycanlığımız" dəyərlər sistemi ilə Azərbaycanın keçmişini tanıdır, Mütləqə İnamı ilə Azərbaycanın sabahını qurur.

***xxx***

Deyirlər ki, musiqinin dili yoxdur.

İnsanlığın da dili yoxdur. Hansı millətdən, hansı torpaqdan olursa olsun, anlaşılandır. Əgər bir insanın əli başqasına sığal çəkirsə, sözsüz, dilsiz anlaşılır qayğı. Əgər biri o birisinə bağırırsa, vurursa, anlaşılır nifrət, yadlıq. Əgər dünya insanlığa çatsaydı, hamı anlayardı ülviyyəti, bir-birini.

Anlamırlar, çünki bir-birləriylə siyasi münasibətdə bulunur, iqtisadi şərtlərin dilində danışırlar. Danışdıqca da yadlaşırlar, yağılaşırlar. Anlamırlar ki, bir-birinə düşmən olmaq yaşadığı dünyanın ahənginə ziddir. Yaşamalı olduğu ömrün yolunun itirilməsidir – Sevgini itirməkdir, qayğını itirməkdir, bir-birinin dəyərini anlamağı itirməkdir. İnsanlığa yetməlidir insan. Yetməlidir ki, anlasın insanı, duysun dünyanı, yaşatsın sabahı.

***xxx***

Yarıuçuq, dağılmış ev görəndə içimdə kövrək duyğular yaranır. Görəsən keçmişi necə olub bu evin deyə düşünürəm. Neçə ürəyi isidib bu ev. İndi isə keçmişi var, "gələcəyi" yoxdur. İşıqları yanmır, çölün ruzgarı içində əsir.

İşığı yanan evləri görəndə o evin işığı dolur içimə. İnsan yaşayır o evdə, deməli, ümid yaşayır, sevgi yaşayır, qayğı yaşayır o evdə.

Sonra da Azərbaycan gəlir ağlıma. Azərbaycanın evi uçulub elə bil. Hər kəs də Azərbaycana evi uçulmuş kimi baxır. Ümidi, sevgisi, gələcəyi köçüb elə bil. Gələcəyi uçulub elə bil. Ocaq olmasaydı, mən də elə düşünərdim.

Ocaq Azərbaycanın uçulmuş evini qurandır, işığını yandırandır, gələcəyini yaradandır.

*xxx*

Din insanın fərəhini buxovlayır.

Nədən yaranır fərəh? – Nəyisə əldə edəndə, yaradanda.

Dində insanın yaradıcılığı yoxdur. Ömründə nəsə baş verərsə, bunu Allahın qisməti kimi qəbul edir. Ən böyük fərəhi cənnətə düşəndə olacağına inanır. Bu dünyadakı fərəhinə yetməyi, yetirməyi ağlına belə gətirmir. Ona görə də fərəhlənə bilmir. Fərəhlənə bilməyən fərəhləndirə də bilmir.

Kədəri azad deyil din adamının. Başına gələn fəlakəti Allahın hökmü və sınağı kimi qəbul edir. Boyun əyir o hökmə. Kədərdən dərs götürmək, çıxmaq, kədəri yenmək haqqında düşünə bilmir. Bunlar ona Allahın hökmünə qarşı çıxmaq kimi görünür. Kədər yenir insanı. Kədərlənə bilməyən, kədərdən çıxa bilməyən kədərdən çıxara da bilməz.

Fərəh azad olmalıdır. Fərəh azad etməlidir insanı.

Ömründə yaratdığındır, öz əməlindir fərəhiyin qaynağı. İnsan xarakterini yaradanda fərəhə yetir. Bu fərəh qurur, içəridən kökləyir, yeni əməllərə, yeni addımlara səsləyir. Axı bundan necə məhrum etmək olar insanı?

Kədər azad olmalıdır. Kədər azad etməlidir insanı. Bunun üçün sarsıntıdan, fəlakətdən dərs almaq, kədəri (özünə inanmaqla ötmək) İnamında əritmək, İdrakında əritmək, Mənəviyyatında əritmək gərək! İradənlə sarsıntılara qarşı durmaq gücü yaratmaqdır Kədərin azadlığı.

## Ocaqçılıq – quruculuqdur

Ocaqçılıq – Özüylədöyüş əsasında yaşamaqdır. Özünü yaratmasan, içindəki bulantıları təmizləməsən, yeni duyğulara, düşüncələrə yetməsən Ocaqçı olmağın fərəhini yaşaya bilməzsən. Ürəyin nifrəti yalnız şərə qarşı olmalı, sevgisi Xeyiri böyütməlidir.

Özünü qurmaqdır Ocaqçılıq– həyatın tələblərinə uymayan, zamana uyğunlaşmayan, mühitin təsirinə düşməyən ömür yaşamaqdır. Mütləq İnama, İdraka, Mənəviyyata, İradəyə yetməkdir.

Öz duyğularını, düşüncələrini Mütləqin tələbiylə yetkinləşdirən, öz ömrünün yiyəsi olan, ruhani azadlığa yetən insandır. Xaraketirni yaradan insan duyğularının, düşüncələrinin də yiyəsi olur. O, yönəldə bilir, arındıra, təmizləyə, yetkinləşdirə bilir. Seçimini özünə inamıyla, mənəviyyatıyla, iradəsiylə həyata keçirir. Özünə hakim olan Ocaqçının ailə quruculuğunda, münasibətlər quruculuğu da yetkin olur, doğma olur. Doğmalıq özü quruculuqdur. Umacaqsızlıq quruculuqdur. Fədakarlıq quruculuqdur. Qayğı, sevgi özü quruculuqdur. Bu duyğularla yanaşanda insan həm də başqasını qurur. Umacaqsız yanaşmasında umacaqsızlığa inandırır, umacaqsızlığı sevdirir. İnamla, qayğıyla, sevgiylə, insani duyğularla yanaşanda insaniliyi sevdirir, insaniliyə inandırır. Özünə inanmayan başqasına da inanmaz.

İnamla qurulur münasibət – dostluq, qardaşlıq, bacılıq. Quruculuq özündən başlayır, başqalarında davam edir.

*xxx*

Dəyərlərin muzeyləşmək təhlükəsi var.

Mədəniyyətin muzeyləşmək təhlükəsi var. Dilimizin, muğamımızın muzeyləşmək təhlükəsi var.

Muzeyləşmək təhlükəsi dəyərlərin, mədəniyyətin, dilin, muğamın ömürləşməsində aradan qalxar. Ömürləşməyənin sabahı yoxdur. Ömürləşmək üçün Amallaşmaq gərək.

*xxx*

Bilinməyən, görünməyən bir boşluğa gedir gənclik. Bu boşluq rəngləri ilə zəngin olsa da, fəlakətdir, çünki sonu uçurumdur. Millətinə bağlanmayan, dəyərlərinə bağlanmayan Gələcəyin sonu uçurum-

dur. Amma bu uçurum cəzbedicidir. Onları çəkmək, çağırmaq, uçurumun uçurum olduğunu göstərmək zəhmət, sevgi, inad tələb edir.

## Fərq

Partiyalar, qurumlar, təşkilatlar insanları öz yanlarına çağırır. Say artırmaq üçün, güc toplamaq üçün. İnsanlar onlar üçün vasitədir tədbirlərində, planlarında.

Biz adamları çağırırıq ki, İnsanın daxilindəki Mütləqi göstərək, Mütləqiliyi izhar edək. İnsanlaşmaq fərəhini onlara çatdıraq. Millətin fəlakətini, dərdlərini bildirək, sabahı haqqında düşündürək. Biz İnsanda İnsanilik görürük, ona inanırıq, ona yetməyə çağırırıq.

*xxx*

Ocaq nizamı – müqəddəslikdir. Çünki o nizamda ülvi münasibət var – Əmələ münasibət, Ocaqçıya münasibət, Ocağa münasibət, Ataya münasibət; Ata müqəddəsatına münasibət, xalqına münasibət, dünyaya münasibət, həyata münasibət.

Bu münasibətlərin hər birinin özünəməxsusluğu var.

Bu münasibətlərin hər birinin bir-birini tamamlaması var. Əgər bir yöndən nizamlanarsa, bu yön münasibət ahəngini yaradar, qalan münasibətlər də bu ahəngə tabe olar.

Münasibət də ağac kimidir. Ağacı bəsləyirsən, su verirsən, soyuqdan, sazaqdan qoruyursan, küləyin onu sındırmasının qarşısını alırsan. Kökləri torpağı tam tutandan sonra da onun gözəlliyini, böyüməsini, meyvələr verməsini əngəlləyəcək hər şeyin qarşısını almağa çalışırsan. Ona görə də hər zaman üzərində əsmək, məsuliyyəti unutmamaq, doğmalığı qorumaqla müqəddəsliyi artırmaq. Bütün bunlar çətindirmi? – Çətin deyil, özüylədöyüş davam edirsə.

Hər cür adilikdən, adi davranmadan, məsuliyyətsizlikdən arındırmaq lazımdır münasibətləri.

İdeyanı yaşamaq, həyata keçirmək çətindir. Çox ağır yük götürmüşük çiyinlərimizə. Bu yolda hər şey gözləniləndir.

Asif Ata deyirdi ki, mənə adamyeyən sözündən başqa hər şey dedilər. Ata bu ifadəni elə deyirdi, anlayırdım ki, nə etsələr, nə desələr, Atanın yanından yel olub keçəsi deyil. Biz də hər söz eşitdik, hər davranışı, nankorluğu gördük, amma Ocaq Yükümlüsünə inamımız, doğmalığımız, bir-birimizin qədrini bilməyimiz gərginlikdən, acıqdan, kindən azad etdi bizi. Amalı yaşatmaq gərginliyi, qayğıları, narahatlığı, fərəhi, əzabı ömrümüzü gərəksiz əhvallardan qorudu.

Münasibətdə belə bir şey də var. Öncə görürsən, tanıyırsan, inanırsan və dostluğa, qardaşlığa, bacılığa içində əminlik yaranır. Qalxıb-enmələr, anlaşılmazlıq da ola bilər münasibətdə, amma o ilk əminlik, inam münasibətin ana xəttindədir və kiçik qırağaçıxmalar olsa da əridə, yönəldə bilir.

***xxx***

Mən sənə möhtacam, Mütləqim!

Hər görüşünün həsrətini çəkirəm.

Hər gəlişin Kədəri yola salır, ürəyimi fərəhlə işıqlandırır.

Hər gəlişin bədbinliyimi uzaqlaşdırır, sevgimi artırır. Hər gəlişin təzələndirir, təravətləndirir içimi.

Hər gəlişin həsrətimin üzərinə həsrət gətirir, sonsuz görüş həyəcanıyla çırpınıram.

Özümə doğmalaşdıqca yalqızlıqdan çıxıram.

Ocağa doğmalaşdıqca Amalı dərk edirəm.

Bu qovuşmanın əbədiliyi üçün səninlə olmağa can atıram, döyüşürəm, dəyişilirəm. Əbədi yolçuluq aqibətini yaşayıram.

*xxx*

Həqiqətçi olub tərki-cəmiyyət, tərki-dünya olmaq adamları qorxudur.

Cəmiyyətçi olub şöhrətlənmək həvəsi artır, varlanmaq həvəsi artır, tapdamaq həvəsi artır.

Təklənmək həmişə adamları qorxudub.

Atanın ömrünə baxanda görərik ki, Ata həmişə tək olub, təqiblərə uğrayıb, xəyanətlə qarşılaşıb, amma ideyasından əl çəkməyib.

"Özün özünə kəs ola bilərsən" – Atanın belə bir deyimi var. Ata da özünə kəs ola-ola, içindəki Mütləqə söykənib çətinliklərə sinə gərə-gərə Ocaq yaratdı. İndi də biz təklikdə təklənə bilərik, amma birliyimiz bizi təklənməyə qoymur. Atanın nail olduğu, dünyanın yetə bilmədiyi birlik, doğmalıq dünyamız var. Birlikdə hünər yaşayır.

*xxx*

Özünü xalqdan ayrı salanlar xalqı söyənlərdir.

Özgəyə yad olmurlar, özününkünə doğma. Xalqa yad olmaq – təməlsizləşmək, əsilsizləşmək, sabahsızlaşmaqdır.

Xalqımdan asılıyam ağrılarımla, dərdlərimlə, fərəhimlə. Xalqımla birəm aqibətimlə. Xalqda özümün sabahımı gördüyüm üçün yüklüyəm, sorumluyam. Bu yükü ömürlərə paylamaq istəyirəm.

Yük paylaşdıqca ömürlər arasında vəhdət yaranır, doğmalıq yaranır. Vəhdətdə, doğmalıqda xalq yenidən qurulur.

*xxx*

Adam qisməti yük kimi daşıyır.
İnsan aqibətini yaradaraq yaşayır.

***Adam ömrü:***

Maddidə qazana-qazana mənəvilikdə itirmək.

Dünyadan dördəlli yapışmaq və dünyasızlaşmaq.

Həyatdan dördəlli yapışmaq və həyatlaşmaq.

Cəmiyyətin dediyi ilə oturub-durmaq və yalqızlaşmaq.

***İnsan ömrü:***

Mənəviliyini yaradır – maddini təmin edir.

Özüylə döyüşür – dünyalaşır, həyatı dəyişir.

Cəmiyyətdən ayrılır, təklənir, amma öz aqibətini yaşayır, öz dünyasını yaradır.

## İnsanı kəşf etmək

İnsanı özümlə döyüşdükcə tanıdım. Öz içimdəki insanı özümlə döyüşdükcə kəşf etdim.

Əvvəllər başqasının hünərini, içinin gözəlliyini görəndə qısqanırdım, paxıllıq çəkirdim. Özümlə döyüşdükcə qısqanclıqdan arındım.

Başqasının yanlışını, qüsurunu görəndə "məndə bu cəhət yoxdur" deyə sevindiyim hallar olub. Özümlə döyüşdükcə başqasının qüsuruna kədərləndim, insanlıq bundan zərər görür dedim.

İçimdəki adamlığı gördükcə, döydükcə özümü kəşf etdim. Xarakterimi yaratdıqca özümə inanmağa başladım. Başqasına da inanmağa başladım. Çünki özüylə döyüşün gerçəkləşməsinə inandım.

Başqasının ömründəki gözəlliklərlə öz ömrümdəki gözəlliklər arasında doğmalığı kəşf etdim. Ruhun ruha doğmalığını görmək fərəhlidir, heyrətlidir.

Mən Atanı oxuduqca Atanı kəşf edirəm. Duyğularımın, düşüncələrimin yeni səviyyəsini kəşf edirəm. Təzələnirəm, fərəhlənirəm.

Hər tədbirimizdə Ocaqçıların yeni duyğularının, düşüncələrinin aşkarlanması da onların mənim üçün kəşfidir.

Soylu Atalı haray çəkir. Onun Amala aşiqliyini, inamını, ağrısını, nikbinliyini görürəm, kəşf edirəm, özümün görə bilmək bacarığımı da kəşf edirəm. Bu, birlikdir, ömür doğmalığıdır.

## Bugün – Sabah

Bugün bəsitdir. Sabah ali.

Bugünü ötməsəm, sabahı qura bilmərəm.

Bugün qeyri-kamilliyimdir, bugünümlə döyüşməsəm, bugünümü ötməsəm, Sabaha çata bilmərəm.

Bugün yarımçıqlığımdır, – yarımçıqlığımı ötməsəm, bütövləşə bilmərəm.

Hər gün keçmişdə qalır. Hər gün keçib gedir. Keçib getməyən yaşantılarımız – əsilliyə yetmiş duyğular, düşüncələr, əməllərdir. Hər gün daha da yetkinləşmək, təzələnmək – Bugünü ötməkdir.

Amala doğru bir addım – bugünü ötməkdir.

Əməldə yetkinləşmək, fərəhdə yetkinləşmək, kədərdə yetkinləşmək bugünü ötməkdir.

Ocaqlaşmaq, Amallaşmaq bugünü ötməkdir.

Arzuları gerçəkləşdirmək bugünü ötməkdir.

Mütləq tələbə yüksəlmək və tələbi ödəmək bugünü ötməkdir.

Bugünü nə qədər ötə bilirəmsə, fərəhim də o səviyyədədir.

Ona görə də özümlə döyüşümdə – özümlə barışmamaq, özümü aldatmamaq məni sabaha yetirir.

Bugünümlə barışmaq Sabahı məndən uzaqlaşdırır.

Bugünü ötmək – məqsəddir. O məqsədin meyvəsi – Sabahdadır.

***xxx***

Həyatda alçalmağın mümkünlüyü bütün cəhətləriylə bəraətlənir. Ancaq insan ləyaqətinin, qarşı dura bilmənin, dirənişin mümkünlüyü imkansız görünür.

Satılmanın, satmanın mümkünlüyü bəraətlənir. Ancaq arxa durmaq, çiyindaş olmaq imkansız görünür.

Cəmiyyətdə Adam öz Adamlığını bəraətləndirir ki, İnsanilik ucalığına yetməyi mümkünsüz göstərsin.

Əslində İnsaniliyə yetməmək qəbahəti bəraətlənir.

Adamlar satılmaq, satmaq, aşağılanmaq, alçalmaq görəndə təəccüblənmirlər, doğruluq, ləyaqət, qorxmazlıq, barışmazlıq görəndə təəccüblənirlər.

İnsanilik imkanının, gerçəkləşməsinə inam yaranmalıdır!

*xxx*

Açıq və ya gizli düşmənçilik var, yadlıq var – yalan, məkr, riya, həsəd, qorxu, yırtıcılıq, azğınlıq, günah, əsarət var.

Sevgi həmişə aydındır, açıqdır.

Doğmalıq, doğruçuluq, cəsarət, ləyaqət, azadlıq, fədakarlıq həmişə açıqdır, aydındır. Çünki İnsanilik ucalıqdır, yüksəklikdir. Hardan baxsan görünür.

*xxx*

Adam üçün Allah hər şeyi bacarandır, hər şeyi biləndir. Din bunu fiziki mənada nəzərdə tutur. İnsanda Allahlıq var, yəni insan hər şeyi bacarandır, biləndir ruhani anlamda. Hər şeyi bacarmaq – şəraitdən, mühitdən üstün olmaq, öz qüsurlarının üzərində qələbə çalmaqdır.

Özü üzərində ucalan, özünü idarə edən, özünü dəyişən, yetkinləşdirən, təkmilləşdirən insan Allahlıq məzmununa yetir. Özü üzərində qələbə çalan yalnız öz ömrünü yaratmaqla məhdudlaşmır. Öz ömründə ədalətə çatan həyatdakı ədaləti də təsdiq edir. Adamlar Allaha ədalət kimi də inanırlar. Ədalət Allah məzmununda itir, çünki insan çatmalıdır o ədalətə və insan yaşatmalıdır onu ömründə. Ədalətli münasibət ədaləti yaşadır. Həqiqi münasibət həqiqəti yaşadır.

İnsan öz ömründə həm Özümlüyü təsdiq edir, həm də Ədaləti, Həqiqəti, Xeyiri yaşadır. Onun Ədaləti yaşatmağı başqa ömürlərdə davam edir.

Ədaləti Allahdan gözləmək deyil, özündə yaşatmaq gərək.

Adamın Allaha inamının təməlində Adamın istəkləri durur. Hər şey onun əlindədir, pisi də, yaxşısı da, bugünü də, sabahı da. Dünyanın idarəedicisi həyatın nizamına nəzarət edir.

Adam öz ömrünün, dünyayla, həyatla bağlı hadisələrin yiyəsi kimi Allahı görür, sorumluluqdan çıxır. Sorumluluqdan çıxanda onu qoruya da bilmir.

Mən öz ömrümü qururam, öz ömrümə sahibəm, öz millətimi düşünürəm, eyni zamanda dünyanın da sabahını düşünürəm.

Millətimin də yiyəsi mənəm, Dünyanın da.

Burda yiyəlik duyğusu var. Yiyəlikdə qorumaq var.

Bəndədə isə yiyə olmaq, qorumaq duyğusu yoxdur.

***xxx***

Adam özünün imkanlarını Allahda məhdudlaşdırır.

Allah hər şeyə qadirdir, bəs Adam?

Hər şeyə qadir olan Allahın yaratdığı adam yalnız tabeliyə məhkumdur.

İnsan Mütləqə inanmaqla özünü yaratmağa inanır, özüylədöyüşlə onu gerçəkləşdirir. Özünə Mütləq tələblə yanaşıb Mütləqə can atır.

Özünə Mütləq ölçüylə yanaşmaq – Mütləqə yetmək duyğusunu yaradır. Mütləq ölçü Adamı öz gözündə böyüdür, özüylə tanış edir, gerçəkliyi anladır.

Allah ölçüsüylə baxanda adam özünün bəndə səviyyəsiylə görüşür. Dini qanunlara əməl etməklə adam həyatını qurur, özüylə barışır, qismətiylə barışır, yetkinləşməyə, aqibətini qurmağa, ömrünün yiyəsi olmağa can atmır.

Allah üçün yaşayırlar, vuruşurlar, dünyaya ondan işıq düşmür.

Mütləqə yetmək üçün insan özüylə döyüşür, yaşayır.

Dünyaya belə ömürdən işıq düşür.

***xxx***

Adam Mənalı yaşayanda hara baxırsa, sevinc duyğusu aşkarlayır. Hər gördüyündə gözəl nəsə tapıb sevinir.

Kədərli olanda gördüyü hər şey kədər çağırır. Bu, təbiidir.

Lakin hər şey adamın halından asılı olarsa, necə baxmağından asılı olarsa, ölçü nə olar?

Adam bədbin olanda baxdığı hər şeydə bədbinlik görür. Bu bədbinlik günbəgün onun ömrünə, üzünə, gözünə çökür. Bəzən elə yaşlı adam görürsən ki, üzündəki qırışı bədbinlik qırışıdır. Bədbinlik adamı özündən uzaqlaşdırdıqca insanlardan da uzaqlaşdırır. Bədbinlikdən çıxmaq yolu özüylə barışmazlıqdan, özünə inanmaqdan başlayır. Gərək bədbinliyi özünə yaraşdırmayasan. Çünki bədbinlik insanı da, həyatı da, dünyanı da insana yadlaşdırır. İnsan özünü dünyada qərib hiss edir. Ancaq özünü yaratdıqca insanlara da, həyata da, dünyaya da doğmalaşır insan. Hər şeydə fərəh tapan Mənaya qovuşa bilir.

Atanın İnsan sevinci adlı yazısı var "Mütləqə İnam" Kitabında. Onu oxuyanda adamı sevinc bürüyür. Ata orda yazır ki: "Səcdə sevinci. Heyrət sevinci. Səma sevinci. Torpaq sevinci. Yarpaq sevinci. Fədakarlıq sevinci. Özündənkeçmə sevinci...". Onu oxuyanda görürsən ki, hər şeydə sevinc var. O, Mütləqin nişanələridir. Hər bir şeydən fərəh almaq olur.

İnsan həyata nikbin baxanda, hər bir şey fərəh çağıra bilir. Dünya da adama doğmalaşır, insanlar da.

Atanın üzünün ifadəsi həm kədərli, həm nikbin idi. Atanın üzünə baxdıqca tədqiq eləmək istəyirdin.

Nikbin insanların üzü tədqiq olunası, kəşf olunası üzdür.

*xxx*

Bizim üçün Müqəddəsliyin ölçüsü – İnsanilik, Millilik, Bəşərilikdir.
Müqəddəs insan bu insani keyfiyyətlərlə yaşayan, ona ucalandır.
Müqəddəs torpaq yurddur.
Müqəddəs yol – İnsaniliyə, Milliliyə, Bəşərilyə aparandır.

*xxx*

Adamlıq hədd tanıyır. Çünki Adamın dostluğu, sevgisi, fədakarlığı, qayğısı... müəyyən həddə qədər olsa da, məkri, yırtıcılığı, azğınlığı, amansızlığı da hədlidir. Adamlıq həddinin qarşısında İnsanilik durur.

Şər sonludur, çünki Xeyir sonsuzdur.

Yalan sonludur, çünki Həqiqət sonsuzdur. Dünyanın halına, mənzərəsinə baxanda nə qədər amansızlıq, yırtıcılıq, insansızlıq görsən də, məhz İnsaniliyə inam, Xeyirə inam – dünyanın məhv olmayacağına da inam yaradır.

İnsanların, bu günün qaranlığına qarşı Sabaha inamı da bundan yaranır. Lakin təkcə inanmaq azdır, İnamı yaşamaq, həyata keçirmək gərəkdir.

*xxx*

Əqidə – Aşiqlik yüküdür. O yükü anlayana qədər özünü böyütməli, anlayıb yaşatmaq üçün yetkinləşməli, başqalarına anlatmaq üçün müdrikləşməlidir insan.

*xxx*

Ata deyir ki, "bugünü evə gətirməyin".

Bu gün keçici həvəslə, düşüncələrlə, duyğularla evimizə, ürəyimizə soxulmağa çalışır. Hər anda, dəqiqədə ayıq olmadınsa evə də girəcək, qəlbinə də.

Bugün ürəyə gələndə anın da bugünləşir, saatın da, ömrün də.

Bugünləşdikcə itir ömür, azır, yox olur.

Bugünü ürəyə qoymamaq üçün sabahlı duyğular, düşüncələr ürəkdə yurd salmalı, kök atmalıdır. Kök atmalıdır ki, yaşasın, davam etsin.

Təməli möhkəm olan düşüncə, duyğu yaşadıqca davam edir, artır, sabahlaşır.

## Qədimliyimiz – örnəyimiz

Kədərdə ağlaya-ağlaya, ağlana-ağlana kədəri bayatılarda, mahnılarda əbədiləşdiriblər babalarımız, əcdadlarımız – yüzillər öncəki göz yaşını, kədəri, həm də vüqarı, müdrikliyi. Kədəri ağlamaq müdrikliyini duyursan, hiss edirsən, doğmalaşırsan kədərə, doğmalaşırsan əcdadlarına.

Hünəri, qəhrəmanlığı, umacaqsızlığı, özündənkeçməni öyə-öyə, sevə-sevə alqışlarda, öygülərdə, dastanlarda əbədiləşdiriblər babalarımız.

Yüzillər öncəki hünərə, qəhrəmanlığa, ərdəmliyə heyrət edirsən, sən də öyünürsən, sən də alqış edirsən. Doğmalaşırsan o hisslərə, doğmalaşırsan əcdadlarına.

Eyni köklü, təməlli, torpaqlı, yurdlu, göylü olduğunu görürsən, duyursan, əbədiliyə, xəlqiliyə inam yaranır.

Dədə Qorqud zamanında hünər öyülürdü. Hünər öyüldükcə hünər əməli artırdı, hünərlilər artırdı. Hünərə yetmək mənəvi ehtiyaca çevrilir, nəsildən nəslə keçirdi. Nəsildən nəslə keçən dəyərləşir, əbədiləşir.

Ata öz ömrünü yaratdı, Ocaq qaladı, nicatı İnsanlaşmaqda gördü. Evladlıq hadisəsi yaratdı ki, Azərbaycanın sabahı qurulsun. Onun öz ömründə yaratdığı Amalı bizim ömrümüzdə davam elədi, ömür fiziki qırıldısa da, yol qırılmadı. Ağrısını, kədərini, fərəhini, inamını, nikbinliyini ömrümüzə köçürdü, ömrümüzü diriltdi əslində.

Mən də öz ömrümdə yaşatdığım Amalı ömürlərə köçürə bilsəm, ruhani varisliyi təsdiq etsəm, sonrakı nəsil də bunu təkrar edərsə, o zaman xalqın sabahı haqqında necə nikbin düşüncələr yaranır. Bir insan ömründən başlanan Amal ömürlərdə, nəsillərdə davam edir, yaşayır, dəyərləşir.

Ona görə biz "Xəlqilik" Bayramı keçiririk. Xəlqiliyi bayram eləməyə haqqımız var. Çünki ömrümüzü Amal üstə yaşayırıq.

Mən millətin bir parçasıyam, ömrümü yaratmaqla millətimə qulluq edirəm.

Biz xalqla görüşlər keçiririk, Soylu Atalının fikri ilə desəm, gəncliyin ağlında Azərbaycan obazı yaradırıq ki, üzünü Azərbaycana tutsun.

*xxx*

Adamlar bir-birinə münasibətdə yadlıqdan, umacaqlıqdan, faydaçılıqdan, qayğısızlıqdan boğulurlar, ancaq bunu zəruri nizam sayırlar, cəmiyyət qəlibindən çıxmırlar, çıxmaq istəmirlər. Ruhaniyyat, adamları bu durumdan azad edə bilər, təbii ki, ruhaniyyata üz tutsalar.

*xxx*

Dünyanı vətənə çevirmək olmaz, ancaq vətəni öz dünyana çevirə bilərsən. Vətən dünya olanda dünyaya ağalıq etmək niyyəti ölür.

*xxx*

Hamı birdən susur, birdən karlaşır, korlaşır, yadlaşır. Zaman-zaman böyük zəhmətlərə alışanlar gərəkdir ki, xalqı karlıqdan, korluqdan, lallıqdan qurtarsınlar.

Birgə susanlar şərə yarayır, birgə korlaşan, karlaşan şəri yaşadır. Şər ona görə var olur ki, karlıq, korluq, lallıq qaçılmaz yol sayılır.

Özünü təsdiq həqiqəti dirənişdən başlayır. Həqiqəti ömründə təsdiq eləməklə insan şərə qarşı durur. Bir ömürdə təsdiq olunan həqiqət şərə qarşı böyük qüvvədir. Çünki şərin ölümünü yetirə bilir.

*xxx*

Kimin yalan, kimin doğru danışması – danışanın cəmiyyətdəki mövqeyi ilə müəyyən olunur. Əslində bir mövqe var – həqiqətçilik.

Cəmiyyətçi mövqe insanı haqlı etmir. Həqiqətçi mövqe insanı haqqa qovuşdurur.

İkili, üçlü, dördlü siyasət var. Birüzlü siyasət yoxdur.

İkili, üçlü, dördlü məqsədi var adamın, bir məqsədi yoxdur.

İkili, üçlü, dördlü yolu var adamın, bir yolu yoxdur. Ona görə də ömür qurulmur. Yollarda, məqsədlərdə haçalanır, parçalanır. Birüzlü, birməqsədli, biryollu aqibət qurmaq gərək.

*xxx*

Ömür diləklər, istəklər əsasında nizamlanır, qurulur. Mənim ömrümdə həyat tələbləri minimuma endikdə mənəvi istəklər maddi istəkləri üstələyir. Mənəvi istəklərim artdıqca həyatın tələbləri gözümdə kiçilir. Yaşamaq da gözəlləşir.

Həyat o zaman mürəkkəbləşir ki, maddi istəklər mənəvi istəkləri üstələyir. Ömrün azadlığını isə mənəvi istəklər yönəldir.

Maddi ehtiyacdan doğan diləklər adamı həyata bağlayır, gerçəklikdən ayrılmağa qoymur. Mənəvi ehtiyacdan doğan diləkləri gerçəkləşdirdikcə insan yetkinləşir, mənəviləşir. Adi həyatdan uzaqlaşır, ali həyata yaxınlaşır. Fərəhə çatır, özünə inama yetir.

*xxx*

Fil dişindən, bəbir, timsah dərisindən, tovuzquşu lələyindən gözəl şeylər yaradıb evini bəzədi adam. Guya təbiəti evinə, içinə gətirdi. Əslində isə təbiətsiz qaldı. Təbiətin ahəngini pozdu, tək qaldı.

Təbiətdəki gözəlliyi görməklə, kəşf etməklə, qorumaqla təbiəti öz içinə gətirmək, ona qovuşmaq olardı.

*xxx*

Kimi dindirsən, birliyin, bir məqsədin olması gözəlliyindən, gərəkliyindən danışır. O qədər danışılıb ki, adiləşib. İndi birlik ideyası mümkünsüz görünür, gözdən düşür. Arzu kimi çox şey gözəldir. Lakin bu arzunun həyata keçməsi üçün mənəmliyi qırağa qoymaq, özünü ideyaya həsr eləmək, özünü yaratmaq gerçəkləşdirilməlidir. Buna isə özüylədöyüş olmadan yetmək çətindir.

*xxx*

Dünyanı İnsanilik idarə etməlidir. Ancaq dünyanı zor və qorxu idarə edir. Dinlərin xofu yeni-yeni dini təşkilatların insan üzərində qorxu yaratması ilə qorunur. Adamlara hər şey dəhşətli görünür və sarsılırlar. Dünyada hər şey gözdən düşür. Yiyəsiz qalır adamalr da, dünya da.

Ürəklərə qorxu hakim olanda sevgi, qayğı, sayğı, heyrət ölür. Bunlar ölürsə, insanlıq ölür. Adamlar öz ideyalarını təsdiq etmək üçün başqalarını öldürürlər. Öz ideyasını təsdiq etmək üçün başqasına yağı kəsilmək həmin ideyanın insanlığa qarşı olduğunu göstərir.

İdeya insan üçün, onu sevmək, qorumaq üçün yaranmalı, həyata keçməlidir.

*xxx*

Teymurun vaxtında dünya qana qərq olmusdu. Şəhərlər dağıdılır, insanlara qarşı soyqırım törədilirdi.

Nəimi bu gedişata qarşı çıxıb "İnsan Allahdır" dedi.

Zaman dəyişsə də halı dəyişməyib. Yenə də dünya qan havası çalır. Asif Ata isə "İnsanlaşın – İnsanlaşdırın" deyir.

Dünyanın belə qan-qadalı vaxtında bizə deyirlər indi İnsanlaşmanın yeridirmi?! – Bəli, əslində dünyanın qan-qadadan çıxması üçün İnsanlaşmaq gərəkdir.

Ata deyir, "xalq Nəimini eşitsəydi, Azərbaycan başqa Azərbaycan olardı".

Ata yolu gedilməsə, Azərbaycanın sabahı nə olacaq, bəlli deyil.

*xxx*

Üzdən baxanda hər şey bəlli görünür. Ancaq hər şey bəllidirsə, nə üçün hadisələr çıxılmazlığa dirənib? Nə üçün ümidsizlik, inamsızlıq adamları bürüyüb?

Bütün bu hallar Ocağın gərəkliyini artırır. Ocaqçıların sorumluluğu və yükü artır...

*xxx*

Hər şey öz ilkinliyiylə gözəldir.

Çay öz axarı ilə axır. Onun axarlığı, musiqi səsli olması, aşıb-daşması, daşları yalaması o qədər gözəl, ahəngdardır ki. O, öz gözəlliyində, ahəngdarlığında tamdır.

Meşənin qüssəsi, sehri, sakitliyi, əsrarı öz gözəlliyində tamdır. Eləcə də dağ, dərə, şəlalə, tənha ağac, səma öz ilkinliyində gözəldir...

Belə bir fikir var – Adamı necə varsa, elə qəbul etmək gərəkdir.

Necə varsa, elə qəbul etmək Adamlıqla barışmaqdır.

Adam özüylə döyüşdükcə öz ilkinliyinə – Mütləqiliyə qovuşur, əsil mahiyyətini ifadə edir.

*xxx*

Yurdumuzda eynilə sovet vaxtındakı kimi təzə “kadrlar” yetişdirilir – yaltaq, ələbaxan, öz sözü olmayan, öz fikri, yolu olmayan, ancaq çalışqan, fəal.

Zaman təkrarlanır. Təzə “kadrlar” köhnəliyi təsdiq edirlər.

*xxx*

Elm inkişaf etdikcə insanın düşməninə çevrilir.

Qanunlar çoxaldıqca insana qarşı çevrilir.

İqtisadiyyat inkişaf elədikcə insan təbiətsiz qalır.

Cəmiyyət inkişaf elədikcə insan görünmür.

Hər şey insana qarşı inkişaf edir.

İnkişafın yönü insaniləşməlidir ki, insan məhv olmasın.

*xxx*

Hər şeyi təcrübədən keçirmək olar, İnsanlaşmadan başqa. İnsanlaşma – yaşamdır, həyatın özüdür, ana, məqama bağlı deyil, əbədiliyə bağlıdır.

*xxx*

Cəmiyyətdə hər şey maddiyyatla ölçülür, ona görə də insanlıq gözdən düşüb. Mənəviyyatlı insan üçün cəmiyyət həyatı quyudur.

Ocağın məqsədi – Mənəviyyatı ölçüyə çevirən cəmiyyət yaratmaqdır.

*xxx*

Xalq mahnılarını improvizə edib Avropasayaq oxuyurlar – guya çağdaşlıq bu deməkdir. Xalq mahnıları özümlüyümüzdür, ruhumu-

zun ifadəsidir. Onu olduğu kimi qorumaq – özümlüyümüzü qorumaqdır. Özümlü olmaq – çağdaş olmaq deməkdir.

Özümlüyü çağdaşlığa uyğunlaşdırmaq deyil, çağdaşlığı özümlük əsasında qurmaq gərək.

*xxx*

Ruhani Ailə bizi Amal yönündə, Amal üçün böyüdür. Ruhani Ailənin var olması üçün artmalı, kamilləşməliyik.

Adam Allahdan deyil, özündən qorxsaydı, cəhənnəmdən deyil, qan-qadalı, müharibəli, azğın gedişat yaratdığından qorxsaydı, dünyanın sabahını düşünsəydi çox şey dəyişilərdi.

Dinin dünyanı, həyatı fani sayması – həyatı, dünyanı qorumaq, dəyişdirmək məsuliyyətindən adamı azad edir.

*xxx*

Din quldarlıq üçün yaradı, feodalizm üçün yaradı, kapitalizm üçün yaradı.

Quruluşlara yarayan din İnsana yaramadı.

*xxx*

İnsanlığa inandığım dərəcədə Xurafata inanmıram, – Dinə inanmıram, Cəmiyyətçiliyə inanmıram. İnsanlığa İnandığım dərəcədə xoşbəxtəm.

*xxx*

Yoxsul yoxsulluğundan utanır, varlı varlılığından utanmır. Çünki cəmiyyət var-dövlətə görə sayır insanı.

*xxx*

Ata fikri: "Cəmiyyət Ailəni müdafiə eləmir – Ailədə Cəmiyyəti müdafiə edir".

Ailə cəmiyyəti evə gətirir. Cəmiyyətdəki təbəqəlik ailədə öz təsdiqini tapır.

Ailə başçısının yükü, sorumluluğu kişi ağalığında ifadə olunur.

Ailə başçısına dayaq olmaq, ailə qayğısı, fədakarlığı qadın xanımlığı ilə əvəz olunur.

Övlada münasibətdə umacaqlıq (təmənna), faydaçılıq təsdiq olunur.

Cəmiyyətdəki yadlıq, yağılıq təkrar olunur. Ona görə də ailədə cəmiyyətçilik halı yaşayır. Cəmiyyətdəki cəmiyyətçiliklə yaşayan adam ailədəki cəmiyyətçiliyi də yaşadır.

Adam İnsanlaşsa, atalaşsa, analaşsa, övladlaşsa ailə özünə bənzəyəcək.

Ailə yad, yağı, faydalı münasibətlər deyil, ruhani münasibətlər ünvanı olacaq.

*xxx*

Bir var təbiətdən gələn qorxu instinkti, bir də var dinin aşıladığı qorxu hissi.

İnam bizə qorxunu ötməyi öyrədir.

Din qorxuda qalmağı, qorxunu böyütməyi aşılayır.

*xxx*

Cəmiyyətdə adamlar bir-birinə faydalı münasibətlə bağlanırlar, ona görə də asan qırılıb qopurlar.

***xxx***

Ata deyir ki, dünyanı dərk etməmək mümkün deyil. Burada Dünyanın mənasına inam var, həm də insanın dərk edə bilməsinə inam var.

Din deyir ki, dünyanı dərk etmək mümkün deyil. Burada isə nə dünyanın mənasına, nə də insana inam var.

***xxx***

Allah adamın qismətini, taleyini öncədən "yazır", – adam qismətiylə barışır.

Dünyanın aparıcı siyasi gücləri də adamların, ölkələrin taleyini müəyyənləşdirib öz istəklərini, siyasətlərini həyata keçirirlər.

Qismətiylə barışmaq duyğusu adamı gedişata, zülmə, azğınlığa qarşı döyüşdən ayırır.

Adam öz qisməti ilə barışdığı kimi, ölkələr də öz qisməti ilə barışır.

Din siyasətə yarayır, siyasəti yarıdır.

***xxx***

Din öz tələblərini adamda həyata keçirir. Adam dinə yarayır, bəndə kimi yaşayır.

Cəmiyyət öz tələblərini adamda həyata keçirir. Adam cəmiyyətə yarayır, cəmiyyətçi kimi yaşayır.

İnam öz tələblərini adamda həyata keçirir. Adam özünə yarayır, insan kimi yaşayır.

***xxx***

Cəmiyyətlə bir olan ömür itir, yox olur. Çünki təbəqəlikdə, yadlıqda, özgələşəməkdə özünü tapmır.

İnsanla, Vətənlə bir olan ömür sabahlaşır, var olur. Çünki İnsanla, Vətənlə bir olmaq – özünü görmək, yaratmaq, özündənkeçmək deməkdir.

***xxx***

Quruluş dəyişəndə mədəniyyətin, ədəbiyyatın, musiqinin qonuları da dəyişir. Öncəki ideologiyanı tənqid edir, ya da lənətləyir. Halbuki ədəbiyyat, mədəniyyət, musiqi ayrıca hadisədir. Hansısa ideologiyaya bağlı olmamalıdır, həqiqəti təsdiq, şəri tənqid etmək görəvi daşımalıdır. Təəssüf ki, mədəniyyət asılılıqdan çıxmayıb.

Qəlibçi mədəniyyət deyil, həqiqətçi mədəniyyət yaratmaq gərəkdir.

(Öncələr biz fərqli böyümüşük. Sovet ideologiyasını təbliğ eləyən filmlər çəkilərdi. İndi isə məhz inqilabı pisləyən filmlər çəkilir. Yəni quruluş dəyişib, sovet inqilabının iç üzü açılıb, başlayıblar inqilaba qarşı filmlər çəkməyə. Yəni bir dövrdə bu cür çəkirlər, bu cür ədəbiyyat olur, başqa bir dövrdə başqa cür).

***xxx***

Dünyada əzilənlər çoxdur, əzənlər az. Əzənlər özlərini güclü sayır. Çünki əzilənlərin birliksizliyinə, iradəsizliyinə, inamsızlığına əmindirlər, arxayındırlar.

Əzilənlər birləşsələr əzənləri yıxarlar. Ancaq onlar özlərinə əzənlərin gözüylə baxır. Ona görə də bir olmaq haqlarına yetmək haqqında düşünmürlər.

Həm də gərək haqq nədir, onu da biləsən. Gərək haqqa yetəsən ki, qorunasan.

***xxx***

Həyat adama öyrədir ki, xeyirdən ziyan gəlir, şərdən mənfəət.

Buna görə də şər məqsədləşib.

***xxx***

Batı filmlərinin təməl xətti qarışıq (xaotik) dinamizmdir. Hərəkətlər bolluğu, hadisələr bolluğu düşünməyə imkan vermir.

Uşaqlar üçün çəkilən cizgi filmləri də robotlaşır, dinamikləşir.

Məqsəd seyrçi toplamaqdır, düşündürmək, bəhrələndirmək deyil.

Məqsəd düşüncəsizliyə alışdırmaqdır.

***xxx***

Məmur özündən aşağıdakıları əzir, onlara soyğun, azğın, aşağılayıcı münasibət bəsləyir. Özündən yüksək vəzifəlilərdən qorxur. Yüksək vəzifəlilər aşağı vəzifəliləri əzir, onlara soyğun, azğın, aşağılayıcı münasibət bəsləyir.

Zəif dövlətlər güclü dövlətlərdən qorxur.

Beləliklə, qorxu təbəqəsi yaranır. Bütün münasibətlər qorxuya dayanır.

***xxx***

İmperiya o deməkdir ki, ölkəni əsarətə salır, işğal eləyir, sonra işğal etdiyi günü həmin ölkəyə bayram elətdirir. Hətta həmin günü ölkənin yaranma günü kimi də qəbul elətdirir...

***xxx***

Özünün yaxşı cəhətlərinə doğma, pis cəhətlərinə düşmən olmaq gərəkdir. Ancaq bu cəhətlərdən dost hansıdır, düşmən hansı – bu sınırı aydınlaşdırıb yaxşını təsdiq, yamanla döyüşmək doğrudur.

***xxx***

Əməlin yetkinləşməsi – Əməlin qaynağı olan Əqidəyə eşqin artmasıdır. Eşq artdıqca əməl də artır, yetkinləşir. Əməl ruhani tələbata çevrilir.

*xxx*

Başqasını incitməklə, ziyan verməklə öz içindəki insanlığa qəsd edirsən, insanlığı öldürürsən. İnsanlığa inam azalır, yox olur, dünya balacalaşır, əksilir. İç dünyanın darlığı, balacalığı dışarıdakı dünyanı da daraldır, balacalaşdırır, qaranlıqlaşdırır.

Başqasına əl tutursan, sevindirirsən, qayğısını çəkirsən, içindəki insanlığı böyüdürsən, böyüyürsən. İnsanlığa inam artır, dünya böyüyür, işıqlanır.

İçin böyüklüyü dünyanı da böyüdür, işıqlandırır.

*xxx*

Adamın eşqi artdıqca, içində arıldıqca, duruldiqca təbiətə üzünü tutur, təbiəti ilahiləşdirir. Adam təbiət üzərində ağalıq etmək istədikcə, təbiətdən istifadə elədikcə təbiət adiləşir.

Təbiətə doğmalıq – özümlüklə doğmalıqdır.

İçindəki təbiəti dərk etməsən, qıraqdakı təbiət sənə yadlaşacaq.

*xxx*

Ata deyir ki: “Tanrıçılıq – Bu Dünyanı sevdi, ona görə də “O Dünya”ya ehtiyacı olmadı”.

Bu dünyanı sevən, bu dünya üçün çalışan – bu dünyada qalır.

O dünya üçün çalışan, o dünyanı sevən dünyasızlaşır.

*xxx*

Dünyanın dərdini bilənlər dünyanın dərdi qədər sorumluluq daşıyırlar.

***xxx***

Aqibət – yaşamaqla yaşatmaq arasındakı ülvi bağlılıqdan yaranır. Yaşadığına yetirmək – yükün, sorumluluğun, fərəhin, sevginin halından yaranır.

Adamın "o dünyaya" həm də ona görə ehtiyacı oldu ki, Adam nağıllarla yaşamaq istəyir bu dünyada.

Nağılı ömrə gətirmək gərəkdir, dünyanı nağıla çevirmək yox.

Ömrü yoxluğa aparan nağıl – xülyadır.

***xxx***

İqtisadiyyatı dünya standartına uyğunlaşdırırlar.
Mədəniyyəti dünya standartına uyğunlaşdırırlar.
Millətləri "dünya standartına" uyğunlaşdırırlar.
Millət standartlaşdıqca dünya dağılır...

## Yurdsuzluq – mənəvi çolaqlıq

Sovet zamanında mahnılarla böyüdük, əhliləşdik, uyğunlaşdıq, yadlaşdıq. Beşillik planlar, proqramlar üzümüzə gülürdü, onlara baxıb fərəhlənirdik. Daha doğrusu, onlarla fərəhlənməyin gərəkliyini beynimizə yazırdılar. Güzgüyə baxanda özümüzü yox, görməli olanı görürdük. Keçmişimizi "gərək" olduğu qədər bilir, gələcəyimizi təqdim etdikləri kimi görürdük.

"Elim gülür", "Nə gözəldir Azərbaycan", "Cənnət görmək istəyən Azərbaycana gəlsin" mahnılarına həqiqət qədər inanırdıq. O zamandan nə dəyişdi? Yenə də "həyat gülür, el gülür"… Parçalanaq, paralanaq, əzilək, heysiyyətimiz təhqir olunsun, fərqi yoxdur, "fərəhlənməli" o qədər şeylər taparıq ki. Axı biz özümüzü tanımasaq da, dünya bizi tanıyır. Axı biz Qarabağ uğrunda döyüşməsək də, o bizim dərdimizdir. Axı Güneyi unutsaq da, fars zindanlarda yaşadır bizə vətən hissini. Axı Borçalını gürcü, Dərbəndi rus unutdurub bizə. Axı biz sevinməliydik. Axı "nə gözəldir Azərbaycan!"

*xxx*

Şöhrətin heç olduğunu anlamayan ondan imtina edə bilməyəcək.
Şəhvətin heç olduğunu anlamayan ondan imtina edə bilməyəcək.
Yalanın heç olduğunu anlamayan ondan imtina edə bilməyəcək.
Ömür imtinadan sonra qurulmağa başlayacaq.

## Bəşərilik yönüm

*"Millət – Bəşərin özünütəsdiqidir. Millətsiz bəşəriyyət yoxdur"*
***Asif Ata***

Bəşər tarixini araşdırsaq, zamanın gedişi, axarı var, tarixi gedişat var, amma inkişaf yoxdur. Cəmiyyətdə inkişafı əngəlləyən təbəqə var – zənginlər və yoxsullar təbəqəsi. Cəmiyyətdə inkişafı əngəlləyən ağalar və nökərlər var. Bu, bəşərin inkişafının əngəllənməsində də özünü göstərir. Bir siniflə o biri sinif, bir ölkə ilə o biri ölkə arasındakı mübarizə və bu mübarizədən doğan ziddiyyətlər, yeni savaşlar inkişafa qarşı yönəlib. Bəşərin halında nizam yaratmaq istəyirlər – Bəşəri inkar edə-edə. Zaman irəliləyir, bəşərin halı isə geriləyir. Bu, hər nəsildə, hər əsrdə davam edir.

Bir xalqın yüksəlməsi o biri xalqın alçalması hesabına baş verirsə, hansı bəşəri humanizmdən söhbət gedə bilər?! Bugünkü humanizm ağa dövlətlərin mənafeyinə xidmət edir. Hardadır insan? Cəmiyyətdə ağa olan, nökər olan, həyat uğrunda mübarizə aparan, özgələşən, yadlaşan; Adamlığın əsarətində yaşayan insan! Aqibətsiz, ömrünə sahib olmayan, maddi mənafe uğrunda döyüşən insan və bu keyfiyyətlərdən oluşan millət.

Daim insanlığın məğlubiyyətinə yönələn döyüşlər. Antibəşəri gediş antiinsani gedişdən, antiinsani milli gedişdən yaranır. Adam öz taleyini Allaha, cəmiyyətə tapşıranda, millətlər də öz taleyini tarixi gedişata, bəşəri nizama tapşırırlar. Bəşəri nizam isə Ağa ölkələrin

nizamıdır, bir-birini silməyə çalışan dövlətlərin nizamıdır. Bəşərin aqibətini öz iradəsinə tabe etdirmək istəyən dövlətlərin nizamıdır. Ümumbəşəri "hüquq" yaratmaq istəyən nizamdır, – nizamsızlıqdır.

Əgər bir insan həqiqəti söyləyirsə, onu gözümçıxdıya salırlar. Çünki bu, gedişata qarşıdır, özünəyadlaşmış cəmiyyətə qarşıdır, dünyada qəbul olunmuş antiinsani qanunlara qarşıdır. İnsanla döyüşən cəmiyyətdə hansı milli varlıqdan danışa bilərik?!

***Millətin təməli insandır.*** Əgər insan yoxdursa, millət necə var ola bilər?! Əgər millət yoxdursa, bəşərin uğurlu halından danışmağa dəyərmi?! Bəşər həqiqəti tanımayıb, çünki müstəqil millət, müstəqil insan tanımayıb.

Adam insan olmayınca, həyatın gedişatı dəyişməyəcək.

Adamın içindəki Xeyir Şərə qalib gəldimi? Gəlmədisə, gözləmək olarmı həyatın dəyişəcəyini? Xeyir qalib deyilsə, bitərmi savaş?! Xeyir qalib gələrsə, onun işığı yarar şərin qaranlığını və bu yönü qorumaq uğrunda yaşam nizamı yaranar.

Xeyir uğrunda mübarizə həyatın yönünü, dünyanın mənzərəsini dəyişər. Qanunları İnsanlar yazar və Qanunlar İnsaniliyə xidmət edər. Münasibəti İnsanilik nizamlayar və insanlararası, dövlətlərarası münasibət faydalılıqdan, ağalıqdan, nökərlikdən arınar. İnsani münasibət ahəngi mərhələ-mərhələ ömürlərdən ölkələrə yayılar.

Bəşərin İnsani inkişafı – İnsandan başlayır. İnsan – Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə sahibi olan müstəqil fərddir. Bir insan ömrü – özüylədöyüşən, içindəki heyvanlıqdan, adamlıqdan arınan, durulan, aqibətinin yiyəsi, millətinə bağlı ömürdür. Yaşam tərzi milli ənənəyə çevrilən, nizam yaradan fərddir. İnsansız xalq yaranmadığı kimi, millətsiz də bəşər yoxdur. İnsanların sürüləşməsi millət yaratmadığı kimi, millətlərin də sürüləşməsi bəşər yaratmır. Hər insanın varlığında millilik var olduğu kimi, hər millətin varlığında da bəşərilik var. Bu, təsdiqini tapmalıdır. Bəşərin inkişafı – xalqların inkişafıdır. Bəşəri bütövlük müstəqil xalqların birliyidir. Bəşərin mahiyyəti – müstəqil xalqların adət-ənənə, dil, mədəniyyət,

tarix zənginliyidir. Tabe xalqın özümlü adət-ənənəsi, mədəniyyəti, bədiiyyatı olmur. İnsanlaşan millət – bəşərləşir.

***xxx***

Fiziki çolaqlığı olan adam cəmiyyətdə özünü rahat hiss etmir, başqalarından əskik olduğunu düşünür, başqaları ilə özünün arasındakı fərqi özünə dərd edir, sıxılır, əzilir.

Mənəvi çolaqlığı olanı isə heç kim görmür. Mənəvi çolağı heç kəs görə də bilməz. Çünki cəmiyyətin özü də çolaqdır, gözü də. Çünki yalan cəmiyyətin tələbidir. Yalan danışmayan özünü cəmiyyətdə rahat hiss etmir. Axı öz mövqeyinə görə satmaq, satılmaq normaldır. Sədaqətli insan, satılmayan insan cəmiyyətdə özünə yer tapa bilmir. Hər kəsdən, hər şeydən faydalanmaq cəmiyyətin əsil üzüdür. Axı insani tələblər, qayğı göstərmək, fədakarlıq etmək yaddır cəmiyyətin halına. Vicdan məsxərəyə qoyulur. Edilən əməllərdə şöhrətsevərlik, maddiyyatçılıq, sonraya hesablanmış özünəyararlıq (özünü düşünmək) var. Bizim istədiyimiz və gerçək olaraq yaratdığımız Ocaq həyatında mənəvi çolaqlığa yer yoxdur. Çünki silirik ömrümüzdən yalanı, həsədi, şöhrətsevərliyi, şəhvətsevərliyi, – naqis duyğuları.

Ya özünü yaratmalı, içəridən qurulmalı və qorumalı, ya da cəmiyyətin tələblərində aşına-aşına çolaqlığa uğramalısan. Ona görə də özünə cəmiyyətin gözü ilə deyil, öz gözü ilə baxmaq, özünə cəmiyyətin tələbi ilə deyil, həqiqətin tələbi ilə yanaşmaq xilas edəcək özünü də, cəmiyyəti də.

***Atamız Var olsun!***

# Bədiiyyat

***xxx***

Evim soyumuş – əllərim kimi, ürəyim kimi.

Hər şeyin dadı, rəngi qaçmış.

Qış gəlmiş – öncə ürəyimə, sonra evimə. Nəyə əl atıramsa, soyuqluğu buz kimi kəsir əlimi. Pəncərələrim qapalı, qapım da buz bağlamış, nə girən var, nə çıxan. Heç döyən də yoxdur.

Heç döyüləcəyini gözləyən ürək də yoxdur.

Hər şey susqun qalmış, qoyub getdiyin kimi.

Hər şey susmuş. Amma bu susqunluğun ürək yaxan harayı var, gülüm. Sarsıdır, yandırır məni.

Oyandırır məni sərtliyi ilə, yanğımı qarsıdır sənsizliyin soyuqluğu ilə.

Sənsiz dayanırmış hər şey, solurmuş, soyuyurmuş.

Sənsiz üşüyürmüş əllərim də, gözlərim də, ürəyim də.

Sənsiz ötmür günlərim, solmuş artıq güllərim də.

Get nisgilin məkanına.

Harda buz bağlamış qapı görsən məni xatırla.

Həsrətli gözləri, soyuq əlləri olan adam görsən məni xatırla.

Ot basmış, addımlara həsrət qalmış yolları görsən məni xatırla.

Xatirələrin qanadlarında içimə dön. İsit əllərimi, evimi, ürəyimi.

Canlandır günlərimizi.

***xxx***

Aşıb-daşan çaylar kimi axır sevgim sənə doğru.

Səni görmək həsrətilə gecə-gündüz yol gedirəm, sənə qovuşmağa çırpınır ürəyim.

Əllərini tutmaq üçün uçur, uçunur əllərim, axtarır səni gözlərim.

Hardasan, könlümün doğması?

Hardasan, harda?

Duydunmu səsimi, sənə həsrət qalmış nəfəsimi?

Ürəyimin təlatümünü, hər döyüntüdə adının vurğusunu vurğusunu?

O səsi duymaq – eyni vurğuyla ürəklərin döyüntüsüdür, eyni yolda addımlamaqdır, gülüm.

Ürəklərin qovuşmaq harayı bir nəğmədir.

O nəğmə ikimizindir.

Sənə qarşı həsrət rəngli arzulardan toxunan, göz yaşıyla yuyulan nəğməmiz.

Ürəyimə sığmayan istəyimdən, sənə qovuşmaq diləyimdən, sevgimin qüdrətindən doğan nəğməmiz.

Çalındımı ürəyində o musiqi, axdımı qəlbinə sevgimin ülviliyi?

Duydunmu heyranlığımı, səni qoruyan həyanlığımı?

Tanıdınmı səadətimizi, yola dönən izimizi, Yerə sığmayan Göy zənginliyindəki sevgimizi?

***xxx***

Bir səs gəldi uzaqdan.

Ta sonsuzluqdan gələn kimi.

İçimdən gəldi, çöldən gəldi, bilmirəm.

Amma duymaq istədiyim səsdi o səs.

Bir az göyün mavisi, bir az günəşin işıltısı, bir az rənglərin şuxluğu, havanın təravəti, güllərin qoxusu, quşların uçuşu vardı o səsdə.

Döndüm, səni gördüm.

Göylə yerin birləşdiyi yerdə dayanmışdın. Xəyalların gerçəkləşdiyi yerdə.

Adımı sevdim sənin çağırışında.

Səsinin titrəyişində, sevgili səslənişində yenidən doğuldum bilirsənmi?

Adımın ən kiçik hecasını dedin, amma ürəyimə körpü çəkdin.

O hecanı sən kəşf elədin, körpünün memarı da səndin.

O körpüdən başladım yaranmağa...

***xxx***

Səni cox gözlədim, çox.

Səni gözlədiyimi bilirdim, amma görüncə sənsizliyin nə qədər ağır olduğunu anladım.

Səninlə olmağın gözəlliyi sənsizliyin rəngsizliyini daha da artırır.

Səninlə olmağın sevinci sənsizliyin kədərini artırır.

Səninlə olmağın azadlığı sənsizliyin əsarətini artırır.

Getmə, nə olar, buraxma, tərk etmə məni.

Daha rəngsizliyə, çətinliyə, kədərə, əsarətə düşmək istəmirəm.

Səninlə olmaq dünyamı rəngləndirir, mənalandırır, sonsuzlaşdırır.

Səninlə olmaq sonsuz göydə qanad çalmağa bənzəyir, canım.

Qanadlarımı qırma, məni buraxma,

qanadlarım ol, göy üzündə birgə qanad çalalım,

göylər bizim olsun, rənglər bizim olsun, sevinc bizim olsun, azadlıq bizim olsun.

***xxx***

Gözlə məni, gələcəyəm, gülüm.
Ürəyinin bütün vurğularında gözlə məni.
Qəlbinin sonsuzluğunda gözlə məni.
Həsrətinin yanğısında gözlə məni.
Həsrətinin yanğısı göyə qədər ucalanda gələcəyəm mən.
Yağmurlarla axıb, çiçəklərlə açılıb, günəşlə saçılıb gələcəyəm mən.
Səninlə olacağam mən.
Səninlə öləcəyəm mən.

*xxx*

Sənə güvənirəm.

Çünki sənə güvəncimdədir həyatım, sənə güvəncimdədir gələcəyim. Bəlkə də gələcəyimiz əslində.

Çünki sənə güvənməklə, səni sevməklə birləşdi ürəklərimiz, gələcəyimiz.

Sənli addımlayırıq yolumuzda, bizim – yalnız ikimizin çəkəcəyi yolla.

Güvənci itirsəm yolumuzu çəkə bilmərik, yarımçıq qalar yolumuz, sınar qol-qanadımız.

Yol çəkmək asan deyil.
Hər şey vardır o yolda.
Bir-birindən ayrılmayanlar, qoşa qanad olanlar çəkə bilər o yolu.
O yolda daş atan var,
qanadlarımızı qıra bilən, külək var – bizi ayırmağa çalışan,
aramızdan axıdıla biləcək sular var, gülüm.
Biz ayrılmayınca gücsüzdür onlar, yox olar onlar.
Gücümüzü artıracaq onları aşmağımız.
Artacaq bağlılığımız.
Güc verəcək güvəncimiz, sevgimiz bizə.
Yol çəkəcəyik sevgimizlə, güvəncimizlə.
Sevgimizin yolunu yaradacağıq, ömrümüzün tarixini yazacağıq.
Sevginin, güvəncin varlığını yaşadacağıq!

*xxx*

Baxışını sevirəm, gülüm.
Gözlərin mənə baxanda içindən başqa dünyaya girirəm.
Ona görə də başqa yerə baxmağını istəmirəm. Mənə bax, gülüm.
Mənə bax ki, gözlərimə sığsın gözlərinin işığı, aydınlığı,
sevgisi ürəyimi isitsin, buzları əritsin.

İçimə fırtınalar düşsün, qarışsın, bulansın, durulsun, içimdəki duyğular sənə doğru axsın.

Fərəhində itsin kədərim, kədərində yuyulsun ürəyim.

Mənə bax ki, mən baxmayım başqa yerə.

Sənin gözlərində tapdığım dünyanın sevincini yaşayım, yolumu azmayım, sənə doğru addımlayım.

Mənə bax, gülüm.

Mənə bax ki, sevgisizliyin əzabından qurtulduğumu anlayım, yalqızlığımın sonunu yaşayım.

Mənə bax ki, gözlərindən köçsün ruhuma ruhun,
qovuşsun ürəyimə ürəyin.

Anlayım ki, səndəyəm.

Mənə bax ki, səndən başqasını görməsin gözlərim,
sənin üçün səslənsin könül sözlərim.

***xxx***

Gülüşünü çox sevdim.
Gülmək sənə çox yaraşır, gülüm.
Gülləndə dünya gülür gözlərində, kədər gizlənir, qəm aralanır səndən.
Sanki bütün qapıların kilidi açılır.
Ürəyinin işığı gülüşündə saçılır.
Ona görə içimdən səni güldürmək keçir hər zaman.
Hər sözümə gülümsəməni o qədər istərdim ki, bilə bilməzsən.
Bəlkə bu gülüşünə bağlıdır ruhum.
Bəlkə gülüşündə gizlənib ümidlərim.
Bəlkə gülüşündə itəcək kədərlərim.
Bəlkə gülüşündə canlanacaq, güləcək gələcəyim.

## Susma, könlüm

Susma, könlüm.
Sən susduqca necə dönər gecələr gündüzə,
qaranlıqlar aydınlığa, Ay Günəşə.
Sən sussan fəryadını necə aparar ruzgar sevgiliyə, yağmur çiçəyə.
Nə söyləyər bülbül gülə?
Sənin vurğularındadır həyat.
Sənin vurğularından başlar həyat.
Acıdan söyləyərsən.
O qədər içdən söyləyərsən ki, acını sevdirərsən, acı bala dönər.
Sevgindən mahnılar söyləyərsən, sevgilin baxdığı hər yerdə səsini duyar,
sevginlə böyüyər, sevginə bürünər.
O zaman anlar sənsiz yaşamayacağını,
o zaman anlar səninlə yanacağını.

## Yalqızlığın mahnısı

Bir mahnı gəlir içimdən.
Bir mahnı yaşayıram mən.
Bir mahnı yaradıram mən.
Yalqızlığın da öz mahnısı var, gülüm, bilirsənmi?
Onu ancaq yalqız qalanlar bilər, sən hardan bilə bilərsən ki, gülüm?!
İçimdəki bütün səslər üsyana qalxanda yaranır o mahnı.
Üsyan, hayqırtı əlində qalır ürək,
sanki fırtına qopur, qasırğa başlayır və sanki sürükləyib aparacaq hər şeyi.
Amma fırtına qopduqca qopur,
bütün gücü ilə sarsıdır ruhumu, silkələyir içimi.

O zaman ümid dayaq olur ruhuma, güvənc hissi tərk etmir məni.

Qorxular artdıqca əyilməmək qeyrəti güc gəlir, –

qorxularla öcəşmək, üsyanla üzləşmək, fırtınayla gözləşmək ehtirası sarır ruhumu.

Ruhum "Səni heç nə yerindən qopara bilməz, –

üsyanı dinlə, fırtınaya bax, ildırımı gözlə, özünə inan" deyir mənə.

O ildırım çaxanda yarılacaq qaranlıq, yaranacaq aydınlıq.

Yalqızlığın mahnısını dinlədinmi, gülüm?

Ətrafın adamlarla dolu, amma ruhları səndən nə qədər uzaq.

Nə qədər çoxluq və  yalqızlıq.

Anlaşılmamaq qorxusu, anlamamaq qorxusu, fərqlənmək qorxusu səni qorxutmayanda yaranacaq o musiqi.

O zaman içindəki musiqini dinlə, o səsi duymaq üçün arıl, durul, səsi yalqız qoyma.

Yoxsa itər, azar, ayrılar, başqa səslərə qarışar.

Yalqızlığın mahnısını yaratdınmı, gülüm?

Hər doğruya can atdığında, doğru bildiyini təsdiq edəndə tək qaldığını görəcəksən.

Xəyanətlə üzləşəndə, zərbələrə tuş gələndə yaranacaq o musiqi.

Yenə sarılacaqsan ruhuna, inamına.

Yoluna baxacaqsan, yol gedəcəksən və getdikcə hər addımın musiqi yaradacaq.

Sən gedəcəksən, yol də səninlə gedəcək, duyğuların çiçəkləyəcək.

İstər qış olsun, istər bahar, içində gəzdirəcəksən o təravəti, yanğını, susuzluğu, sonsuzluğu.

İçində üşüyəcək, içindəki Günəşə gülümsəyəcəksən.

İçindəki yağmurda islanacaq, içindəki ruzgarla səsləşəcəksən, musiqini notlara düzəcəksən.

Yalqızlığın musiqisi ümidsizlikdən ümidə qədər,

əridən kədərdən dirildən fərəhə qədər,

dibsiz uçurumdan çıxarıb yaratmaq eşqinə qədər çəkilən yoldan yaranır: –

qorxunun cəsarətə çevirdiyi, çətinliyin sındırmadığı, sədaqətin sevdirdiyi ömürdən yaranır.

Yaranır ki, üsyanda qalmasın ürək, yolda qalmasın arzular, çətinlikdə dayanmasın, qaranlıqda azmasın ruh.

Yaranır ki, fərəh bəxş etsin, üzləri nura qərq eləsin, sevdirsin, sevindirsin.

Yaranır ki, yalqızlığın atəşi işıq olsun qaranlıqda.

Yalqızlığın mahnısını sevdinmi, gülüm?

Yenə soruşum?

Yalqızlığın atəşinə yandınmı, gülüm?

*xxx*

**Ruzgar gətirdimi ilk məktubumu?**

Heç itməsini istəmirəm o məktubumun.

Çox həyəcanla yazmışdım.

İstəsəm də ikinci kərə yaza bilmərəm.

Əgər məktubumu alsan, itirmə.

Qəlbimin hıçqırıqları var orda.

Bəlkə də mənim yaşadığım kimi duymazsan o hıçqırıqları, amma saxla məktubumu.

Gün gələr anlarsan, sən də mənim kimi yanarsan.

Cavab yaz deyə yazmıram sənə məktubu,
sadəcə özümü saxlaya bilmirəm yazmaqdan.

**Uzadıram ruzgara əllərimi...**

Acı çəkəndə ən yaxın dostlarım ruzgar və yağmurdur,
içimə axırlar sanki.

Təbiət də ağlayır deyə düşünürəm, eyni haldayıq, ağlayırıq.

Bir az da əsdiririk yörəni.

Hələ ruzgar əsərsə, saçlarımı qarışdırar,
mən heç toxunmuram saçlarıma, – istədiyi kimi dağıtsın deyirəm.

Amma qəfildən qarşıma cıxsan, ilk tərpənişim şey əllərimi saçlarıma aparmaq olacaq.

Necə də qəribədir.

Saçlarımı düzəldəcəm deyirəm, qəlbim param-parça.

Yağmurdan sonra Günəş cıxsa, bir işıq düşsə içimə, ümid isitsə qəlbimi, toplayar qəlbimin param-parça halını.

Sonra buraxmaram o ümid parçasını, qəlbimdə becərərəm.

Çöldə ruzgar əssin, yağmur yağsın,
içimdə ümid qalsın, məni qoynuna alsın.

**Uzadıram ruzgara əllərimi…**
Səni mənə gətirəcək kimi.
Məni sənə yetirəcək kimi.
Barı məktubumu yetirsin, qəlbimin səsini dinlətsin.

**Uzadıram ruzgara əllərimi.**
Ovuclarıma su damlası düşür. Yenə göylər ağlayır...

Amma ruzgar əsir, çox güclü əsir, həyəcanımsa artır, göz yaşlarım hey axır – görəsən

**Ruzgar gətirdimi ilk məktubumu?**

***xxx***

**Gecələr gətirdimi məktubumu**
Sən səssiz gecələri dinlədinmi heç?
Tam bir sakitlikdə,
Hər şeyin sakit
amma hər şeyin də səninlə
öz dilində danışdığı gecələri.
Gecənin sirri də bundadır elə...
Sükut içində bütün səslər ürəyə çatır.
Duyursan Ayın hüzünlü işığını,
ulduzların sayrışmasını,
yarpağın titrəməsini,

çiçəyin təravətini.
Yollardakı addım səsini,
ruzgarın pəncərəni döyməsini,
gecənin səhər həsrətini duydunmu heç?
Mən duydum.
Çünki səssizliyin içinə atmışdım özümü.
Yalqızdım, hüzünlüydüm,
sənsizdim cünki.

O zaman gecə qucaqladı məni,
həsrətimi dinlədi,
duyğularım inlədi,
hər şey dilə gəldi o zaman.
Ah, bilə bilməzsən nələr duydum mən.
Anladım ki, gecə səhərə,
yollar addımlara,
çiçəklər açılmağa,
yarpaqlar böyüməyə,
ruzgar uzaqlara əsməyə,
buludlar göz yaşını tökməyə
daim həsrətli.

Həsrətə həsrət qatdım mən də,
həsrətə qatıldım.
Gecəylə bir oldum,
ruzgarla əsdim,
buludla ağladım,
çiçəklə açdım,
sabahı qarşıladım.

Həsrətə qovuşdurdu məni həsrət,
həsrətdə doğurdu məni.
Heyrətdə yaratdı məni.

***xxx***

**Yağmur söylədimi sənə doğru axdığımı**

Heç yağmurda islandınmı?
Heç qəlbinə axdımı göylərin duruluğu?
Heç gözünün yaşına qarışdımı yağmurun damlaları?
Heç qaçdınmı yağmurun axışında?
Əgər yaşamadınsa bunu
Həsrət qəlbini yandırmamış hələ.
Yandırsaydı edərdin bunları mənim kimi.
Arardın yağmurda həsrətini,
Duyardın qəlbimin nəğməsini.
Bəlkə sən də mənə doğru axardın,
İçimdə ümid oyadardın –
Sənə sevgimin çatdığını,
Yağmurun sirrimi açdığını,
Sənə doğru axdığımı
Ümidə qatardın.

***xxx***

Qaranlıq gecədə Ay gördüm, içimə işıq doğmuş kimi oldu.
Ay gecənin sirri, gecənin işığı, amma tam işıqlandırmadığı.
Sirri özündə gizli.
Aya baxıram, gecənin sirrini anlayıram.
Gecənin qaranlığına baxıram, Ayın gözəlliyini görürəm.
Mən hardayam, onu bilmirəm.
Gecənin qaranlığındamı, Ayın işığındamı?
Səni gözləyirəm – göz yaşlarım axır.
Səsini duymaq istəyirəm – göz yaşlarım axır.
Sənə sığınmaq istəyirəm – göz yaşlarım axır.
Göz yaşım çiçəyin üstünə düşdü,
Ayın işığında mirvari tək parladı.

Baxdım, səni görmüş kimi oldum.
"İçimdənmi gəldin?" dedim sənə xəyalımda, gülümsədim.
Göz yaşımda qovuşdum sənə.
Yenidən yollarına baxıram, ümidlə səni gözləyərək...

***xxx***

Yorğun və hüzünlüyəm.
İçimdə gün batmış, nə ay çıxmış, nə ulduzlar parlamış.
Gün batmış, çıxacağını ümidə saxlamış kimi,
məni məndən almış kimi,
hər şeyin sonu yetişmiş kimi.
Yorğun və hüzünlüyəm.
Kimsəyə şikayətim yox, ürəyimdə özümə gileyim çox.
Niyə susmuş ürəyim, məndən uzaqlaşmış, mənə yadlaşmış.
Çoxmu yordum səni, dinləmədim səsini?
Çoxmu uzaqlaşdım səndən, qaçdım özümdən?
İndi sənə doğru yolu tapmalıyam, ona sarılmalıyam – sənə çatmaq üçün.

***xxx***

## Duyğu bağçası

Mənim duyğu bağçam.
Səni çox sevdim.
Səni gözlədim, sevincimi gözləyən kimi.
Səni arzuladım kədərimdə göz yaşlarımı tökmək üçün.
Sən mənim duruluq bulağımsan,
buludları göydən aralayan Günəş şəfəqimsən,
göy qurşağımsan – min bir rəngə çalan.

Sən mənim qanadlarımsan – göylərə ucaldan, azadlığın fərəhini yaşadan.
Çiçəklərimin ətrisən, – yalnız mənim üçün açırsan.
Yolumsan – yalnız mənim gedə biləcəyim,
səndə yaşaya biləcəyim.

***xxx***

Artıq bir gözləntim yox!
Nə qədər çox yerə baxarsa, gözlər görməz görəcəyi həqiqəti.
Nə qədər çox yerə uçsa, duyğular itər sonsuzluqda,
vara bilməzlər mənzil başına.
Gözləntiləri buraxdım artıq.
Çünki qıraq yerdən gözlənti ümidsizliyə doğru yol açır.
Ömrümün yolunu ciddi düşünməli.
Yolumu çəkməli bir xətdə, bir yöndə.
Ruhumdan gözləməli, Ruhuma köklənməli, Ruhumu yaratmalı, ona sarılmalı, yenidən başlamalı.
İçimdəki bütün duyğuları işığa çıxarmalı.
Hansısa yanacaq, hansısa boy verəcək Günəşə sarı, açılacaq qönçələri.

***xxx***

Sakitəm bu gün.
Sanki qabarmaq istəyən dəniz kimiyəm.
Ən dərinliyimdə nələr baş verir, yalnız özüm bilirəm.
Üzdən sakitəm.
Dalğalarımda Günəş əks olunsa da, dibinə çatmır dərinliyimin.
Çox sakitəm, çox dərinəm.
Çox səssizəm, çox qaynayıram.
Çox coşğunam, içimdən içimə axıram...

***xxx***

Sevməyincə sevgini, itirməyincə kədəri, qayğı çəkməyincə qayğını, fədakar olmayınca fədakarlığı, hiddətlənməyincə qoruma gücünü, dəyər verməyincə yaratmaq anlamlarını tam anlamaq olmur. Demək ki, yaşamaq da tam olmur.

***xxx***

Dayananda hər şey sonludur, davam etdikcə isə sonsuz, – düşüncələr də, sevgi də, qayğı da, doğmalıq da, Yollar da... sonsuzdur.

***xxx***

Günlər dəyişməyəcək, ömür dəyişməyincə,
Adamlar dəyişməyəcək ömür dəyişməyincə,
Hadisələr dəyişməyəcək ömür dəyişməyincə.
Ömür dəyişincə Günəş bir başqa cür doğacaq.

Yeni ümidlərlə, gün başqa cür bitəcək, gecə başqa cür keçəcək, gün başqa cür başlayacaq. Hər şeyə məna qatan ömürdür, insanın necə baxmasıdır həyata, insanlara.

***xxx***

Doğmalıq – anladım ki, ömründə varam, yolunda varam, sabahında varam, ölümündən sonra da varam.

***xxx***

Payız niyə kədərlidir, bilirsənmi? Çünki təbiətin bütün bəzəyi gedir, sanki gerçəklik qalır. Və o getmiş gözəlliyə ağlayır təbiət də. Saralmış yarpaqlar küləklə sovrulur və əlinlə tuta bilməyəcək, amma minbir rəngə boyanmış rəngləri ilə uçuşur ətrafımızda. Həm heyran qalırsan təbiətin bu zamanında belə öz gözəlliyini qorumasına, həm də yerinə gəlməyəcək yarpaqlara, güllərə ağlayırsan. Sevdiyini itirmək də elədir. Payız gəlir adamın içinə. İçini, ruhunu üşüdür ruzgar. Əlindən uçub getmiş canlılığı, təravəti, sevgini düşünürsən, o zaman

kədərli xatirələr payız yarpaqları kimi yörəndə dövrə vurur. Həsrətlə düşünmək, xatırlamaq və o gözəl günlərin anıları ilə isinmək qalır adama. Gedən dönməyəcək, qalansa yaşamalı, xatirələri də yaşatmalı. Unudulmaz günlərin canlılığını davam etməli, ruzgarla sovrulmamalı. Yaza qədər gözləməli. Yeni çiçəklər açana qədər, fərəhlə dolana qədər, yenidən güclü olana qədər.

*xxx*

Hər kəs həyatdan şikayətli, hər kəs başqasını suçlayır. Hər kəs həyatın onun qarşısına nə çıxartdığını bir-birinə danışır. Həyatın suçu yoxdur. Həyat tələ deyil, həyatda adamların ilişdiyi tələ var – ağalıq həvəsi, zəngin olmaq ehtirası, şöhrətpərəstlik, vəzifəpərəstlik... Saymaqla bitməz. Hər kəsin öz tələsi var, amma həyatın adına çıxırlar. Nə zaman ki, həyatı deyil, özlərini suçlayacaqlar, daxildə ağalıqdan, şöhrətdən, vəzifəpərstlikdən ... azad olacaqlar, O zaman tələdən qurtulacaqlar. O zaman özlərini də, həyatı da sevəcəklər.

## *Monotonluq*

Bir televiziya verilişində artıq son nümayəndələri qalmış xalqdan – hindulardan danışılırdı. Taxtadan fiqurlar düzəldib gələn turistlərə satmaqla keçinirdilər. Musiqiləri də yalnız bir tondan ibarət idi. Nə qalxırdı, nə enirdi, – bir ahənglə davam edirdi. Onların musiqilərini dinləyəndə düşündüm ki, bizim millətimizin musiqisi necə də dərindir. Hər şey var orda.

Yazmaq istədiyim həyat ahəngindəndir. Həyat da bir ahəngdən ibarət ola bilir. Nə qədər çox alətdə çalsan da, nə qədər bəzəkli ahəngdə çalsan da ahəng eynidir. Monotonluq budur. Hər gün eyni yataqdan durmaq, eyni yemək, eyni iş, eyni iş yoldaşları, eyni sənədlər, eyni yol, eyni söhbətlər, havaya belə vərdiş olmaq, eyni veriliş, eyni serial, eyni tədbirlər, iclaslar .... sayını artırmaq da olar.

İnsan bütün bunlara alışdıqca hər şey monoton gəlir. O zaman əyləncə, yeni dostlar, yeni yerlər, yeni macəralar axtarışına başlanılır. Bu, hadisə baxımından əlvanlıq gətirsə də, yenə də monotonluqdan çıxılmır, yenə buna da alışılır, yenə eyni, təkrarlanan hallar, söhbətlər, eyni ahəng, eyni qayğı...

Necə xilas olmalı monotonluqdan?! Monotonluq adamın içindədir. Yörədəki adamlar, hadisələr rəngdir, bəzəkdir, ömrün əsas xətti isə monotonluqdadır. İçdə inkişaf baş verməyincə, monotonluq dəyişməyəcək. Ömrü dəyişdirən nədir – həsr olunduğu məqsəd və ona doğru gedilən yol. O yolda yaranan dəyişikliklər. Yaşamağın nədənini bilmək və öz aqibətini yaratmağın fərəhini yaşamaq! Monotonluqdan çıxmaq üçün yeni notlar çalınmalıdır – içdən gələn. O musiqinin ahəngindən baxılmalı həyata da, insanlara da. O ahəngdə də yaşamaq gərəkdir – hər gün yeni notlarla.

***xxx***

Arzular çox, arzular böyük. Həyat amansız, insafsız.

Arzular kövrək, arzular zərif, həyat sərt.

Arzular aydın, arzular günəşli, həyat dumanlı, sisli.

Arzular – çiçək, həyat qaya.

Arzular – yol, Həyat – əngəl.

Amma arzular davamlı, tükənməyən, bitməyən, sonsuz.

Arzular ümidlə birləşən, inamla qovuşan, iradəylə möhkəmlənən.

Arzular axan sular, qayanı yaran. Arzular günəş – qaranlığı qovan, Ali Həyat yaradan.

Arzular ölümü ötən, ölümdən sonra yaşayan – Yeni ömürlərdə var olmaq üçün, həyatı yeniləmək üçün.

Biz də bu arzularla yaşayırıq.

## Anam

Əllərimi isidən əllərin, başıma sığal çəkən qayğın üçün darıxdım. Bir yanlışım olanda susqun, amma kədərli baxışların üçün darıxdım. Uğurumdan sevinəndə gözlərindəki işıq üçün darıxdım. Mənimlə sevinməyin, gülməyin üçün darıxdım. Mən güləndə sakit gülüşün üçün darıxdım, mən ağlayanda mənə təskinliyin üçün darıxdım. "Səsinə qurban" deyişin üçün darıxdım. Gecələr üstümdə əlinin olması üçün darıxdım. Küçəni dönənə qədər arxamca baxmağın üçün darıxdım. Bir gün görməyəndə məni saran həsrətli qucağın üçün darıxdım. Məni pis dillərdən qorumağın üçün darıxdım, haqqımda xoş söz deyəndə titrəyən səsin, kövrələn gözlərin üçün darıxdım. Bişirdiyin yeməyin ətri, qarşıma sevgiylə gətirməyin üçün darıxdım. Yeni paltar alanda "qızıma hər şey yaraşır" deməyin üçün darıxdım. Sakit səsli zümzümən üçün darıxdım. Başqalarının dərdinə qalmağın, qayğılarını bölüşməyin üçün darıxdım. Səninlə olacaq xəyallarım, arzularım üçün darıxdım. Səninlə birlikdə uçdu onlar da. Arzular, xəyallar, ümidlər də gömülərmiş. Səni sevindirə bilməyəcəyimə ağlayıram, səninlə gülə bilməyəcəyimə, səninlə bölüşməyəcəyimə görə ağlayıram. Səni görməyəcəyimə, səsini duymayacağıma görə ağlayıram.

Kədərin içində qərq oluram, sənsizlikdə üşüyürəm, ana!

Hər şey kədər çağırır, kədər oxuyur. Yenə də özün çatırsan dadıma. Yenə də istiliyin, sevgin, qayğın o günlərdən işıq salır ruhuma. Yenə də kədərli ürəyimi – yaşadığımız xoşbəxt günlərin xatirələri aydınladır. Yenə də sənsiz olmadığımı, səndən bir parça olduğumu hiss edirəm. İndi sənsiz olsam da, yenə də sənli yaşayıram.

***xxx***

Yol gedirəm. Göyü görürəm, sonsuzluğundan heyrətlənirəm. Günəş mənə gülümsəyir. Çiçəklər salamlayır. Ruzgar üzümə əsir. Özümü duyuram, özümü görürəm. Dayanmıram, dayansam hər şey dayanar. Yolun uzunluğunu görmürəm, çətinliyindən qorxmuram. Çətinliyi sevdirir yol. Çünki çətinliklər içimdəki naşılıqdan, qorxaqlıqdan, yarımçıqlıqdan çıxmağıma kömək edir. Arılıram, duruluram yol getdikcə. Adamlıq yükünü içimdən atdıqca, insanlıq yükünü alıram çiyinlərimə, qanadlanıram. Yol getdikcə yola doğmalaşıram. Yol elə mənəm, göy üzü gözlərimdə, Günəş gülüşümdədir. Çiçəklər fərəhimdə, ruzgar yerişimdədir.

***xxx***

Ehtiraslı bir sevinc bürüyüb içimi. O qədər fərəhliyəm ki. Üzlərə baxmışam səhər-səhər. Kədərli, sakit, ümidsiz, ümidli, qayğısız. Amma hər üzdə işıq görürdüm, hər üzə baxanda "məni əhatə edən insanlar, öz dərdlərinizlə, sevinclərinizlə necə də mənə doğmasınız" deyə düşünürdüm. Kaş ki, kədərinizi əritməyə yardım edə biləydim, kaş ki, sevincinizə sevinəydim. Hər şeyə ehtiyacım var. Həm ağlamaq, həm gülmək, həm hər kəslə danışmaq, ürəkdən gülmək istəyirəm. Hava da elə gözəldi ki. Hər şey açıq, aydın, işıqlı, rəngli. Quşlar necə uçurlar – Göylər onlarındır sanki. Ata demişkən, dünyaya gəlişimə hədsiz dərəcədə sevinirəm.

Əgər gücüm çatsaydı, deyərdim ki, insanların kədərlərini mənə bağışlayın, sevinclərini də verin mənə, artırım özlərinə paylayım.

Əgər gücüm çatsaydı, ruhumu paylaşardım. Yaşamaq gözəldir bütün ağrısı, fərəhi, çətinliyi, mürəkkəbliyi və sadəliyiylə. Yaşamaq, sevmək, bölüşmək, paylaşmaq – mənim həyatım, mənim sevincim, mənim kədərim, ruhum, özümlüyüm.

## Son söz yerinə

İstəkli oxucu!

Yazılarımı kitab saymadım. Çünki, Soylu Atalı demiş, "Kitab böyük sözdür, qutsal hadisədir, ancaq insanlarla ünsiyyətin ən uğurlu variantı kitabçılıq üsuludur".

Mən, sadəcə olaraq, Ocaqçı kimi yaşadım. Asif Atanın yaratdığı "Özüylədöyüş" ideyası əsasında özümlə döyüşdüm, düşüncələrimi, duyğularımı Ata kitablarının, ideyalarının köməyi ilə yetkinləşdirməyə çalışdım. Bu səviyyə ilə Ata ideyalarını xalqa çatdırmağı məqsədimə çevirdim. Məqsədim sevgimə, fərəhimə çevrildi, sevgim, fərəhim yazılarda da öz əksini tapdı. Heyrətləndim yazdım, kədərləndim yazdım, fərəhləndim yazdım, sarsıldım yazdım, inandım yazdım, döyüşdüm yazdım. Ocaq tədbirlərində, xalqlaşma əməllərimi həyata keçirəndə heyrətimi, fərəhimi bölüşdüm.

İndi də ömrümün sevgisini, sevincini sizlərlə kitab vastəsilə bölüşmək istəyirəm.

**Atamız Var olsun!**

# İçərisi


Asif Ata (Ruhani Sənəd) ........................................................5
Soylu Atalı (Ruhani Sənəd) ....................................................7
Soylu Atalı (Ruhani Sənəd)......................................................8
Ön söz (Soylu Atalı)................................................................9
Özümlə görüş (Ocağa gəlişin 15 illiyi münasibətilə)..............15
Aqibət yiyəsi olmaq................................................................18
Mütləqə İnamın Evlad ömrü ilə Birliyi ...................................19
Özümləşən Düşüncələrim........................................................23
Atanın evi ...............................................................................27
İnamımız – İnam Evimiz.........................................................29
Bayramlaşan fərəhimiz............................................................33
İdeala səsləniş.........................................................................36
Bugünümüz ............................................................................37
Ulu Atam.................................................................................38
Özümlə döyüş tələbim.............................................................39
Qurulma..................................................................................42
Dəyərlərimizin qüdrəti ...........................................................53
Fərd – Xalq – Bəşər................................................................55
“Evlad Günü” – Ocağa gəlişim ...............................................56
Səcdə haqqında.......................................................................58
Səfər Mərasimimiz – məktəbimiz ...........................................59
Ocaqçılıq – quruculuqdur........................................................82
Fərq.........................................................................................84
İnsanı kəşf etmək....................................................................87
Bugün – Sabah.........................................................................88
Qədimliyimiz – örnəyimiz.......................................................93
Yurdsuzluq – mənəvi çolaqlıq.................................................105
Bəşərilik yönüm .....................................................................106

**Bədiiyyat**

Susma, könlüm .......... 116
Yalqızlığın mahnısı .......... 116
Ruzgar gətirdimi ilk məktubumu? .......... 118
Gecələr gətirdimi məktubumu .......... 119
Yağmur söylədimi sənə doğru axdığımı .......... 121
Duyğu bağçası .......... 122
Monotonluq .......... 125
Anam .......... 127

# Nurtəkin Atalı
**(Zamanlı Könül Üzeyir qızı)**

# Heyrətimin İnciləri

**(Türk dilində)**

**Kitab yazarın yatırımı ilə basılmışdır.**

**Bağlantı ünvanı: www.asifataocagi.com**
**nurtekin_atali@mail.ru**

**Tel: 050-527-70-50**
**055-206-52-70**